Fənn:Dilçiliyə giriş

Mühazirə 1: Dil ictimai hadisədir.

Plan:

1. *Dilin mahiyyəti*
2. *Dilin vəzifələri*
3. *Dil və siniflər*
4. *Dil və mədəniyyət.*
5. *Dil və irs*

Dil cəmiyyətlə bağlıdır. İnsan cəmiyyətində elə bir fəaliyyət sahəsi tapılmaz ki, oradan dildən istifadə olunmasın. Buna görə də ta qədim zamanlardan başlayaraq insanlar dil və onun təşəkkülü ilə maraqlanmış, bu haqda müxtəlif fikir və rəylər meydana çıxmış, nəticədə, dil haqqında elm- dilçilik yaradılmışdır.

Dilin ictimai hadisə olmasını heç kim inkar etmir. Çünki dil cəmiyyətə xidmət edir, cəmiyyət üzvləri arasında əlaqə yaradır. Dil cəmiyyətin nmalıdır. Buna görə də dilin ictimai mahiyyətin və vəzifəsini aydınlaşdırmaq üçün ona- insan cəmiyyətində dil necə əmələ gəlmiş, onun quruluş ünsürləri bir-biri ilə necə əlaqələnir, cəmiyyətdə onun rolu nədən ibarətdir və s. cəhətlərdən yanaşmaq lazımdır.

Dilin ən mühüm xüsusiyyətlərdən biri onun insanlar arasında ünsiyyət vasitəsi, fikir mübadiləsi vasitəsi olmasıdır. Deməli,dilin əsas vəzifəsi həmin dildə danışan cəmiyyət üzvləri arasında əlaqə yaratmaqdır. Buna görə də dildə işlədilən elə bir dil faktı tapmaq olmaz ki, o dildən kənarda əmələ gəlmiş olsun. Dil deyəndə birinci növbədə, səsli dil nəzərdə tutulur. Səslə dil danışılır, eşidilir və bunlar da insanlar tərəfindən dərk olunur. Səsli dilin materialını səslər, sözlər, söz birləşmələri və cümlələr təşkil edir. Dil vasitəsilə insanlar öz hiss, həyəcanlarını, istək və arsularını bir-birinə söyləyir və bir-birini başa düşməyə nail olurlar, bunun səbəbi aydındır, çünki dil cəmiyyətlə bağlıdır, cəmiyyətdən xaricdə dil yoxdur. Insan cəmiyyəti dilsiz yaşaya bilməz.

Spesifik ictimai hadisə olan dilin başqa ictimai hadisələrdən fərqi nədən ibarətdir? Məlumdur ki, cəmiyyətə xidmət edən hər hansı bir hadisə ictimai hadisə adlanır. Bu cəhətdən bütün ictimai hadisələr bir- birinə oxşayır. Lakin ictimai hadisələrin cəmiyyətə xidmətetmə sahələri başqa-başqadır. Doğrudan da, əgər ictimai hadisə olan bazis cəmiyyətə iqtisadi, üstqurum siyasi, hüquqi, estetik cəhətdən xidmət edirsə, dil

cəmiyyət üzvlərinin bütün fəaliyyət sahələrində onlara bərabər ünsiyyət vasitəsi kimi xidmət göstərir.

Dil ünsiyyət vasitəsi olmaqla, ikitərəfli bir prosesdir. Dil həm danışan və həm də dinləyən üçün aydın olmalıdır. Belə omazsa, o, ünsiyyət vasitəsi olmaq vəzifəsini itirər, dil olmaqdan çıxar. Deməli, dil olmaq üçün onun ünsiyyət vasitəsi, fikir mübadiləsi vasitəsi olması əsasdır. Dilin ictimai mahiyyətindən danışarkən insan nitqi nəzərə alınır ki, bu da konkret dillərdən (Azərbaycan, rus, ingilis, ərəb, fars və s.) ibarətdir. Belə dillərin hər birinin özünəməxsus xüsusiyyəti və ya quruluşu vardır. Bu və ya başqa bir sistemi əmələ gətirən hissələrin bütöv halında bir-biri ilə bağlanması vacibdir. Dili əmələ gətirmək üçün dil faktlarının da müəyyən sistem üzrə tam halda birləşməsi tələb olunur.

Azərbaycan dilində dağ, daş, bağ, su, torpaq və bu kimi sözlərin, İnsana su lazımdır, Bu torpaq bol məhsul verir və s. kimi cümlələrin mənasını başa düşməyimizin səbəbi nədir? Bvu suala cavab vermək üçün dilin quruluşunu başa düşmək lazımdır. Dilin quruluşu deyəndə, bu və ya başqa bir dilə aid olan səs tərkibi, səs tərkiblərindən ibarət olan sözlər, onaların mənası, sözlərin dəyişmə və birləşmə xüsusiyyətləri nəzərdə tutulur. Bunlar olmadan nə sözlərin, nə də cümlələrin mənasını başa düşmək olar.Deməli, dilin quruluşu deyəndə, onun bütövünü əmələ gətirən ayrı-ayrı hissələr tam halda təsəvvür olunur.

Dili əmələ gətirən danışıq səsləri, sözlər və cümlələrdir. Bunlarsız heç bir dili təsəvvürə gətirmək olmaz. Danışıq səsləri dilin səs materialını təşkil etdiyi kimi, bu səslərin müəyyən sistem üzrə birləşməsi sözün mənasını, sözlərin müəyyən sistem üzrə birləşməsi və damışıq aktını əmələ gətirir ki, bu da dilin mahiyyətini təşkil edir.

Deməli, səslərin birləşməsindən sözlər, sözlərin birləşməsindən cümlələr əmlə gəlir ki, bunlar da vəhdət halında dilin quruluşunu yaradır. Bu da ayrı-ayrı fərdlərin deyil, kollektivin malıdır. Kollektivin malı olan dil insanlar arasında ünsiyyət vasitəsi və fikir mübadiləsi vasitəsidir.

Hər bir şəxs duyduğu, hiss etdiyi haqqında fikirləşmək, düşündüyünü başqasına çatdırmaq və ya fikir mübadiləsi etmək istəyir və bunun üçün, şübhəsiz, müəyyən vasitədən istifadə etməli olur; bu ünsiyyət vasitəsi dil adlanır. İnsanların həyat tərzi, dünyagörüşü, inkişaf yolları həmişə müxtəlif və rəngarəng olmuşdur. Cəmiyyət tarixində ünsiyyət, qarşılıqlı anlaşma üçün bir çox vasitələrə müraciət edilmişdir. Buna görə dil yeganə ünsiyyət vasitəsi deyil, lakin başlıca ünsiyyət vasitəsidir.

Cəmiyyət tarixində mövcud olan bütün ünsiyyət vasitələri bir neçə cəhətdən, xüsusilə təbiətinə, mahiyyətinə, forma və məzmununa, imkan və vəzifələrinə görə iki

yerə bölünür: a) akustik (səslənən) ünsiyyət vasitələri; b) optik (görünən) ünsiyyət vasitələri.

AKUSTİK ÜNSİYYƏT VASİTƏLƏRİ Səslənən, tələffüz olunan, eşidilən vasitələr bu qrupa aiddir. Bunlar insanın eşitmə üzvünə təsir edir, onun vasitəsilə dərk olunur. Ünsiyyət üçün istifadə edilən akustik vasitələr aşağıdakılardır:

Dil ünsiyyəti. Birinci akustik ünsiyyət vasitəsi danışıq səslərindən ibarət insan dilidir. İnsanların səsli dili ilk baxışda çox sadə görünür. Ona görə ki, insan hələ kiçik yaşlarından onun qayda və qanunlarını öyrənir, bunlar get-gedə insan üçün adi hala çevrilir. Lakin səsli dil heç də ilk baxışda təsəvvür olunan kimi sadə deyil. Dil mürəkkəb sistem və quruluşa malikdir. O, insanlara hər cür ideya və fikirləri ifadə etməyə imkan verir.

Silbo ünsiyyəti. XIX əsrdə qəribə bir danışıq forması insanları təəccübləndirmişdir. Bu dil fit verməklə fikri ifadə etməkdən ibarət idi. Həmin qəribə dilin sirri uzun zaman açılmamış, gizli şəkildə qalmışdır. Məhz buna görə də səhv olaraq belə bir ideya meydana çıxmışdır ki, guya sözsüz də dil ola bilər. Bəs həmin ideya necə meydana çıxmışdır?

Hələ çox qədimlərdə Homer adasının quançes adlanan ilk sakinləri müəyyən şərait və məqamda fikri ifadə etmək üçün fit çalmaq va- sitəsindən də istifadə etmişlər. 1402–1405-ci illərdə ispanlar Homer adasını zəbt etmiş və orada yaşamışlar. Bu zaman yerli xalqın – quançeslərin öz dilləri sıradan çıxmış, onlar ispan dilinin bir dialektində danışmağa başlamışlar. Həmin vaxtdan onların fit dilləri də ispan dialektinə əsaslanmışdır. Tədqiqatçılar fitlə ünsiyyətin yerli şəraitdən irəli gələrək meydana çıxdığını söyləyirlər. Belə ki, Homer adası dağlıq, dərəlik yerdir. Burada sıldırımlı zirvələrin, uçurumların sayı-hesabı yoxdur. Yollar son dərəcə pis haldadır. Kəndlər arasında gediş-gəliş təhlükəlidir. Kiçik bir gəzinti, deyilənə görə, böyük zəhmət və əziyyətə səbəb olur. Bu çətinliyin tələbi əsasında adanın sakinləri özlərindən bir qədər uzaqda olana təcili nəsə demək istəyəndə fit vasitəsilə müraciət edirlər. Deməli, fit dili məlumatı uzaq məsafəyə çatdırmaq vasitəsi olmuşdur. Homer adasının müasir sakinləri indi, keçmişdən fərqli olaraq, başqa ölkələrdən gələnlər arasında bir-biri ilə gizli danışmaq və ya onları təəccübləndirmək üçün də fit dilindən istifadə edirlər.

Fit dili ispanca silbo adlanır. Silbo ilə danışanlara isə silbodor deyilir. Silbo böyük güc və enerji tələb edir. Buna görə də hamı eyni dərəcədə fit verə bilmir, burada bəzi adamlar fərqlənir. Məharətlə fit verə bilənlər rekord silbodor, adi fitlə "danışmağı" bacaranlar isə orta silbodor hesab olunur. Silbo səsi çox güclü və qulaqbatırıcı olur. Adətən, bunu alimlər parovoz fiti ilə müqayisə edirlər.

Bəzi ölkələrdə fit ünsiyyətinin əksini təşkil edən *pıçıltı ünsiyyəti* də meydana çıxmışdır. Pıçıltı ilə həddindən artıq alçaqdan, boğazda danışılır. Bu, əslində, xışıltıya oxşayır, lakin sadəcə xışıltı olmayıb, müəyyən fikri ifadə etməyə, anlatmağa xidmət edir. Pıçıltı ünsiyyətindən Seylon meşələrində yaşayan veddalar, Mərkəzi Afrika meşələrinin sakinləri olan piqmeylər istifadə edirlər. Tədqiqatçılar pıçıltı danışığının ovla əlaqədar (meşələrdə ov zamanı ucadan danışığın heyvanları ayıq saldığına görə) yarandığını iddia edirlər.

Təbil ünsiyyəti. Fikrin ifadəsi üçün istifadə olunan vasitələrdən biri də təbildir. Bu vasitədən Afrika, Amerika və Asiyanın bir sıra xalqları "danışıq" üçün istifadə edirlər. Həmin alət xüsusən Afrika ölkələrində daha geniş yayılmış və inkişaf etmişdir. Təbillər istifadə məqsədinə görə də iki formada olur: a) müharibə təbili; b) danışıq təbili. Ən çox istifadə olunan "danışıq" təbilidir. Bu təbil fil gönündən çəkilir. Həcmi çox nəhəngdir, ona görə də xüsusi ayaqlar üzərində qoyulur. Təbilin səsi adi, alçaq və yüksək tonda olur. Bu tonlar müəyyən məna ilə bağlıdır. Belə ki, uca səs vasitəsilə adamlar toya dəvət olunur, yaxud düşmənin yaxınlaşması haqqında xəbər verilir və s.

Musiqi ünsiyyəti. Musiqi insanın səslər vasitəsilə duyğu və hislərini dinləyiciyə çatdıra bilən akustik vasitədir. O, insanın çox müxtəlif hiss və həyəcanlarını ifadə etməyə qadirdir. Burada insanın sevinc və kədəri, məftunluq və coşqunluq əhvali-ruhiyyəsi təsirli şəkildə ifadə olunur. Musiqi ünsiyyəti universal xarakterə malikdir. Bu ünsiyyət milliyyətindən, ölkəsindən asılı olmayaraq hər bir insan üçün aydındır.

OPTİK ÜNSİYYƏT VASİTƏLƏRİ Görməklə dərk edilən ünsiyyət vasitələri optik ünsiyyət vasitələri adlanır. Belə vasitələr də növlərinə görə az deyil. Bunlardan bir neçəsinə nəzər yetirək.

Yazı ünsiyyəti. Yazı birinci dərəcəli optik ünsiyyət vasitəsidir. Şifahi danışıq üçün danışmaq və dinləmək vacibdirsə, yazı üçün yazmaq və oxumaq zəruridir. Yazı geniş anlayışdır. Buraya adi yazıdan başqa teleqraf əlifbası (morze), yol işarələri, not yazıları və s. daxildir. Yazı öz mənşəyinə görə başqa optik vasitələrlə bağlıdır. Yazı həqiqi mənada öz təşəkkülünə şəkillərdən başlamışdır1 . Hazırkı dövrdə yazı da ən zəruri ünsiyyət vasitəsidir. Müasir insanların həyatı o dərəcədə yazı ilə bağlıdır ki, mədəni adam onsuz bir gün belə ötüşə bilmir. Müasir adamın həyatını qəzetsiz, jurnalsız, kitabsız, ümumiyyətlə, yazısız təsəvvür etmək qeyri-mümkündür. Müasir cəmiyyətdə yazının imkanları daha da genişlənir.

Jest ünsiyyəti. Əlin, qolun, ayağın, başın və eləcə də bədənin hərəkəti ilə fikrin ifadə edilməsi jest adlanır; üzün, gözün, alnın, burunun və dodaqların hərəkəti vasitəsilə fikir ifadə etməyə isə mimika deyilir. Bu vasitə Azərbaycan dilçilik ədəbiyyatında əl-

hərəkət dili termini ilə ifadə olunur. Hər bir jest və ya mimikanın məzmunu qabaqcadan sözlə müəyyən edilir.

Rəsm ünsiyyəti. Fikrin təcəssüm olunmasında istifadə edilən vasitələrdən biri də rəsmdir. İnsanlar arasında bu vasitənin istifadə tarixi çox-çox qədimdir. Xalqımızın tarixinə nəzər yetirdikdə aydın olur ki, "Qobustanda və Abşeronda qayalara nəqş edilmiş rəsmlərin yarandığı vaxtdan min illər keçir". Bu vasitə insanların həyatı, düşüncəsi ilə əlaqədar olaraq tədricən inkişaf edib müasir tələblər səviyyəsinə qədər ucala bilmişdir. İndi rəsmlərə hər yerdə – kitab və jurnallarda, ev və idarələrdə, küçə və meydançalarda, sərgi və muzeylərdə rast gəlmək olur.

Rəsm əsərlərində bir sıra ifadə vasitələrindən istifadə olunur. Bunlardan ən başlıcası rənglərdir. Şəkillərdə rəngin zəruriliyi dildə səslərin vacibliyi ilə müqayisə edilə bilər. Rənglər maddi aləmin zənginliyini, gözəlliyini əks etdirməkdə, əşyaların əlamətini, keyfiyyətini, formasını, hərəkətin vəziyyətini, tərzini göstərməkdə rəssama geniş imkanlar verir. Şəklin rəngi insanı düşündürür, onda müxtəlif əhvali-ruhiyyə yarada bilir. Buna görə də rəssamlar öz təəssüratlarını, duyğu və hislərini rənglərin dili ilə ifadə edirlər. Rəsm əsərlərində rənglərin sintezi mühüm məsələdir. Bu mühüm cəhət əsasında rəssamlar bir-birindən fərqlənirlər. Rəsm ünsiyyətinin başlıca cəhəti ondan ibarətdir ki, bəzən bir şəkildə ifadə edilən fikri yazıçı nitqlə bir neçə səhifədə, hətta bir kitabda təsvir edə bilmir

Heykəl-abidə ünsiyyəti. İnsan əməyinin məhsulu olan bütün heykəl-abidələr optik vasitədir, onları görməklə dərk etmək olur. Meydançalara, mədəniyyət evlərinə, muzeylərə və başqa ictimai yerlərə yaraşıq verən hər bir heykəl sadəcə bəzək vasitəsi olmayıb, dərin insani düşüncələrlə bağlıdır.

Tüstü siqnalları ilə ünsiyyət. Tüstü siqnallarından bir çox xalqlar istifadə etmiş və edirlər. Bu siqnalla gündüz çağı və çox uzaqdan məlumat vermək olur. Amerika hindiləri bunu çox təkmilləşdirmişlər. Onlar tüstünün çoxluğu, qalınlığı, ara verməsi, tonqalın miqdarı və digər cəhətləri ilə çox müxtəlif anlayışlar ifadə edirlər. Tüstü siqnalı yaratmaq üçün uca və görünən yerdə tonqal qalayırlar. Bunun üçün tayfa nümayəndələrindən xüsusi keşikçilər tüstünü çoxaltmaq üçün tonqala yaş yanacaq, məsələn, yaşıl budaq, ot və s. atırlar. Qalın tüstünün arasını kəsib hissə-hissə buraxmaq üçün mal gönündən istifadə edirlər. Belə ki, gönü tonqala atanda tüstü ara verir, onu qaldıranda yenə çoxalır. Tüstü vasitəsilə düşmənin gəlməsi, vuruşlardakı vəziyyət və sair haqqında əhaliyə məlumat verə bilirlər.

Alov siqnalları ilə ünsiyyət. Bu vasitədən, əsasən, gecə istifadə olunur. Düşmən basqını zamanı, yaxud bədbəxt hadisə baş verəndə, yaşayış yerlərini su basanda və sair hallarda alov ucaldılır və bütün tayfa üzvlərinə müəyyən məlumat verilir. Alov

siqnallarında da alovun miqdarı, həcmi, ucalığı və s. müəyyən şərtləşdirilmiş anlayışlarla bağlıdır. Güzgü siqnalları ilə ünsiyyət. Bu, gündüz siqnallarıdır. Belə siqnallardan Şimali Amerika hindiləri istifadə edirlər. Mövcud elmi ədəbiyyatlarda göstərilir ki, Amerika etnoqrafı Riken hindi tayfalarının öyrənilməsi, tədqiqi ilə məşğul olarkən bəzi tayfaların güzgü siqnalları ilə "danışdıqlarının" şahidi olmuşdur. O yazır ki, tədqiqat zamanı hindi tayfaları dəstələri ilə görüşmüş, söhbətlər aparmış və nəhayət, başqa tayfalarla görüşmək üçün vadiyə enməli olmuşlar. Bu zaman onun yanındakılar kiçik güzgü parçasını günəş tərəfə tutub, əks-şüa vasitəsilə dərədəki tayfalara siqnallar vermişlər. Həmin anda vadidəki tayfa da cavab siqnalları göndərmişdir. Beləliklə, hər iki tərəf güzgü siqnalları – "günəş dovşanları" vasitəsilə "danışmışdır".

İşıq siqnalları ilə ünsiyyət. Məlumat verməkdə işıq siqnallarının da xüsusi rolu vardır. Məsələn, reklamlar, işıqfor, semafor, fişəng siqnalları müəyyən anlayış ifadə edir.

Bütün bu deyilənlərdən aydın olur ki, cəmiyyətdə mövcud olan ünsiyyət vasitələrinin hamısı eyni imkan və xüsusiyyətlərə malik deyil. Buna görədir ki, ünsiyyət vasitələri əsas və ya başlıca, əlavə, ya köməkçi qruplara bölünür.

Nəhayət, qeyd etməliyik ki, bütün vasitələrdən dil ünsiyyəti daha əlverişlidir. Başqa vasitələr ünsiyyət üçün dil qədər gərəkli deyil və bunların heç biri dilin rolunu əvəz edə bilmir. Dil həm fikirləşmə və həm də fikri təcəssümetdirmə vasitəsidir. Digər vasitələr isə ancaq fikrin təcəssüm olunmasına xidmət edir. Buna görə də dil əsas və başlıca ünsiyyət vasitəsidir.

Dilin vəzifələri

Dil insanlar arasında mühüm ictimai vəzifə daşıyır. Dilin köməyilə insanın bütün fikri fəaliyyəti yaranır. Ümumi ictimai vəzifə ilə əlaqədar dilin iki spesifik vəzifəsi mövcuddur.

Dilin kommunikativ vəzifəsi İnsan ünsiyyət zamanı dilin vasitəsilə yalnız informasiya mübadiləsi etmir, eyni zamanda fikirləşir, onu əhatə edən təbiətin, varlığın sirlərini dərk edir. Bu, dilin kommunikativ1 vəzifəsidir. Həmin vəzifə başlıca olub, dilin varlığını təyin edir. Kommunikativ vəzifənin rolu o dərəcədə böyükdür ki, dilin yaranması və inkişafı bu vəzifə ilə müəyyənləşdirilir. Kommunikativ fəaliyyət hər bir insanın həyatında xüsusi yer tutur. Alimlərin müəyyən etdiklərinə görə, insanın bütün vaxtının 70 faizini kommunikasiya təşkil edir. 1 Kommunikasiya (communicatio) latın sözü olub "məlumat, rabitə" mənasını ifadə edir.

Dilin ekspressiv vəzifəsi Dil fikirləşmə, anlaşma vasitəsi olmaqla yanaşı, həm də fikri təcəssüm etdirmə alətidir. Dilin fikri təcəssüm etdirməsi onun ekspressiv1 vəzifəsi

adlanır. Dilin bu vəzifəsinə yalnız fikrin təcəssüm olunması deyil, həm də dillə insan emosiyasının ifadə etdirilməsi də daxildir. İnsan emosiyasının dildə müxtəlif ifadə formaları vardır. Danışanın emosiyasını ifadə etmək üçün xüsusi leksik vahid nida sözləridir. Bununla yanaşı, insan hissinin çoxcəhətli çalarlığını əks etdirmək məqsədilə "bax belə", "ola bilməz", "ola bilsin ki" və s. bu tipli ifadələrdən də geniş istifadə olunur. Bunlardan başqa, dilin qrammatik formaları, intonasiya, vurğu və s. vasitələrin köməyilə də insan emosiyası istənilən şəkildə ifadə oluna bilir.

Dil öz spesifik vəzifələri (kommunikativ və ekspressiv) əsasında daha bir neçə vəzifəni də yerinə yetirməli olur; məsələn, danışanla dinləyənlər arasında kontakt yaratmaq vəzifəsini. Bu vəzifə nəzəri dilçilik ədəbiyyatında faktik vəzifə adlandırılır. Dilin başqa bir vəzifəsi danışanı özünə qulaq asmağa yönəltməsi, cəlb etməsidir. Məlumdur ki, insan öz nitqini izləməsə, fikrini dinləyiciyə lazımi şəkildə çatdıra bilməz. Bu deyilənlərdən əlavə, dilin insanı əhatə edən əşya və hadisələri adlandırmaq, ümumiləşdirmə aparmaq və s. vəzifələri də vardır.

Dil bu vəzifələrin hər hansı birində çıxış edirsə-etsin, insanın fikri fəaliyyətini fonetik, leksik və qrammatik vahidlərlə ifadə edir. İnsan düşünəndə və danışanda da dil vahidlərinə müraciət edir. Dil vahidindən kənar fikrin varlığı qeyri-mümkündür. Dilin kommunikativ və ekspressiv vəzifələri bir-birilə üzvi surətdə bağlıdır.

Dil üstqurum və sinfi deyildir.

Dilin ictimai hadisə olmasından H. J. Marr da danışmışdır. Lakin o, dilin spesifik ictimai hadisə olmasını başa düşməmiş, iki əsas səhv nəticəyə gəlmişdir: a) dili iqtisadi bazıs üzərində üstqurum kateqoriyasına daxil etmiş və b) dili üstqurum hesab etdiyi kimi, onu sinfi də hesab etmişdir. Odur ki, Marr yazır: "Ümumiyyətlə dil, xətti dil də, xüsusilə səsli dil istehsalat və istehsal münasibətləri əsaında yaranan üstqurum kateqoriyasıdır".

Əlbəttə, Marrın səhvi dilin ideoloji hadisə olmadığını başa düşməməsindən irəli gəlir. Məlum olduğu üzrə, dil ideoloji hadisə yox, fikri ifadə etmək, inasanlar arasında əlaqə yaratmaq alətidir.

Dili bazis üzərində üstqurum hesab etmək ciddi səhvə yol vermək deməkdir.

Məlum olduğu üzrə, hər hansı bir bazisin dəyişməsilə onun üstqurumu da dəyişir. Yəni, köhnə bazisin ləğv olunması ilə ona uyğun olan üstqurum da ləğv olunur. Lakin dil bu cəhətdən üstqurumdan tamamilə fərqlənir. O hər bir bazisin dəyişməsilə yeni keyfiyyətə keçmir.

Dil bir bazisin mövcud olduğu dövrdə deyil, cəmiyyətin bütün tarixi gedişində yaranıb inkişaf edir və onun bütün üzvlərinə eyni dərəcədə xidmət göstərir.

Doğrudan da, əgər dil bu ümumxalq mövqeyindən çəkilsə, bir sinfin bir ictimai qrupun xeyrinə, digərinin isə zərərinə xidmət etməyə başlasa, o zaman öz keyfiyyətini itirər, ancaq bir ictimai qrupun jarqonuna cevrilər.

Üstqurum özünü doğuran iqtisadi bazisin yaşayıb təsir göstərdiyi təkcə bir dövrün məhsuludursa, dil, əksinə, bir sıra dövrlərin məhsulu olub yaşayır, zənginləşir və inkişaf edir. Buna görə də dil hər hansı bazisdən və hər hansı bir üstqurumdan müqyisəyə gəlməz dərəcədə cox yaşayır.

Üstqurum olmayan dil eyni zamanda sinfi də deyildir. Qəbilə dilllərindən tayfa dillərinə, tayfa dillərindən xalq dillərinə və xalq dillərindən milli dillərə döğru inkişafın bütün mərhələlərində hər yerdə cəmiyyət üçün ümumi və vahid dil olmuş, o, cəmiyyət üzvlərinin ictimai vəziyyətindən asılı olmayaraq onlara eyni dərəcədə xidmət etmişdir.

Dilin sinfi olmaması onun daxili təbiətindən döğur, çünki dil cəmiyyətlə birlikdə yaranır və cəmiyyətin üzvlərinə bərabər dərəcədə xidmət edir. Həm də o bir sinif tərəfindən deyil, cəmiyyətin bütün üzvləri tərəfindən onlara bərabər dərəcədə xidmət etmək üçün yaradılır.

Beləliklə, cəmiyyət dili yaradır və onun (dilin) insanlar arasında ünsiyyət vasitəsi kimi işlənməsinə də nəzarət edir.

Dil və mədəniyyət.

Bir sıra digər aktual dilçilik məsələləri ilə yanaşı, "Dil və mədəniyyət" problemi də ümumibəşəri problem olan "İnsan və mədniyyət" probleminin tərkib hissələrindəndir. Elə buna görədir ki, dil və mədəniyyət probleminin məzmun və mahiyyəti ilə təkcə dilçilər deyil, həm də filosoflar, psixoloqlar, sosioloqlar və etnoqraflar da məşğul olmuşlar.

Mədəniyyət insanın təbiətə, cəmiyyətə, onun üzvlərinə və özünün –özünə münasibətində yaranır. Mədəniyyət anlayışı, adətən, nəzəri ədəbiyyatda daha çox belə müəyyənləşdirilir: mədəniyyət inasanaların ictimai əmək prosesində yaratmış olduğu maddi sərvətlərin və mənəvi nemətlərin məcmusudur.

İnsan fəaliyyətinin iki başlıca –maddi və mənəvi sahəsi mövcuddur. Buna uygun olaraq onun iki forması meydana gəlmişdir: maddi mədəniyyət və mənəvi mədəniyyət.

Maddi mədəniyyət dedikdə, ictimai fiziki əmək nəticəsində istər keçmişdə, istərsə də indi yaranmış və gözlə görunən, müşahidə edilən əşyaların cəmi nəzərdə tutulur.

Mənəvi mədəniyyət isə insanların yaratdığı elm, maarif, ədəbiyyat, incəsənət sərvətləri daxildir.

Dil və mədəniyyət arasında möhkəm əlaqə vardır. Bu əlaqə dialektik vəhdətin nəticəsi kimi özünü göstərir. Dil və mədəniyyətin geniş əlaqəsi əsasında bunlar arasında

qarşılıqlı təsir münasibəti yaranmışdır. Buna görə də dil mədəniyyətin, mədəniyyət də öz növbəsində dilin inkişafına imkan və şərait yaradır. Dünya ədəbi dillərinin meydana gəlməsi, formalaşması, inkişaf edib zənginləşməsi mədəniyyətlə sıx bağlıdır. Millətin əsas əlamətlərindən olan dil o dildə danışan xalqın milli mədəniyyətini ifadə edir.

Hazırda ortologiya dilin mədəni problemlərindən bəhs edən bir dilçilk şöbəsi kimi öz varlığını göstərməkdədir. Dilçiliyin ortologiya şöbəsinin ən başlıca vəzifəsi hər hansı bir dilin istər sinxronik, istəsə də diaxronik istiqamətdə ədəbi- mədəni əlamətlərinin xüsusiyyətlərinin obyektiv təhlilini verməkdən ibarətdir.

Dilçilkdə dillə mədəniyyəti ey

niləşdirənlər də vardır. Dillə mədəniyyətin eyniləşdirilməsi nəticəsində bəzi səhvlər əmələ gəlmişdir. Doğrudan, dil olmadan mədəniyyətdən danışmaq olmaz, bunlar biri-biri ilə əlaqədə inkişaf edir. Lakin bu heç də onların eyni olması demək deyildir, çünki mədəniyyət üstqurum kateqoriyasına aiddir, dil isə ona daxil deyildir.

Dil və irs

Məlumdur ki, insanlarda bir çox cəhətlər irsi səciyyə daşıyır. Lakin ictimai zərurət nəticəsində meydana çıxan dil irsi ola bilməz. Dili irsi məsələlərlə qarışdıranların fikrinə görə, guya görmək, yemək və s. kimi, dil də təbiətən irsidir. Buna görə kiçik uşaq heç bir şərait və mühitdən asılı olmayaraq, bioloji qanunlar əsasında inkişaf etdiyi, böyüdüyü və yeridiyi kimi də danışır. Bu ideyanı müdafiə etmək üçün dilə bioloji münasibət bəsləyənlər hətta bütün xalqların "vahid uşaq dili" olduğunu da iddia etmişlər1 . Şübhəsiz ki, bu ideyaların hər ikisi səhvdir, qeyri-məntiqidir.

Əvvəla deməliyik ki, dili anadangəlmə hesab edənlər məsələnin mahiyyətini düzgün anlaya bilməmişlər. Hər şeydən əvvəl, dilin cəmiyyətdə öyrənildiyini unutmuşlar. Məlumdur ki, hər bir uşaq dili cəmiyyətdə mənimsəyir. Buna görə də əgər dil açmamış körpə uşaq insan cəmiyyətindən kənarda qalsa, o, qaçmağı, tullanmağı, gizlənməyi və hətta bəzi heyvanlar kimi səs çıxarmağı bacaracaq, lakin ona dil öyrədən olmadığı üçün danışmayacaqdır. Bunu heyvanlar arasına düşmüş uşaqların həyatı aydın sübut edir.

Bunlardan biri Hindistanda canavarlar arasında yaşamış iki qız haqqındakı məlumatı xatırlayaq. 1920-ci ildə bir dəstə hindli meşəlikdə yerləşən kəndləri səyahətə çıxmışdır. Bu dəstədəkilərin biri hind psixoloqu Rid Sinqh idi. O öz dəstəsi ilə oktyabr ayında Qodamuri adlı kəndə gəlib çatmış və burada gecələməli olmuşdur. Gecə ev sahibi meşədə qəribə bir canlı gördüyünü söyləmişdir. Səhəri gün Sinqh yoldaşları və kənd sakinləri ilə birlikdə bu qəribə canlının göründüyü sahəyə getmiş canavarın yuvasını dağıtmağa başlamışdır. Yuvanın dibindən 2 canavar balası və 2 uşaq tapıb çıxarmışlar. Bunlar qız uşaqları idi. Qızlar üçün kənd evlərindən birinin küncündə qəfəs

hazırlanmış və onları Qızlar üçün kənd evlərindən birinin küncündə qəfəs hazırlanmış və onları bir müddət orada saxlamış, sonra uşaq evinə aparmışlar. Sinqh qızların birinə Kamalə, digərinə Amalə adı vermişdir. Kamalənin 8, Amalənin isə 2 yaşı vardı. Kamalə 9 il, Amalə isə 1 ilə yaxın insanlarla yaşaya bilmişdir. Heyvanlar arasında həyat keçirən bu qızlarda qətiyyən nitq olmamışdır. Qızlara nitq öyrətmək üçün başqa uşaqlarla əlaqə yaratmaq, onlarla oyunlar təşkil etmək təcrübəsindən də istifadə olunmuşdur. Bütün bunların nəticəsində Kamalə ancaq 3 ildən sonra ilk dəfə "bəli" və "xeyr" sözlərini tələffüz edə bilmişdir. O, 17 yaşa çatanda cəmi 40 söz öyrənmişdi.

9 il insanlar arasında yaşamasına baxmayaraq, Kamalənin nitqi lazımi dərəcədə inkişaf etməmişdi. Bu hadisə aydın göstərir ki, insanın bioloji xassəsi cəmiyyət xaricində təbii olaraq şəraitə uyğun şəkildə dəyişə bilir, lakin onda nitq yaranıb inkişaf edə bilmir. Çünki dil irsi qanunlara tabe deyil.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Abdullayev Ə. Azərbaycan dili məsələləri, Bakı, 1992
2. Babayev A. Dilçilyə giriş. B. Maarif, 2004
3. Qurbanov A. Ümumi diçilik I cild (2 cilddə), Bakı, Nurlan, 2004
4. Məmmədov N., Axundov A. Dilçilyə giriş. B. Maarif, 1980

Mühazirə 2

Dilçiliyin tarixi

Plan:

- Dilçiliyin inkişaf tarixinin dövrləşdirilməsinə dair
- Qədim dövrdə dilçiliyin inkişafı
- Orta əsrlərdə dilçiliyin inkişafı
- Yeni dövrdə dilçiliyin inkişafı
- Müasir xarici dilçilikdəki ən mühüm cərəyanlar: neolinqvistika, strukturalizm, sosiologizm

Dilçilik böyük tarixə malik elmlərdən biri olub, ən qədim zamanlardan başlayaraq dövrümüzə qədər uzun müddətli inkişaf yolu keçmişdir.

Dilçilik elminin tarixini, adətən, qədim hindlilərdən başlayırlar. Bunu səbəbi əsas etibarilə ondan ibarətdir ki, dilin qrammatik quruluşunu ilk dəfə hindlilər tədqiq etmişlər.Qədim hind dilçiliyi hindlilərin ədəbi dili olan sanskritlə xalq dili –prakrit arasında get-gedə artan ciddi fərqlərin nəticəsində yaranmışdı. Belə ki, zaman keçdikcə sanskrit öz kommunakativ vəzifəsini itirməklə əlaqədar olaraq, geniş xalq kütlələri üçün anlaşılmayan bir dilə çevrilirdi. Həmin dilin qanunlarının mühafizəsinə və onun bir dil kimi başa düşülməsinin təmin olunmasına böyük ehtiyac hiss edilirdi. Digər tərəfdən, sanskriti ədəbi bir dil kimi prakritin təsirindən qorumaq lazım idi. Bütün bu amillərin təsiri nəticəsində qədim hind dilçilyi yaranmışdı.

Qədim hind dilçiliyinin, bir növ tədqiqat obyektini eramızdan 1500 il əvvəl yarandığı ehtimal edilən vedalar- dini fəlsəfi kitabələr təşkil edirdi. Həmin kitabələr bunlar idi:

1.Riq-veda
2.Sama- veda
3.Yacur- veda
4.Atharva-veda.

Veda ədəbiyyatı abidələri vedanq adlanır. Dilçiliyə dair üç vedanq məlumdur. Onlar aşağıdakılardan ibarətdir:

1. Şikşa – Burada fonetika və tələffüz məsələlərindən bəhs olunur.
2. Nirukta – Bu vedanq leksikologiya və etimologiya məsələlərinə həsr olunmuşdur.
3. Vyakaranada isə qrammatik məsələlərindən danışılır.

Vedaların dili ilə qədim dövrün ayrı-ayrı alimləri çox məşğul olmuşlar. Bizim eradan əvvəl V əsrdə hind alimi Yaska vedaların dilinə dair geniş və ətraflı kommentariya yazmışdır. Yaska (Yaska) – ilk və peşəkar hind dilçisidir. Öz dövründə böyük şöhrət tapmış Yaska "Nirukta" (Nirukta) adlı vedanqın müəllifidir. "Nirukta" dini məcmuə olan vedaların dilinin müəyyən cəhətinin aydınlaşdırılmasına həsr edilmişdir. Bu əsərdə, əsasən, leksikoloji, etimoloji məsələlər işıqlandırılır. "Nirukta" beş bölmədən ibarət irihəcmli əsərdir. Burada sözlər müəyyən prinsiplərə görə qruplaşdırılmış və ayrı-ayrı bölmələrdə şərh edilmişdir .

Qədim hindlilər dilin qrammatik quruluşu üzərində çoxlu müşahidələr aparmışlar. Onlar həm morfoloji, həm də sintaktik hadisələrlə ciddi maraqlanmışlar. Elə buna görə də yalnız bizim eradan əvvəl IV-V əsrlərdə Hindistanda 60-dan artıq alim- qrammatik fəaliyyət göstərmişdir. Qədim hind qrammatikləri içərisində Panini diqqəti daha çox cəlb edir. O, eradan əvvəl IV əsrdə yaşamışdır. Onun sanskrit dilinə aid yazdığı qrammatikası hindlərin dilinin bütün məsələlərini tam dolğunluğu ilə əhatə edirdi. Hər şeydən əvvəl, Panini dili bir sistem kimi başa düşürdü. Bundan başqa, o,

nitq hissələrini bir-birindən ayırırdı. Söz əsası, kök, şəkilçi, daxili fleksiya, intonasiya, vurğu kimi dil vahidləri haqqında onun əsərində konkret materiala əsaslanan fikirlər vardır.

Panininin qrammatikasının maraqlı cəhətlərindən biri də bu idi ki, o, Hindistanda müxtəlif ixtisar formalarından geniş istifadə etmişdir. Bunun nəticəsində əsər formaca yığcam, lakin oxunulması, öyrənilməsi cəhətdən isə son dərəcə qəliz və mürəkkəbdir. Əsəri izahsız anlamaq qeyri-mümkündür. Elə buna görə də hələ qədim Hindistanda Panini qrammatikasının dərk olunmasını asanlaşdırmaq məqsədi ilə bir çox aydınlaşdırıcı ədəbiyyat-kommentariyalar yazılmışdır.
Panini qrammatikası hind dilçiliyinin inkişafı tarixində xüsusi mpvqeyə malikdir. Bu əsər öz müəllifinə dünya şöhrəti qazandırmışdır.

Eramızdan əvvəl Hindistanda xalq danışıq dili də alimlərin diqqətini cəlb etmişdir. Eradan əvvəl III əsrdə Vararuçi prakritin qrammatikasını yazmışdır. Dil haqqında elm yeni erada da inkişaf etdirilmişdir. Bizim eranın I əsrində hind alimi Bxartxari qrammatik kateqoriyaları fəlsəfi əsasda şərh etmışdir.

Nəhayət, qədim hind dilçiliyi öz inkişafı tarixində olduqca böyük müvəffəqiyyətlər əldə etmiş, bu dilçilik məktəbi sonralar qazandığı nailiyyətləri ilə Çin, yunan və ərəb dilçiliyinə də xüsusi təsir göstərmişdir. Ümumiyyətlə, dünya dilçilik elminin yaranma və inkişaf tarixində hind dilçiliyinin xidmətləri əvəzsizdir.

Qədim dövr dilçiliyində yunan dilçiliyi də mühüm yer tutur. Avropa dilçiliyinin bünövrəsi Qədim Yunanstanda qoyulmuşdur. Qədim Yunan dilçiliyinin iki inkişaf dövrü olmuşdur: a) yunan dilçiliyinin fəlsəfi dövrü b) yunan dilçiliyinin qrammatika dövrü.

Birinci dövrdə Yunan dilçiliyi dil hadisələrini fəlsəfi baxımdan şərh etmişdir. Dilçiliyin fəlsəfi dövründə diqqəti cəlb edən birinci poblem əşya ilə onun adı arasında münasibət məsələsi olmuşdur. Bu problemin müzakirəsində antik dövrün bir sıra görkəmli mütəfəkkirləri, o cümlədən Heraklit, Demokrit, Platon və başqaları iştirak etmişlər. Antik filosofları şeylərlə onların arasındakı əlaqədə bir məsələ daha çox maraqlandırırdı. Qeyd edək ki, həmin məsələ çox böyük və mühüm əhəmiyyətə malik idi. Bu məsələ şeylərə ad verərkən onların təbiətinə əsaslanılırmı, ad əşyanın təbiətinə görə, yoxsa adətə görə ixtiyarı olaraq verilir?

Heraklit əşya ilə söz arasında bölünməz əlaqə olduğunu göstərirdi. Heraklitin fikrinə görə, əşyanın mahiyyəti onun adı olan sözdə aydınlaşır.

Demokrit isə əksini söyləyir. O, sözlə əşya arasında əlaqə olmadığını, ona verilən adın şərtin məna daşıdığını göstərir.

Qədim yunan dilçiliyində sözlərin təsnifi problemi də filosoflarını diqqətini cəlb etmişdir. Dövrün görkəmlı alimi Platon dildə mövcud olan bütün sözləri məntiqi əsasda 2 yerə bölünmüşdür: ad və fel.

Platon ad altında o söz qrupunu nəzərdə tutmuşdur ki, onlarda nə isə deyilir və bu sözlər cümlədə kmübtəda olur.Fel adlanan sözlər isə adda deyiləni təsdiq edir.

Nitq hissələri probleminə dair antik dövrün məşhur filosofu Aristotel də fikir söyləmişdir. O, Platonun göstərdiyi ad və fel kateqoriyasına üçüncü bir nitq hissəsini-bağlayıcını artırmışdır. Aristotel ad və feli müstəqil mənalı sözlər, bağlayıcını isə qrammatik vəzifə yerinə yetirən söz kimi izah etmişdir. Ümumiyyətlə, Aristotel "Poetika" və "Ritorika" əsərlərində nitq hissələrini müxtəsər şəkildə izah etmişdir. Bundan başqa, Aristotel sözləri cinsə görə də müxtəlif qruplara ayırırdı: kişi cinsi, qadın cinsi və onalrın arasında mövcud olan cins. Aristotel fonetika məsələləri ilə də məşğul olmuşdu.

Qədim yunan dilçiliyinin yüksək inkişaf zirvəsi onun ikinci dövrü, yəni qrammatika dövrü hesab edilir. Bu dövr yunan dilçiliyi tarixində eyni zamanda, İsgəndəriyyə dövrü də adlandırılır.

Eramızdan əvvəl III və II əsrlərdə İsgəndəriyyədə yunan qrammatiklərinin məktəbi yaranmışdı. Bu məktəbin başçısı Aristarx öz şagirdləri ilə birlikdə klassik yunan ədəbiyyatının dili üzərində böyük işlər aparmışdır. Onun şagirdi Dionisi ilk dəfə olaraq yunan dilinin sistemli qrammatikasını yazmışdır. Onun cümləyə verdiyi tərif 2000 ildən artıqdır ki, kiçik dəyişikliklərlə normativ qrammatikalarda yaşamaqdadır.

İsgəndəriyyə dilçiləri nitq hissələri haqqında təlimi və eləcə də morfologiyaya aid digər bir sıra məsələləri sintaksisə nisbətən daha dərin və geniş işləmişlər. İsgəndəriyyə qrammatikləri 8 nitq hissəsi göstərirdilər; həmin nitq hissələri bunlar idi:

1) adlar
2) fel
3) feli sifət
4) artikl
5) əvəzlik
6) önlük
7) zərf
8) bağlayıcı

"İsgəndəriyyə"lilər fonetikanı hərflər haqqında elm hesab edirdilər. Qeyd etmək lazımdır ki, dilçiliyin bu sahəsi göstərilən dilçilk məktəbində ümumiyyətlə zəif işlənmişdi. Lakin onlar danışıq səslərini saitlərə, samitlərə, yarımsaitlərə ayırır, onların müxtəlif fizioloji-akustik xüsusiyyətlərini izah edirdilər.

Fonetika mövzulardan vurğu və hecalar İsgəndəriyyə qrammatikləri tərəfindən nisbətən geniş tədqiq edilmişdi.

Yunan dilçiliyinin, xüsusilə qrammatika sahəsindəki nailiyyətlərin bir çoxu bu gün də öz əhəmiyyətini saxlayır. Hazırda bütün Avropa bütün Avropa xalqlarının qrammatikaları yunan qrammatik anxalqlarının qrammatikaları yunan qrammatik anlayışlarına əsaslanır. Indi qrammatikalarda istifadə olunan terminlər latınlaşdırılmış yunan qrammatika terminlərdir.

Orta əsrlərdə dilçiliyin inkişafı

Dilçiliyin inkişafı tarixindən bəhs edərkən, orta əsrlər dedikdə, adətən V əsrdən təxminən XVI əsrə qədərki dövr nəzərdə tutulur. Bu əsrlər ərzində dünyanın müxtəlif ölkələrində dil məsələlərinin öyrənilməsi ilə bağlı olan əhəmiyyətli dərəcədə işlər görülmüşdür. Feodalizmin ilk dövrlərində, konkret demiş olsaq, V-XV əsrlərdə Şərq xalqları olduqca böyük maddi və mədəni nailiyyətlər əldə etmişlər. V əsrdən başlayaraq Hindistanda, Çində və başqa Şərq ölkələrində dilçiliyə dair bir çox əsərlər yaranmışdı.

Orta əsrlərdə dilçilik elmi diqqətəlayiq səviyyədə, əsasən, müsəlman feodal dövləti olan ərəb xilafətində inkişaf etmişdir. VII əsrin ortalarından başlayaraq Yaxın və Orta Şərq ölkələrində yaranmış zəngin və çoxcəhətli dilçilik elmi ərəb dilçiliyi adlanır. Ərəb dilçiliyi mahiyyətinə görə istila olunmuş xalqların dil haqqında biliklərinin məcmuyudur. Ərəb elminin görkəmli xadimləri xilafətin tərkibindəki müxtəlif xalqların, yaxud da onlarla iqtisadi, mədəni əlaqəsi olan xalqların nümayəndələridir. Burada ərəblərlə bərabər suriyalılar, farslar, misilərlilər, yəhudilər, türklər, yunanlar və başqaları da vardır.

Ərəb xilafəti dövründə ərəb dili elm və dövlət dili idi. Buna görə də dilçiliyə dair bilik ərəb dilində inkişaf etdirilirdi. Hətta başqa sistemli dillər tədqiq olunanda, məsələn, türk dilləri öyrəniləndə də izahat ərəbcə verilirdi.

Orta əsrdə ərəb dilçiliyinin yaranması və inkişafı ilk növbədə islamiyyətin müxtəlif dilli qəbilə və xalqlar arasında yayılması hadisəsi ilə bağlı olmuşdur. İslam dini yayılan xalqlar arasında ərəbcə yazılmış Quranı təbliğ etmək əsas vəzifələrdən biri idi. Bunun üçün isə ərəb dilinin fonetikasını, lüğət tərkibini, morfologiyasını, sintaksisini elmi əsaslar üzrə işləyib hazırlamaq və onun tədrisi metodikasını müəyyənləşdirmək ən mühüm vəzifələrdən biri idi. Beləliklə, ərəb dünyasında dilçilik geniş bir surətdə inkişaf etdirillirdi. Qeyd etmək lazımdır ki, ərəb dilçiliyini təkcə ərəblər deyil, eyni zamanda hind, yunan, fars, türk, yəhudi alimləri inkişaf etdirirlirdi.

VII və VIII əsrlərdə ərəb dilçiliyinin elmi mərkəzi xilafətin iki böyük şəhəri- Bəsrə və Kufə şəhərləri idi. Bu şəhərlərin hər birində ayrıca qrammatika məktəbləri

yaranmışdır və bunlar arasında tez-tez geniş elmi mübahisələr olurdu.Bir neçə əsrdən sonra elmi mərkəz ərəb xilafətinin paytaxtı Bağdad şəhəri olmuşdu.

Ərəb dilçiliyinin banilərindən biri Xəlil Fərahidi hesab olunur. Bəsrə məktəbinin nümayəndəsi olan Xəlil " Kitab əl-Ain" adlı ilk ərəb dili lüğətini tərtib etmişdir.

Şərq filologiyasının inkişafında Sibaveyhinin də xüsusi rolu olmuşdur. Milliyyətcə fars olan bu alim Xəlil Fərahidinin tələbəsi olmuşdur. O, "Əl kitab" adlı əsərində ilk dəfə olaraq ərəb dilinin sistemli qrammatikasını yazmışdır. Burada klassik ərəb dilinin qrammatik xüsusiyyətləri geniş işlənilmişdir. Uzun zaman bu əsərdən ərəb dilinin əməli surətdə öyrənmək məqsədi ilə istifadə olunmuşdur.

Şərqin ən böyük alimi olan Əbu Əli İbn-Sina ərəb dilçilyinin inkişafında ən böyük işlər görmüşdür. O, "Danışıq səslərinin səbəbləri" adlı filoloji əsər yaratmışdır.

Orta əsrlər dövrü Şərq dilçiliyində diqqəti cəlb edən alimlərdən biri də Mahmud Qaşqarlıdır. Mahmud Qaşqarlı dövrünün ensiklopedik biliyə malik ən görkəmli alimlərindəndir. O, ilk türkoloq-filoloqdur.

Türkologiyanın bahadırı adlanan Mahmuq Qaşqarlı XI əsrdə yaşayıb yaratmışdır. Mahmuq Qaşqarlı ərəb xilafətinin paytaxtı Bağdad universitetinda ərəb dilində təhsil almışdır. Tədqiqatçıların məlumatlarına görə o, ərəb dili ilə yanaşı, fars dilini və bütün türk dillərini bilir, onlardan həm elmi, həm də praktik məqsədlər üçün istifadə edirmiş.

Ərəb filologiyasını dərindən öyrəndikdən sonra Mahmud Qaşqarlı linqvistik fəaliyyətə başlamışdır. O, əldə etdiyi nəzəri filoloji bilik əsasında bütün dünya dilçiliyini təəccübləndirən məşhur əsərlərini yazmağa nail olmuşdur. Mahmud Qaşqarlının elm aləminə iki əsərinin adı bəllidir: "Divani lüğətit-türk" və "Kitabi-cəvahirül nəhv fil lüğətit-türk". Bunlardan birincisi türk dillərinin leksik, eləcə də fonetik və morfoloji xüsusiyyətlərinə, ikincisi isə türk dillərinin sintaksisinə həsr olunmuşdur.

Mahmuq Qaşqarlının əsərlərindən bizə yalnız "Divani lüğətit-türk" dalı əsəri gəlib çatmışdır. XX əsrin 20- ci illərinədək əlyazması formasında olan bu əsəri ilk dəfə 1915-1917- ci illərdə Türkiyədə Kilisli Rüfət nəşr etdirmişdir. "Lüğət"in əldə olunması və nəşri akademik A.N. Kononovun qeyd etdiyi kimi, türkologiyanın tarixində son dərəcə böyük hadisə olmuşdur. Əsər 1073-1075-ci illərdə ərəb dilində yazımışdır. Mahmuq Qaşqarlının "Lüğəti" hazırkı lüğətlərdən olmayıb, linqvistik nəzəri məlumatlarla zəngin dilçilik əsəridir. Bu əsərdə müxtəlif türk dillərinə aid 9000-ə yaxın söz və söz birləşməsi əhatə olunmuşdur. Mahmuq Qaşqarlı əsərdə ərəb dili terminlərini işlətmişdir. Mahmud Qaşqarlı topladığı zəngin materialın təhlilində müqayisəli metoddan da istifadə etmişdir. Onun türk dillərinin öyrənilməsində müqayisəli metodu tətbiq etməsi yalnız türkologiya üçün deyil, ümumiyyətlə dünya dilçiliyi tarixində də

xüsusi əhəmiyyətə malikdir. Müqayisə metodundan istifadə nəticəsində Mahmud Qaşqarlı türk dillərinə məxsus olan bir sıra əlamət və xüsusiyyətləri elmi əsasda meydana çıxara bilmişdi.

Mahmud Qaşqarlı bu əsərində türk dillərinin qohum olduğunu göstərmişdir. Alim bir-biri ilə qohum olan türk dillərini müəyyən cəhətlərə görə təsnif etmişdir. O, türk dillərini ilk təsnif edən tədqiqatçısıdır. Mahmud Qaşqarlı türk dillərini iki yerə bölür: a) Saf dillər b) saf olmayan dillər. Müəllif "saf" və "saf olmayan" dil dedikdə öz kökü etibarı ilə türk olan və türkləşən qəbilə və ya xalqı nəzərdə tutmuşdur.

Mahmud Qaşqarlı ilk dəfə olaraq türk dillərində ahəng qanununun olmasını aşkar etmişdir. əsrdə türk dillərinin morfoloji əlamətləri də ətraflı surətdə izah olunur. Müəyyən etmişdir ki, söz kökünün dəyişməməsi türk dilləri üçün xarakterik cəhərdir. O, bu dillərdə qrammatik formanın şəkilçi artırılması yolu ilə düsəldiyini göstərmişdir. Mahmud Qaşqarlının "Türk dillərinin lüğəti" əsəri dilçilik elminin tarixində xüsusi əhəmiyyətə malik olduğu kimi, başqa bit sıra elm sahələri üçün də çox qiymətli mənbədir. Burada XI əsrə aid tarix, coğrafiya, etnoqrafiya elmlərinə, klassik poeziya və floklora dair elmi əhəmiyyət kəsb edən maraqlı məlumatlar az deyildir.

XIII əsrdə Şərq alimlərindən Misirli İbn- Mənsur "Ərəb dili" adı ilə məşhur olan irihəcmli lüğət hazırlamışdır.

XIV əsrdə Şirazlı fars Firuzabadi "Qamus" adında lüğət tərtib etmişdir. Bu lüğət elm aləmində böyük şöhrət qazanmışdır.

Ərəb alimləri dilçilk sahəsində bir çox nailiyyətlər əldə etmişlər. Ümumiyyətlə, ərəb dilçiliyi dil haqqında elmin inkişaf tarixində çox maraqlı və mənalı bir dövr təşkil edir.

Orta əsrlərdə Avropada başqa sahələrdə olduğu kimi, dilçiliyin inkişafında da xüsusi durğunluq hökm sürmüşdür. Bu dövrdə ancaq latın dili öyrənilirdi. Latın dili orta əsrlərdə elm dili, kilsə dili idi. Mexaniki olaraq latın dilinin xüsusiyyətləri başqa dillərin üzərinə köçürülürdü. Buna görə də ayrı-ayrı dillər öz müstəqilliyindən istər-istəməz uzaqlaşırdı. Latın dilinin xüsusiyyətlərinə uyğun gəlməyən milli dil cəhətləri isə əhəmiyyətsiz əlamət kimi yavaş-yavaş unudulurdu ki, bu həmin dillərin varlığına öz mənfi təsirini göstərirdi.

Orta əsrlərdə xristanlığın yayılması ilə əlaqədar bir sıra xalqların yazısı meydana çıxmışdı. Bununla əlaqədar bəzi dillərin, xüsusən qrammatik quruluşunu öyrənməyə maraq göstərmişdir. Lakin bütün bunlar dilçilik elminə yeni fikirlər əlavə edə bilməmişdi.

Nəhayət, deməliyik ki, orta əsrlərdə dil haqqında elmin lideri ərəb dilçiliyi olmuşdur.

XIX əsrin dilçilik məktəbləri

Müqayisəli tarixi dilçiliyin əmələ gəlməsi. XIX əsrin başlanğıcında dilçilikdə ən böyük hadisələrdən biri müqayisəli tarixi metodun kəşfidir. Müqayisəli tarixi dilçiliyin əmələ gəlməsi dörd böyük alimin: F. Bopp, R.Rask, Y.Qrimm və A. Vostokovun adı ilə bağlıdır.

XIX əsr dilçiliyin ən məşhur nümayəndələrindən biri alman alimi Frans Boppdur. 1791-1867- ci illər arasında yaşamış böyük alman dilçisi 1816-cı ildə özünün "Sanskrit dilinin yunan, latın, fars və german dilləri ilə müqayisədə təsriflənmə sistemi haqqında" adlı əsərini nəşr etdirir. Burada müəllif 5 dilin müqayisəsini vermişdir. Əsərdə müqayisələrin mərkəzində ən qədim hind-Avropa dillərindən biri olan sanskrit dili durur. O, əvvəlcə sanskrit dilində felin təsriflənmə sistemini dəqiqliklə təhlil edir, sonra əldə etditiyi nəticələri yunan, latın, fars və german dillərinin uyğun sistemi ilə müqayisə edir.Özünəqərki tədqiqatçılardan fərqli olaraq, Bopp müqayisə üçün dillərin qrammatik quruluşunu əsas götürür.. Bopp ilk əsərində hind-avropa dil birliyinin mövcud olduğunu sübut edir. Boppun bu əsərinin nəşr edildiyi 1816 il haqlı olaraq müqayisəli tarixi metodun kəşf edildiyi il hesab edilir.

F. Boppun mühüm əsəri "Sanskrit,zend, erməni, yunan, latın, litva, köhnə slavyan, qot və alman dillərinin müqayisəli qrammatikası" adlanır. Əsər 3 cilddən və altı hissədən ibarətdir. Bu tarixi əsər hind-Avropa dillərinin qrammatik formalarının şərhinə həsr edilmişdir.

Müqayisəli-tarixi dilçilyin yaradıcılarından biri də Danimarka dilçisi Rasmus Kristian Raskdır. Rasmus Raskın dillərin müqayisəli öyrənilməsinə həsr olunmuş əsəri "Qədim şimal dili üzərində tədqiqlər və ya island dilinin mənşəyi" adlanır. Dillərin qohumluğunu müəyyən etmək üçün Rask ərazicə island dilinə yaxın olan dilləri də müqayisə etmişdir. Əsər dat dilində yazıldığına görə uzun zaman yarandığı ölkənin(Daniya) sərhədlərini aşıb, dünya elminə yol tapa bilməmişdi. Lakin həmin əsər geniş elm aləminə məlum olduqdan sonra dilçiliyin yeni formada inkişafına əhəmiyyətli təsir göstərmişdir.

Müqayisəli-tarixi dilçilyin görkəmli nümayəndələrindən biri də məşhur alman alimi Yakob Qrimmdir. Yakob Qrimm müqayisəli tarixi metod əsasında german dillərini tədqiq etmiş və ilk dəfə olaraq həmin dillərinin müqayisəli qrammatikasını yaratmışdır. Dilçilik tarixində Y. Qrimmi məşhur edən onun "Alman qrammatikası" əəsri olmuşdur. Bu nəhəng əsr 4 cilddən ibarətdir. I cild fonetikaya, II cild morfologiyaya, III cild söz yaradıcılığına, IV cild isə sintaksisə həsr edilmişdir. "Alman qrammatikası" əsərinin əsasını alman dili ilə bütün german dillərinin müqayisəsi təşkil edir. Müəllif müqayisədə, hətta ən qədim yazılı abidələri də unutmamışdır.

Müqayisəli-tarixi dilçilyin Rusiyada ilk görkəmli nümayəndəsi Aleksandr Vostokov olmuşdur. Ohuh əsas əsərlərindən biri "Slavyan dili haqqında mülahizə" adlanır. A, Vostokov tədqiqat zamanı ölü dilin abidələrinə müraciət etməyi zəruri hesab etmişdir. O, canlı dillərin və dialektlərin faktlarını tarixi aspektdə yoxlamaq və əsaslandırmaq üçün ölü dillərin abidələrindəki faktlarla qarşılaşdırmağa tədqiqatın başlıca cəhəti kimi qiymətləndirirdi.

A.Vostokovun yaradıcılığı dilçiliyin müqayisəli tarixi istsiqamətdə inkişafında xüsusi rol oynamışdır.

Ümumi nəzəri dilçiliyin yaranması. XIX əsrin əvvəllərində bir çox dünya dillərinin konkret müqayisəli tarixi əsasında nəzəri dilçilik yaranmağa başlamışdır. Bu proses , ilk növbədə Humboldtun adı ilə bağlıdır.

Alman alimi Vilhelm fon Humboldt XIX əsrin ən böyük şəxsiyyətlərindəndir. O, tarixdə folosof,filoloq, dövlət xadimi kimi məşhurdur. Vilhelm Humboldtun dilçiliyə həsr etdiyi ən böyük əsəri ölmündən sonra qardaşı aleksandr Humboldtun çap etdirdiyi "Yava adasındakı kavi dil haqqında" adlı 3 cilddən ibarət tədqiqatıdır. V.Humboldt, hər şeydən, əvvəl, dili bir sistem kimi , üzvi vəhdətdə olan bir bütöv kimi nəzərdə tutrdu. Alman dildə bir-birini tamamlayan iki cəhəti: ictimai və psixoloji cəhətləri göstərmişdi.

Naturalizm dilçilk məktəbi. XIX əsrin ortalarında meydana çıxan başlıca dilçilk cəryanlarından biri naturalizm adlanırdı. Almaniyada yaranmış bir cəryana eyni zamanda bioloji cəryan da deyilir. Naturalizmin dilçilkdə təşəkkül tapmasına səbəb XIX əsrdə təbiətşünaslığın çox sürətlə inkişaf edib yayılması olmuşdur.

Dilçilkdə naturalizmin bir məktəb kimi yaranması böyük alman dilçisi Avqust Şleyxerin adı ilə bağlıdır. A. Şleyxer dili təbiət hadisəsi adlandırırdı. Avqust Şleyxerə Darvin təliminin böyük təsiri olmuşdur. Buna görə də o, zoologiya və botanikada istifadə olunan təsnif prinsiplərini eyni ilə dillərin təsnifinə də tədqiq etmişdir. Şleyxer dilləri morfoloji cəhətə görə təsnif edir. Dillərin bölgüsündə məna və münasibətə əsaslanır. Məna söz kökündə, münasibət şəkilçidə olur. O, bu prinsipə uyğun dillərin üç tipini müəyyənləşdirmişdir:

a) Kök sözlü dillər b) aqqlütinativ dillər c) flektiv dillər

Avqust Şleyxer görə, dillərin morfoloji tipləri dil inkişafının 3 mərhələsi kimi dərk edilməlidir. Belə ki, o,kök sözlü dilləri inkişafın başlanğıcı adlandırır. Onun fikrincə, kök sözlü dillər ən qədim dil tipidir ki, bunlardan aqqlütinativ, ondan da flektiv dillər əmələ gəlmişdir. Deməli, inkişaf səviyyəsinə görə də flektiv dillər ən yüksəkdə durur.

Psixoloji dilçilik məktəbi. Dilçilikdə psixolgizmin əsasını alman filosofu və psixoloqu Iohann Fridrix Herbartın psixoloji təlimi təşkil edirdi.

Dilçilikdə psixolgizm cərəyanın tərəfdarları dil haqqında elmi psixologiya əsasında qurmağı tələb edirdilər. Buna görə də onlar öz əsərlərinda dil hadisələrini psixologiya mövqeyindən, psixoloji anlayışlarla aydınlaşdırmağa çalışırdılar. Psixolgizm cərəyanı tərəfdarlarının fikrincə, dilçilk elmi fərdi aktını öyrənməlidir.

Şteyntal və Aleksandr Potebnya psixolgizm cərəyanın ən başlıca nümayəndələridir. Şteyntalın linqvistik görüşləri naturalizm cərəyanını ciddi tənqid etmişdir..

Psixoloji dilçilik məktəbinin görkəmli nümayəndələrindən biri də A.A. Potebnya olmuşdur. O, dil və təfəkkür problemini şərh edərkən fikrin dil vasitəsilə formalaşdığını göstərir. Tədqiqatçı dilin əlaqəsinin ancaq təfəkkürə deyil, eyni zamanda bütün psixika ilə bağlı olduğunu sübut etməyə çalışmışdır.

"Gənc qrammatiklər" cəryanı .XIX əsrin 70-80-ci illərində Almaniyada dilçi alimlərin yeni nəsli yaranmışdır. Bu gənclər dlçilərin yaşlı nəslinin, o cümlədən Frans Boppun, Yakob Qrimmin, Avqust Şleyxeri və başqa alimlərin linqvistik baxışlarını açıqdan-açığa kəskin şəkildə tənqid edirdilər. Yaşlı nəslin nümayəndəsi alman filoloqu Fridrix Sarnke bu dilçiləri yeni ideyalarla çıxış etdiklərinə görə zarafatla "gənc qrammatiklər" adlandırırdı. Yeni cərəyanın başçılarından biri olan K, Bruqman həmin ifadəni yeni dlçilik cərəyanın adı kimi işlətmiş. Bu cərəyanın meydana çıxması alma alimlərindən Karl Bruqmannın, Avqust Sıskinin, Herman Paulun ,Herman Osthofun, Bertold Delbrukin fəaliyyəti ilə bağlıdır.

"Gənc qrammatiklər" Şleyxerin naturalizminə qarşı çıxıb, onun dili canlı orqanizm adlandırmasını ciddi tənqid etmişlər. Onlar dili tarixi hadisə kimi aydınlaşdırmağa çalışmışlar. "Gənc qrammatiklər" dillərin qrammatik xüsusiyyətlərinə müraciət edərkən ən çox morfolji problemlərin şərhinə yer vermişlər.

Moskva dilçilik məktəbi. XIX əsrin 70-80 ci illərində Rusiyada iki böyük dilçilik məktəbi – Moskva və Qazan dilçilk məktəbləri fəaliyyət göstərirdi. Dilçilk məktəblərinin nümayəndələri, əsasən, universitet pofessorları idi.

Moskva dilçilik məktəbinin banisi Filip Fyodoroviç Fortunatov hesab olunur. F. Fortunatovun nəzəri dilçilik görüşlərinin əsasını gənc qrammatiklərin dilçilik baxışları təşkil edirdi. Ümumi dilçilik sahəsində F. Fortunatov dil və təfəkkürün münasibəti problemi ilə daha çox məşğul olmuşdur. O, deyirdi ki, təfəkkür dildən, dil isə təfəkkürdən asılıdır. F. Fortunatovu gənc qrammatiklərdən fərqləndirən cəhətlər də vardır

F. Fortunatovun geniş yayılmış əsərləri bunlardır: "Müqayisəli dilçilik", "Müqayisəli morfologiya", "Hind- Avropa dillərinin müqayisəli fonetikası" və s.

Qazan dilçilk məktəbi .Rusiyada XIX əsrin 70-80-ci illərində yaranmış böyük elmi məktəb Qazan dilçilik məktəbidir. Bu məktəbin banisi görkəmli dilçi Boduen de

Kurtene idi. Boduen de Kurtenin ən böyük xidməti, hər şeydən əvvəl, fonem nəzəriyyəsini yaratmışdır. O, "fonem" anlayışını 1870- ci ildə sürmüşdür. Boduen de Kurten dilçilikdə fonemlə yanaşı, morfem,leksem, sintaqm,qrafem, və sair onlarca belə anlayışlar bu görkəmli alimin adı ilə bağlıdır. Alim bütün yaradıcılığı boyu təsviri metoda geniş yer vermişdir.

XX əsrdə dilçilik. XX əsrin dilçilik məktəbləri XIX əsrin ən böyük dilçilk cərəyanı olan gənc qrammatiklərə qarşı qızğın mübarizədə yaranmışdır. Bu illərdə "Gənc qrammatiklər" cərəyanın əleyhinə mövqe tutan bir neçə yeni dilçilk cərəyanı və elmi məktəblər yaranmışdır. Bu illərdə "gənc qrammatiklər" cərəyanın əleyhinə mövqe tutan bir neçə yeni dilçilik cərəyanı və elmi məktəblər yaranmışdır. Buraya "Sözlər və şeylər" məktəbi, estetik idealizm məktəbi və neolinqvistika cərəyanı addir.

"Sözlər və şeylər" məktəbinin banisi məşhur Avstriya dilçisi Huqo Şuxardt hesab olunur. " Sözlər və seylər" məktəbinin üzvləri şey terminini çox geniş mənada götürmüşlər. Əhatəsində olduğumuz mühitdə adlandıra bilən hər nə varsa, onu (canlı və cansızları, konkret və mücərrəddləri) şey hesab etmişlər. Bu məktəb sözün tarixini öyrənməyi qarşıya məqsəd qoyur. "Dilçiliyin traixində " Sözlər və şeylər" məktəbi ancaq leksikogiyanın, semasiologiyanın və etimologiyanın bir sıra problemlərinin şərhi ilə kifayətlənmişdir.

Estetik idealizm məktəbi. Estetik idealizm məktəbi dilin ekspressiv vəzifəsini əsas götürürdü. Buna görə də bütün tədqiqatlar dilin ekspressiv vəzifəsinə müvafiq aparılırdı. Dilçilikdə estetik idealizm məktəbinin yaradıcısı Karl Fossler olmuşdur. O, dili fərdi mənəvi yaradıcılıq aktı hesab edirdi.. Onun 1904-cü ildə "Dilçilikdə pozitivizm və idealizm" adlı əsəri çap olunmuşdur. Bu əsər bir növ estetik idealizm məktəbinin proqramı idi.

Neolinqvistika cərəyanı. Neolinqvistika cərəyanı XX əsrin 20-ci illərində İtaliyada meydana gəlmişdi. Neolinqvistika gənc qrammatizmin əksini təşkil edən cərəyan kimi formalaşmışdır. Onun adı-"neolinqvistika"termini həmin cəryanın nümayəndəsi M. Bartoli tərəfindən yaradılmışdır. Neolinqvistlər "gənc qrammatiklərin" əleyhinə çıxış edirdilər. Neolinqvistlərin yaradıcılığında areal haqqında təlimə, linqvistik coğrafiya məsələlərinə geniş yer vreilmişdir. Buna görə də neolinqvistikaya bəzən "areal dilçilik" də deyilir.

"Areal" termini fransız mənşəli olub, hazırki dil hadisəsinin bir dildə və ya dialektdə, yaxud da qohum dil qrupunda yayılmasını bildirir. "Gənc qrammatiklər" dən fərqli olaraq neolinqvistlərin də dilçiliyin inkişafı tarixində müəyyən xidmətləri olmuşdur. Onların ən böyük xidmətləri dilçilik coğrafiyası sahəsindədir.

XX əsrin əsas dilcilik cərəyanları və Ferdinad de Sössür. XX əsrdə diqqəti cəlb edən başlıca cərəyanlar- sosiolji cərəyan və strukturalizm cərəyanıdır. Bu cərəyanların meydana gəlməsində görkəmli İsveçə dilçisi Ferdinad de Sössürün dilçilik nəzəriyyəsinin böyük təsiri olmuşdur. Ferdinad de Sössürün linqvistik konsepsiyası dilçilik elmi üçün böyük əhəmiyyətə malikdir. Burada dilçilik elminin bir çox yeni və ən mühüm məsələlərinin şərhinə xüsusi yer verilmişdir.

Ferdinad de Sössürün dil haqqındakı təlimində əsas yeri dil və nitqin fərqləndirilməsi tutur. Dili o, üç tərkibdə başa düşür: nitq fəaliyyəti, nitq və dil. O, göstərirdi ki, nitq fərdidir, dil isə kollektivə məxsusdur. Ferdinad de Sössürün təlimində dillə nitqin fərqi nəzəri cəhətdən əsaslandırıldığı kimi, bunların arasında möhkəm əlaqənin mövcud olduğu da şərtləndirilmişdir. Onun fikrincə, nitq və dil nitq fəaliyyətinin iki komponentidir. Bunlar bir- biri ilə möhkəm vəhdət yaradır, biri digəri üçün vacibdir. Dil üçün nitq, nitq üçün isə dil zəruridir. Ferdinad de Sössür dilə nisbətən, nitqin tarixini daha qədim hesab edir.

Ədəbiyyat:

- Məmmədov N., Axundov A. Dilçilyə giriş. Bakı, Maarif, 1980
- Babayev A., Dilçilyə giriş. Bakı, Maarif, 2004
- Rəcəbli Ə. Dilçilik tarixi. Bakı, Nurlan, 2006
- Ferdinand de Sössür. Ümumi dilçilik kursu. Bakı, BDU nəş., 2003

Mövzu:3

Dilçiliyin başqa elmlərlə əlaqəsi və şöbələri

Elmləri öz obyektinə görə iki yerə bölürlər: 1) təbiət və onun qanunlarını öyrənən elmlər, 2) cəmiyyət və onun qanunlarını öyrənən elmlər. Birinci qrupa daxil olan elmlər öz obyektini dəqiq faktlar və rəqəmlər əsasında öyrənir. Bu elmlər təbiət elmləri və ya dəqiq elmlər adlanır. Buraya fizika, kimya, biologiya, geologiya, fiziologiya, geodeziya, okeanoqrafiya və s. İkinci qrupa daxil olan elmlər cəmiyyəti, onun inkişaf qanunauyğunluqlarını, cəmiyyətlə bağlı bütün sosial problemləri və s. öyrənir. Bu elmlər ictimai elmlər adlanır. İctimai elmlərdə qarşılaşdırma, müqayisə, mühakimə, ümumiləşdirmə, səbəb, nəticə münasibətləri əsas rol oynayır. Buraya fəlsəfə, məntiq, dilçilik, ədəbiyyatşünaslıq, tarix, sosiologiya, siyasətşünaslıq və s. daxildir. Dilçilik elmi öz tədqiqat obyektinə görə ictimai elmlər sırasında durur. Amma öz tədqiqat metodları ilə ictimailik çərçivəsindən çıxaraq bütün elmlərlə yaxınlaşır. Dilçiliyin dəqiq elmlərlə, xüsusilə riyaziyyatla yaxın əlaqəsi onun çox vaxt ictimai elmlərin riyaziyyatı adlanmasına səbəb olmuşdur. Hər bir elmin müstəqil şəkildə yaşayıb inkişaf etməsi

üçün onun obyektinin öz daxili qanunlarına malik olması əsas şərtdir. Lakin müasir inkişafla ayaqlaşa bilmək üçün öz daxili qanunları çərçivəsində məhdudlaşmaq olmaz. Əgər hər hansı bir elm təkcə öz qanunları çərçivəsində məhdudlaşıb qalsa, başqa elmlərin nailiyyətlərindən istifadə etməsə, elmlərlə əlaqəsini itirər və nəticədə elmlər sırasından çıxar. Başqa sözlə desək, elmlərlə əlaqəsi olan inkişaf edib irəli gədər, elmlərlə əlaqəsi olmayan inkişafdan qalar. Əksinə, başqa elmlərlə əlaqə hər bir elmin qarşısında yeni-yeni sahələr açır, onun inkişafı üçün şərait yaradır. Elmlərin kompleks inkişafı müasir dövrün əsas tələbidir. Buna görə də dilçiliyin başqa elmlərlə əlaqəsi onu ən inkişaf etmiş elmlər sırasına çıxarmışdır. Əlbəttə, dilçilik ictimai elm olduğu üçün onun ilk növbədə və ən sıx əlaqəsi ictimai elmlərdir.

Dilçiliyin ədəbiyyatşünaslıqla əlaqəsi. Dilçilik bir elm kimi ən çox ədəbiyyatşünaslıqla bağlıdır, hər iki elmin filologiya adlandırılması da təsadüfi deyildir, filio – yunanca söz, təlim deməkdir. Dar mənada hər ikisi sözü sevirəm mənasını ifadə edir. Doğrudan da, bu elmi birləşdirən birinci əlamət sözdür. Yəni həm dilçiliyin, həm də ədəbiyyatĢünaslığın xammalı sözdür. Söz, onun işlədilməsi, dildəki yeri, ünsiyyət prosesindəki rolu, fikir müxtəlifliyini təmin etməsi və s. bu kimi müştərək problemlər bu iki elmi sıx şəkildə əlaqələndirir. Sözü, kəlamı bir vaxtlar yazıçı və şairlər, mütəfəkkirlər geniş. mənada dil kimi qəbul etmişlər. Buna görə də elə böyük şair-mütəfəkkir tapmaq olmaz ki, o, söz haqqında, kəlam barəsində danışmamış olsun.

Bəllidir ki, bədii üslubda hadisələr obrazlı şəkildə verilir, Obrazlı ifadələr yaratmaq üçün metonimlərden, metaforalardan, sinekdoxalardan istifadə edilməlidir, Məs. *Mən bismillah deyib dermandan bir qaşıq ağzıma qoymaq istəyəndə axund dedi: – Dayan! (Ə. Haqverdiyev).* Cümlədəki qaşıq sözünə diqqət yetirək. Qaşıq ədəbiyyatşünas üçün obrazlı ifadə, dilçi üçün sinekdoxadır. Yəni qaşıq həm obraz yaradır, həm sinekdoxa kimi: tamın hissəsini bildirir. Və yaxud ədəbiyyatdakı cinasları götürək. Məs.:

Əzizim oyan yeri,

Sevgilim, o yan yeri.

Min il sellər doldurmaz,

Bir gün qəm oyan yeri.

Buradakı oyan yeri ədəbiyyatşünas üçün cinas, dilçi üçün omoformdur. Dilçiliklə ədəbiyyatşünaslığı birləşdirən cəhətlərdən biri də onların tarixinin, geniş mənada taleyinin çox yaxın olmasıdır. Dilin tarixi elə ədəbiyyatın tarixidir və əksinə.

Dilçiliyin tarixlə əlaqəsi. Dilçiliyi tarixlə bağlayan bir çox problemlər vardır. Tarix elmi ilə dilçiliyi yaxınlaşdıran başlıca cəhət dilin tarixi kateqoriya olmasıdır. Bu o deməkdir ki, dil insan həyatının müəyyən tarixi mərhələsində yaranmışdır. insanlığın inkişafı dilin yaranmasını zəruri bir problem kimi irəli sürmüş, tarixi şərait yaranmış və bunun nəticəsində dil meydana kəlmişdir. Dilin mənşəyi kimi vacib bir məsələni dilçilik təkbaşına həll edə bilməz. Dilin nə zaman, hansı şəraitdə, niyə yaranmasını bir sıra elmlərin (o cümlədən etnoqrafiyanın, arxeologiyanın, məntiqin və tarixin) köməyi ilə müəyyənləşdirmək olar. Tarixi bilmədən insan cəmiyyətinin ilkin inkişaf mərhələsindəki məşğuliyyəti, onun həyat tərzi və ünsiyyət formaları haqqında nəinki nəzəriyyə, hətta fərziyyə belə irəli sürmək mümkün deyil. Bundan başqa, dünya dillərinin inkişaf tarixi də dilçiliklə tarix elmini birləşdirir. Ümumiyyətlə, insan nitqinin yaranması problemləri dilçiliyin ən vacib məsələlərindondir, belə ki, sonrakı inkişaf tarixində konkret dilin tarixi daha irəli – ön plana çəkilir. Çünki insan övladının ilk dili və onun elementləri heç bir dildə yaşamır. Dünya xalqları müxtəlif olduğu kimi, onların dilləri də müxtəlifdir. Əgər ölü dilləri saymasaq, müasir dövrdə üç minə qədər canlı dil vardır. Bunların hər birinin öz tarixi, öz qohumluq əlaqəsi var. Dünya dillərinin tarixi inkiĢafın, onların hansı mərhələlərdən keçdiyini ümumi dilçilik məhz tarix elminin köməyi ilə müəyyənləĢdirir. Müasir dillərin hamısı eyni proses və mərhələləri keçməmiĢdir. Amma qəbilə, tayfa, xalq və millət kimi tarixi insan birliklərinin oxĢar universal cəhətləri çoxdur. Məhz tarix elminin sayəsində dilçilik qəbilə dilinin necə, hansı tarixi zərurət nəticəsində tayfa dilinə keçməsini müəyyənləşdirə bilər. Eyni sözləri feodalizm ictimai-iqtisadi formasiyasının kapitalist istehsal münasibətlərinə keçdiyi dövrdə istehsalın təmərküzləşməsi ilə əlaqədar olaraq xalq dillərinin yaranması haqqında da demək olar. Kapitalist iqtisadi inteqrasiyası dillərin də inteqrasiyasını Ģərtləndirir. Bunun nəticəsində tayfa dil elementləri unifikasiya nəticəsində xalq dilini və onun normalarını yaradır. Bütün bunlar tarixi inkişafın nəicəsi olduğu üçün dilçilik tarix elminin çıxardığı nəticələrdən istifadə edir. Ümumxalq ədəbi dili formalaşandan sonra xalq həyatında tarixi mədəni inkişaf, irəliləyiş baş verir. Nəhayət, bu inkişaf milləti meydana gətirdiyi kimi, milli dili də yaradır. Bütün bunlar tarixlə dilçiliyin əlaqəsini təmin edir. Məs.yazını götürək. Məlumdur ki, yazı bəşəriyyətin dildən sonra ikinci nailiyyətidir. Yazısı qədim olan xalq daha mədəni hesab edilir. Müxtəlif xalqların ilkin yazılı mənbələrini aşkara çıxarmaq, onları oxumaq, hansı əsrə aid olduğunu, hansı münasibətlərlə yazıldığını müəyyənləşdirmək işində tarixlə dilçiliyin fəaliyyət birliyi tələb olunur. Eləcə də konkret əlifbaların meydana gəlməsi, müxtəlif xalqlar arasında yayılması kimi mühüm dilçilik faktoru tarixin köməyi olmadan açıla bilməz. Nəhayət, dilçiliyin öz tarixini müəyyənləĢdirmək iĢində tarix elminin rolu böyükdür. Dilçiliyin

meydana gəlməsi, müxtəlif ölkələrdə xarakterсə müxtəlif istiqamətlərdə inkiQaf etməsi tarixi hadisədir. Qədim dilçilik məktəbləri, onların elmi səviyyə və istiqamətləri, orta əsr dilçiliyi haqqında ətraflı və düzgün məlumat almaq üçün yenə tarixi mənbələrə müraciət etməli oluruq. XIX əsrin bütövlükdə xarakteri elə idi ki, bütün elmlərin inkiQafı üçün, bir sıra kəQflərin meydana gəlməsi üçün Qərait yaranmıQdı. XIX əsri müəyyən mənada kompleks inkiQaf əsri adlandırmaq olar. Bir sıra xalq və milli dillər formalaQdığı kmıi, dilçilik də müstəqil elm kimi inkiQafa baQladı. Bu, tarixi zərurət idi. Bütün bu zəruri hadisələrin meydana gəlməsini XIX əsrin tarixi Qəraiti ilə əlaqədar tədqiq etmək lazımdır. Dili bazis üzərində üstqurum hesab edənlər (N. Marr) cəmiyyətin tarixi-iqtisadi əsası olan bazisin dilə olan təsirini ideallaQdırdıqları üçün dili bazisdən asılı hesab. etmiQlər. Doğrudur, tarixi Qorait dilin inkiQafına öz mənfi və ya müsbət təsirini göstərir. Məs. bazisin konkret dilə münasibəti bu dilin inkiQafına müəyyən dərəcədə təsir edir. Deyək ki, neçə illər rus dili hakim mövqe tutduğu üçün milli dillər, o cümlədən Azərbaycan dili öz fəaliyyət sferasını daraldırdı. Kağız üzərində dövlət dili elan edilən Azərbaycan dili kargüzarlıq sferasından, dövlət idarələrindən, maliyyə əməliyyatı prosesindən çıxarılmıQdı. (Buna görə də indi həmin sahələrə aid leksik, üslubi materialımız azdır). Amma bu, dilin məhv olması demək deyildir. Xalq ədəbi dili yaQadır və inkiQaf etdirir. Deməli, bazisin dilə münasibəti ona bu və ya digər dərəcədə təsir edə bilər. Amma onu dəyiQdirə bilməz. Bütün bu məsələləri tarixi- ictimai Qəraitlə əlaqədar götürmək lazımdır ki, bu da dilçiliyi tarix elmi ilə bilavasitə əlaqələndirir. **Dilçiliyin məntiqlə əlaqəsi.** Dilin fəlsəfi problemlərindən biri də dillə təfəkkürün əlaqəsi məsələsidir. Bu məsələ özlüyündə qədim tarixə malik olsa da, onun təfəkkürlə eyniyyət təQkil etməyib, dialektik vəhdətdə olması anlayıQı yüz illik tarixə malikdir. Dilçiliklə məntiqi əlaqələndirən təfəkkür əslində məntiqi kateqoriya olub, yüksək "O inkiQaf etmiQ materiya olan beynin məhsuludur. Dil isə ^ təfəkkürün ifadə formasıdır. Yəni insan təfəkküründə yaranmıQ 'O fikirlər dil vasitəsilə reallaQır. Dillə təfəkkürün əlaqəsindən xüsusi mövzu kimi ayrıca danıQılacağını nəzərə alaraq bu barədə geniQ bəhs etməyə lüzum körmürük. Ünsiyyət prosesində əsas rol oynayan nitq həm məntiqin, həm də dilin tədqiq dairəsinə daxildir. Nitqdə həm dil qanunları, həm də təfəkkür qanunları əks olunur. Təfəkkürün eyniyyət, ziddiyyət, kafi əsas və üçüncünü istisna qanunu nitqdə aparıcı rol oynayır. Əgər nitqdə təfəkkür qanunlarından biri pozularsa, onda dilin ekspressiv funksiyası pozulmuQ olar. Yəni nitqdə obyektiv kerçəklik insan təcrübəsi əsasında düzgün əks etdirilməzsə, cümlə və ya cümlələr fikri ifadə etməz, beləliklə, dilin kommunikativ funksiyası reallaQmaz. Təfəkkürün bütün element və formaları məfhum, hökm, əqli ümumiləQmə bilavasitə dillə, dil qanunları ilə əlaqədardır, Yəni məfhumlar özü

reallaĢa bilməz. Onlar dildəki iĢarələri olan sözlər vasitəsilə reallaĢırlar. Hökmlər də cümlə ilə əlaqədar olduğundan hər ikisi fikir iĢarəsidir. Lakin hökm məntiqi, cümlə isə qrammatik kateqoriyadır. Məntiq qanunlarını bilmədən və onlara əməl etmədən dilçilikdə Heç bir anlayıĢa tərif vermək olmaz. Çünki tərifin elmi əsası, məntiqi olmalıdır. hər hansı bir linqvistik kateqoriyaya tərif vermək istədikdo mütləq onun ümumi və özünəməxsus cəhətlərini seçmək lazımdır. Yəni anlayıĢın diferensial və inteqral cəhətləri linqvistik tərifin əsasında durmalıdır. Bu da tamamilə məntiq qanunları əsasında mümkün olur.

Dilçiliyin Psixologiya ilə əlaqəsi. Fizioloji mənada insanla alı inkişaf etmiş heyvanlar arasında ümumi cəhət çoxdur. Başqa canlılar özlərindən əvvəlki nəslin «təcrübəsini» mənimsəyə və ümumiləşdirə bilmir, öz əvvəlki nəsillərindən irəli kedə bilmir. Təkcə onlar ətraf mühitə uyğunlaşaraq özlərində şərti refleks yarada bilirlər. Ġnsan isə, baĢqa canlılardan fərqli olaraq, nəinki özündən əvvəlki, hətta özündən sonrakı həyat haqqında da təsəvvürə malik olur. Bunun üçün insan birinci nevbədə dilinə və təfəkküründə minnətdar olmalıdır. İnsanın düşünmə, dərk etmə və danışma prosesində iĢtirak edən əsəb sistemi, beyin yarımkürələri və s. fiziologiya, düĢünmə prosesindəki psixi proseslər, beyin yarımkürələrinin zədələnməsi nəticəsində insanın xarakterindəki dəyiĢiklik və nitqinin korlanması (afaziya) isə psixologiya ilə dilçiliyi əlaqələndirir. Dillə nitqin əlaqəsi məsələsi psixologiya ilə dilçilik üçün ortaqdır. Yəni «dil ünsiyyət vasitəsi, nitq isə ünsiyyət prosesidir» fikri hər iki elm üçün məqbul ifadədir. Nitqin xüsusiyyətləri, növləri, dilə münasibəti və s. kimi məsələləri psixologiya dilçilikdən götürdüyü kimi, dilçilik də nitqin mexanizmi, qəbul edilməsi, anlaĢılması, nitqin pozulma səbəbləri, nitq fəaliyyəti və s. kimi məsələləri psixologiyadan alır. Görkəmli psixoloq N. Ġ. Jinkin belə bir nəticəyə kəlmiĢdir ki, nitqi ifadəni tərtib etməzdən əvvəl, xüsusi kodun (təsəvvür, surət və sxem) keməyi ilə onun fikri özəyini (skeletini) qururuq. Bu, nitq ifadəliliyinin proqramlaĢdırma mexanizmidir. Bundan sonra proqramdan (plandan), mürəkkəb mexanizmlər qrupundan qrammatik, sintaktik quruluĢa, cümləyə keçilir. Sonra lazım olan sözü axtarma mexanizmi iĢə düĢür, sintaqmı proqramlaĢdıran motor mexanizmi, nəhayət, nitqin səslənməsini reallaĢdıran mexanizmlər fəaliyyətə gəlir. Sonra isə nitq alınmıĢ olur. 1 Göründüyü kimi, bu çox mürəkkəb 1 Ümumi psixologiya. Bakı, «Maarif», 1982. soh. 227 – 228 mexanizmdir. Bos ifadə edilmiĢ cümlənin düĢünülməsi, fikir yaranması bura daxil deyilmi? Bu, təfəkkür prosesidir. Ġnsanın psixi vəziyyətinin onun nitq fəaliyyətinə çox güclü təsiri vardır. Belə ki, mənfi emosiyaların təsiri altında insanın psixonitq mexanizmi passiv olur. Müəyyən mənada həmin mexanizm bağlanır. Adam bildiyi bir Ģeyi do danıĢa bilmir. Bəzən isə insan müsbət psixi emosiyaların təsiri ilə, hətta adi bir məsələni

yüksək, bəlağətli nitqlə, həvəslə danıĢmaq istəyir. Ġnsanın nitq fəaliyyəti prosesində «stimul-reaksiya» tipli elementar fizioloji mexanizmlər, habelə yüksək nitq fəaliyyətinə məxsus ierarxik spesifik mexanizmlər iĢtirak edir. Psixoloji və dilçilik ədəbiyyatında nitqin pozulmasının beĢ növünə rast gəlinir. Bunlardan ikisi (dinamik və motor) – psixologiya ilə, biri – semantik afaziya – dilçiliklə, ikisi isə – afferent motor vo sepsor afaziya – fizioloji pozuntularla əlaqədardır. Dinamik afaziya zamanı nitqi düzkün sintaqmlara bölmək, cümlədə iĢtirak edən söz və söz birləĢmələrini fonetik cəhətdən düzgün qruplaĢdırmaq olmur. Beləliklə, nitqin dinamikası pozulur. Afferent motor afaziyası zamanı mərkəzdən gələn impulslar pozulmuĢ olur, Yəni cümlədə sözlər qrammatik cəhətdən düzgün əlaqələndirilmir. Bəzən sözün bir neçə səsim tələffüz etsə də, onları birləĢdirə bilmir. Bu iki afaziya bilavasitə psixologiyanın obyektinə daxildir. Afferent motor afaziyası zamanı xəstə səsləri təhrif edir, çətin məxrəcli səs asan tələffüz olunan səslərlə əvəz edilir. Bu da hissi sinirlərlə, Yəni impulsun hiss üzvlərindən mərkəzi əsəb sisteminə verilməsi prosesində baĢ verən pozğunluqla əlaqədardır. Semantik afaziya sözlərin düzgün seçilməməsi və onların mənaca yerli-yerində iĢlədilməməsi ilə əlaqədardır. Bu zaman söz mənaca düzgün iĢlədilmədiyi kimi, söz və söz birləĢmələri də mənaca düzkün qiymətləndirilmir. Sepsor afaziya nitqi düzgün baĢa düĢməməklə əlaqədardır; sözün səs tərkibi ilə mənası arasındakı əlaqəni bərpa edə bilmir, səslənməyə aludə olub mənaya əhəmiyyət vermir və yaxud eyni səsi bir neçə dəfə təkrar edir. Bütün bunlar dilçiliyi bilavasitə psixologiya ilə əlaqələndirir.

Dilçiliyin Fəlsəfə ilə əlaqəsi. Çox vaxt fəlsəfəni bütün elmlərin anası hssab edirlər. Bunun məntiqi əsası vardır. Elm ictimai Ģüur formasıdır. Ġctimai Ģüur isə məhz fəlsəfi kateqoriyadır. Elə bir elm yoxdur ki, onun fəlsəfi əsası olmasın. Müasir təbiətĢünaslığın, fizikanın, riyaziyyatın belə fəlsəfəyə əsaslandığı molumdur. Dilin, tarixin, düzgün təfəkkürün (məntiqin), antroponimikanın və baĢqa elmlərin də ilkin tədqiqat obyekti fəlsəfi məsələlər olmuĢdur. Yəni bu elmlər də ilk əvvəl fəlsəfənin bir sahəsi olmuĢdur. Dilçilik elmi də ilkin inkiĢaf mərhələsində fəlsəfənin bir hissəsi kimi meydana kolmiĢdir. Hətta bir neçə əsrlik dövrdə yunan dilçiliyi fəlsəfə dövrü keçirmiĢdir. Yunanıstanda dil haqqında düĢünmə hələ yeni eradan əvvəl VI əsrə aid idi. V – III əsrlərdə isə artıq fəlsəfi dilçilik Ģərti mənada formalaĢmıĢdı. Yunan filosoflarını maraqlandıran birinci problem dilin kim tərəfindən yaradılması məsələsi idi. Dilin mənĢəyi problemi fəlsəfənin əbədi mövzusu olan materialist və idealist anlayıĢların qarĢılaĢdığı, toqquĢduğu əsas nöqtələrdən biridir. Ġdealist anlayıĢa körə, kainat, nəbatat, camadat özu allahın iradəsi ilə yarandığı kimi, dil do allahın iradəsi ilə yaranmıĢdır. Materialistlər isə bunun əksinə olaraq dili bir nəfərin yaradıcılıq məhsulu kimi Şərh etmək fikrindən uzaq idilər. Ad, onun mənĢəyi və

təbiəti haqqında da idealist və materialist baxıĢlar həmiĢə əks qütbdə dayanmıĢlar. Dilin ictimai mahiyyətini düzgün Ģərh edə bilmədiklərinə körə idealist filosoflar dilin xarakterini, cəmiyyətdəki rolunu, dil faktlarının funksiyasını düzgün qiymətləndirə bilmirdilər. Dil və cəmiyyət məsələsində idealist filosofların mövqeyi daha tez təkzib edilə bilər. Ġdealist fəlsəfi baxıĢa görə, hər bir xalqa (geniĢ mənada cəmiyyətə) dili allah bəxĢ etmiĢdir. Elə isə bu qədər dil üçün saysız-hesabsız dil vahidini allah hansı arsenaldan, nə vaxt və necə vermiĢdir? Bu fikri qəbul etsək, ikinci sual meydana çıxacaq ki, bəs onda niyə dillər qohum olur? Belə çıxmırmı ki, dillər arasındakı qohumluq münasibətləri allah tərəfindən tənzim edilir? Əgər belədirsə, deməli allahın müstəqil, bir-birindən fərqli dil yaratmağa qüdrəti çatmamıĢdır. Dilin əbədiliyi məsələsində də idealist fəlsəfə düzgün mövqe tutmur. Ġdealist anlayıĢa görə dünyada allahdan baĢqa hər Ģey müvəqqətidir. Təkcə allah əbədi, laĢənk və biməkandır. Kainat özü və həyatdakı hər Ģey məhv olub kedəcək. Bu fikir dilə də Ģamil edilir. Deməli, nə cəmiyyət, nə də dil əbədidir. Bu, yanlıĢ mövqedir. Fəlsəfənin əsas qanunları olan kəmiyyət dəyiĢmələrinin keyfiyyət dəyiĢmələrinə keçməsi, əksliklərin vəhdəti və mübarizəsi, inkarı inkar qanunları az və çox dərəcədə dilin özünə də aiddir. Məs. kəmiyyət dəyiĢmələrinin keyfiyyət dəyiĢmələrinə keçməsi qanununu götürək. Əlamət və keyfiyyətin əĢyada və hərəkətdə dəyiĢməsi anlayıĢı dilçilikdə dərəcə kateqoriyasının yaranmasına səbəb olmuĢdur. Dərəcə anlayıĢı fəlsəfi anlayıĢ olub, əĢyada keyfiyyət və əlaməti hərəkətdə (əlamətdə) əks etdirir. Bu əlamətlərin azlıq va ya çoxluq – Yəni kəmiyyətcə dəyiĢməsi yeni anlayıĢ, yeni keyfiyyət yaradır. Ġnkarı inkar qanunu əsasında dil strukturu hələ tədqiq edilməmiĢdir. Ümumi dilçilikdə dilin struktur elemsntlərinin inkiĢaf prosesində bir-birini inkar etməsi və üçüncünün yenidən birinciyə qayıtması və yaxud birincinin elementlərinin üçüncüdə təzahür etməsi məsələsi tam iĢlənilməmiĢdir. Bu məsələ ilə əlaqədar ilk tədqiqatı böyük alman filosofu Hegel aparmıĢdır. Hegel özünün «Məntiq» əsərində bu qanunun əsas müddəalarım kəĢf etmiĢdir. Marksistlər onun idealist baxıĢlarını tənqid etmiĢ, guya bu qanunu materialistcəsinə iĢləyib öz adlarına çıxmıĢlar, əslində isə inkarı inkarın Hegel strukturu saxlanılmıĢdır. Yuxarıda dediyimiz kimi, dilin özünün inkiĢaf prosesində keçirdiyi dəyiĢikliklər və dilin daxili quruluĢundakı elementlərin qarĢılıqlı münasibəti inkarı inkar qanunu əsasında baĢ verir. Bu qanunun foaliyyət prosesindo üç komponent qarĢılıqlı müna- sibotdo olur. Birinci – əsas – Yəni müqayisə ediləcək keyfiyyətin bazası (buna Hegel tezis deyirdi). Ġkinci – həmin əsasla müqayisə edilən, ona qarĢı qoyulan komponent (buna Hegel antitezis deyirdi). Üçüncü isə ikincinin inkarından doğan, birincinin əlamətlərini özündə ehtiva edən sintez. Bu üç komponent qarĢılıqlı olaraq münasibətdə və vəhdətdədir. Belə ki, ikinci birincini inkar

etdiyi halda, inkiĢaf nəticəsində üçüncü də ikinçini-inkar edir. Məs. tayfa dilləri (tezis) keyfiyyətcə yeni bir faktor olan xalq dilinə keçir. Bu keçid pro-sesində xalq dili tayfa dil elementlərini inkar edir. Bir çox söz və ifadələr, qrammatik morfemlər müxtəlif səbəbdən bir-birini inkar edir. Məs. sözlər eyni məzmunda olduğuna görə və yaxud müxtəlif tayfa dil elementləri xalq dili üçün məqbul görülmədiyinə görə ümumxalq dilinə daxil ola bilmir (inkar olunur). Ümumxalq danıĢıq dilində hələ tayfa elementləri yaĢayır. ĠnkiĢaf nəticəsində xalq özü millətə çevrildiyi kimi, onun dili də milli dil səviyyəsinə yüksəlir. Aydındır ki, milli dil artıq tayfa dil elementləri əsasında deyil, ümumxalq dili əsasında qurulur. Ümumxalq danıĢıq və ədəbi dili əsasında yaranan milli dil, xalq dilinin bəzi cəhətlərini inkar edir. Yəni inkar edənin özü inkar olunur. Lakin ümummilli dil inkiĢaf nəticəsi olmasına baxmayaraq, tayfa dili elementlərini də saxlayır. Burada fəlsəfənin inkarı inkar qanunu ilə dilin analoji inkiĢaf qanunu birləĢmiĢ olur. Yəni ikincini inkar edən tamamilə birincidən uzaqlaĢmadığı kimi, milli dil do analoji inkiĢaf qanunu əsasında gedərək öz ilkin kökündən uzaqlaĢmır, əgər bu qanunlar olmasaydı, tarixdə və cəmiyətdə hər dil əvvəlkini inkar edib sabitlikdən çıxarar, hər şey özgələĢərdi. Eləcə də dil inkiĢaf edib dəyiĢərək, əvvəlkini inkar edərək baĢqa bir dilə çevrilərdi.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Abdullayev Ə. Azərbaycan dili məsələləri, Bakı, 1992
2. Babayev A. Dilçilyə giriş. B. Maarif, 2004
3. Qurbanov A. Ümumi diçilik I cild (2 cilddə), Bakı, Nurlan, 2004
4. Məmmədov N., Axundov A. Dilçilyə giriş. B. Maarif, 1980

IV Mühazirə

Fonetika və onun növləri. Səslərin akustikası və fiziologiyası

Plan:

1. Fonetikanın predmeti və vəzifələri.
2. Fonetikanın növləri: a)Akustik fonetika. b)Fizioloji fonetika. c)Sosioloji fonetika. Ümumi fonetika. Təsviri fonetika. Tarixi fonetika. Təcrübi fonetika. Sintaqmatika fonetika.
3. Danışıq səsinin ucalığı. Danışıq səsinin gücü. Danışıq səsinin uzunluğu. Danışıq səsinin tembiri.

4. Danışıq üzvləri.

Ədəbiyyat:

- Məmmədov N., Axundov A. Dilçiliyə giriş. Bakı, Maarif, 1980
- Babayev A. Dilçiliyə giriş. Bakı, Maarif, 2004
- Axundov A. Azərbaycan dilinin fonetikası. Bakı: Maarif, 2007
- Yusifov M. Azərbaycan dili fonetikasının əsasları.Bakı, "Elm və təhsil", 2012 http://anl.az/el/Kitab/Azf-270697.pdf

Dilin səs tərkibini öyrənən dilçilk şöbəsinə **fonetika** deyilir. Fonetika yunan sözü olub, səs haqqında elm deməkdir. Fonetikanın müxtəlif növləri vardır. Bunlar aşağıdakılardan ibarətdir:

1. **Akustik** fonetika danışıq səslərinin fiziki xassələrindən, onların səslənməsindən-tonundan, tembrindən və s. bəhs edir.
2. **Fizioloji fonetika** səslərin əmələ əmələ gəlməsində iştirak edən üzvləri, bu və ya digər üzvləri, bu və ya digər səsin tələffüzü zamanı onların aldığı vəziyyəti və s. öyrənir.
3. **Sosioloji fonetika** və yaxud fonologiya danışıq səslərinin ictimai mahiyyətindən, onların vəzifəsindən, insanlar arasında ünsiyyət vasitəsi olmasından və s. bəhs edir

Fonetikanın bu üç növü bir-biri ilə əlaqəli surətdə dilin səs tərkibini-fonetik quruluşunu, xüsusilə fonemlər sistemini öyrənir.

Fonetikanın bu növləri əslində, fonetikanın tədqiqat aspektlərini təşkil edir. **İşləndiyi sahəyə və tədqiqat üsuluna görə də fonetikanın müxtəlif növləri** vardır. Onlardan ümumi fonetika, təsviri fonetika, tarixi fonetika, müqayisəli fonetika, təcrübi fonetika növlərini xüsusilə qeyd etmək olar.

Ümumi fonetika, adından göründüyü kimi, fonetikanın ümumi məsələlərindən, nitq cihazının səs imkanlarından və müxtəlif dillərdə səs quruluşunun müxtəlif təzahür formalarından bəhs edir. "Diliçiliyə giriş" kursundakı fonetika ümumi fonetikaya aiddir.

Təsviri fonetika ayrı-ayrı dillərin sinxron planda öyrənilməsi ilə məşğul olur. "Bu və ya digər konkret bir dilin müasir səviyyədə malik olduğu səs tərkibini, səs qanunlarını və müəyyən şəraitdən asılı olaraq fonetik dəyişmələrin

qanunauyğunluğunu aydınlaşdırmaq, təsbit etmək və bunlara əməli nəticə çıxarmaq təsviri fonetikanın mövzusunu və məqsədini təşkil edir”

Tarixi fonetika dilin səs quruluşunun inkişafını və sabitləşməsini tədqiq edir. “İnkişaf tarixi boyu müəyyən dilin səs tərkibində, fonetik qanun və qaydalarında baş vermiş dəyişmələri öyrənib, həmin dilin fonetik sisteminin inkişaf tarixini müəyyənləşdirmək tarixi fonetikanın mövzu və məqsədini təşkil edir.”

Fonetikanın növləri içərisində *müqayisəli fonetika* xüsusi yer tutur. Fonetikanın bu növü müxtəlif dillərin fonetik quruluşlarını tutuşdurma, qarşı-qarşıya qoyma yolu ilə öyrənir. Müqayisəli fonetika, əsasən iki məqsəd daşıyır: qohum dillərin səs tərkibini öyrənən müqayisəli fonetika həmin dillərin tarixi fonetikasına, qohum olmayan dillərin səs tərkibini öyrənən müqayisəli fonetika isə həmin dillərin tədrisi metodikasına xidmət göstərir.

Elmin və texnikanın sürətli inkişafı ilə əlaqədar olaraq yaranan və son vaxtlar böyük inkişaf yoluna çıxan *təcrübi fonetika* fonetikanın praktik və nəzəri əhəmiyyət kəsb edən növlərindən biridir. Təcrübi fonetika hər hansı birdilin səs quruluşunu cihazlar vasitəsilə öyrənir.

Sintaqmatik fonetika əslində təsviri fonetikanın ikincı əsas bölməsi sayıla bilər. Sintaqmatik fonetika nitqi, onun sintaqmlara parçalanmasını, danışanın öz nitqinə münasibətinin fonetik imkanlarını öyrənir. Sintaqmatik fonetika qrammatikanın bir şöbəsi olan sintaksislə qırılmaz surətdə bağlıdır.

Səslərin akustikası

Hər hansı bir səs elastik cismin titrəməsi və hava dalğalarının axını nəticəsində əmələ gəlir. Bu dalğalar havada bir- birinin ardınca hərəkət edir və eşitmə üzvü vasitəsilə eşidilir. Dalğalar forma və xarakterinə görə səslər üç yerə ayrılır: 1) səs zərbləri 2) gurultular 3) musiqili səslər və ya tonlar

Səs zərbələri hər hansı bir atəş, partlayış və ya hər hansı ağır cismin zərbəsindən çıxan səslərdir. Gurultular ardıcıl olmayan və tez-tez baş verən zəif zərbələrdən ibarətdir. Ağac yarpaqlarında küləyin xışıltısı, hər hansı bir metalın cingiltisi və s. səslər buna misal ola bilər. Musiqli səslər və ya tonlar isə hava axının ardıcıl olaraq ahəngdar surətdə rəqs etməsi nəticəsində əmələ gəlir. Musiqi alətlərinin, xanəndələrin və s. çıxardağı səslər buna misal ola bilər.

Hər hansı bir cisim səslənərsə, hava dalğaları rəqs edir, onun rəqsi isə yaxındakı hava hissəciklərinə verilir, bunlar da rəqsə gəlib öz rəqslərini qonşu hissəciklərə və s. ötürür ki, bunun nəticəsində də havada səs dalğaları əmələ gəlir ki və yayılır. Səsə mühitə yayılaraq mənbədən uzaqlaşdıqca zəifləyir.

Danışıq səsləri, ümumiyyətlə, müxtəlif səslərdən ibarətdir. Bu səslərin mənbəyini də səs tellərinin titrəməsi təşkil edir. **Danışıq səslərinin akustik xüsusiyyətləri onların yüksəkliyi, qüvvəsi, uzunluğu və tembrindən ibarətdir**.

1. *Danışıq səsinin ucalığı.* Səsin ucalığı müəyyən zaman vahidinə rəqsetmənin sayı ilə düz mütənasib olan akustik vahiddir. Səsin ucalığı, bir qayda, olaraq, hers ilə ölçülür. Səsin ucalığı eyni zamanda səs verən cismin kütləsi və elastikliyi ilə bağlıdır. Belə ki, kütlə və elastiklik çox olduqca səsin ucalığı azalır. Deməli, səsin ucalığı cismin kütləsi və elastikliyinin az olması ilə tərs mütənasibdir.
2. *Danışıq səsinin gücü.* Səsin gücü birinci növbədə amplitudadan asılıdır. Amplituda- rəqs edən cismin tarazlıq vəziyyətindən ən çox uzaqlaşdığı nöqtələr arasındakı məsafədir. Başqa sözlə, amplitudanın kvadratı nə qədər böyük olsa, səsni gücü də bir o qədər artıq olur.
   Şübhəsiz, səsin gücünə atmosfer təzyiqinin, rütubət dərəcəsinin, habelə hava istiliyinin də təsiri də vardır.
3. *Danışıq səsinin uzunluğu.* Səsin uzunluğu onun yaranmasına sərf olunan vaxta görə müəyyən olunur. Məlum olduğu üzrə, hər bir səsin özünəməxsus uzunluğu və yaxud davamlığı mövcuddur ki, bu da həmin səsin ucalığından, gücündən və s. asılı deyildir.
4. *Danışıq səsinin tembri.* Bu səsin elə bir keyfiyyətidir ki, onu vasitəsilə səslərin ucalığından, gücündən, uzunluğundan asılı olmayaraq, onalrı bir-birindən fərqləndirirlər. Məsələn, a və ı səslərini eyni ucalıqda, eyni gücdə və eyni ucalıqda tələffüz etmək olar. Lakin onlar yenə də bir- birindən fərqlənəcəklər. Səsin biu keyfiyyətinə və ya onun özünəməxsus rəngarəngliyinə səsin tembri deyilir. Səsin bu mürəkkəbliyindəki ən alçaq ton əsas ton adlanır. Iki, üç, dörd qat və s. kimi böyük tezliklərə malik sadə tonlar isə yüksək harmonik tonlar və ya obertonlar adlanır.

   Əsas tona nə qədər çox oberton qarışarsa, bu obertonların hər birinin gücündən asılı olaraq səsin tembri də bir o qədər dolğun, ahəngdar və müxtəlif olar.

Danışıq səslərinin fiziologiyası

Danışıq səsləri ünsiyyət vasitəsi olan dilin varlığının təşkil edir. səs olmadan heç bir dili təsəvvür etmək mümkün deyil və mümkün ola bilməz. Deməli, danışıq səsləri dilin maddi materiyasıdır. Hər bir səsin yaranması üçün material qəbul etdiyi hava axınıdır. Belə ki, ağ ciyərə dolmuş hava axını əvvəlcə nəfəs borusuna və oradan da ağız və burun boşluqlarına daxil olur, beləliklə, məqsəddən asılı olaraq bu və ya başqa səs tələffüz edilir.

Dildəki hər bir insanın danışıq üzvləri vasitəsi ilə əmələ gəlir. Buna görə də səsin necə yarandığını dərk etmək üçün danışıq üzvlərini bilmək, onalrın fəaliyyəti ilə tanış olmaq zəruridir.

Danışıq səslərin əmələ gəlməsində iştirak edən üzvlərə danışıq üzvləri deyilir. Bütün danışıq üzvlərinin cəmi danışıq cihazı adlanır.

Səslərin yaranmasında iştirak edən danışıq üzvləri bunlardır: 1)ağciyərlər; 2) bronxlar 3) nəfəs borusu 4) qırtlaq(xirtdək) 5) səs telləri 6) udlaq boşluğu 7) ağız boşluğu 8) dil 9) dişlər 10) yuvaqlar 11) damaq 12) dilçək 13) burun boşluğu 14) doddaqlar 15) alt çənə 16) əsəb sistemi

Səsin əmələ gəlməsində danışıq üzvləri müxtəlif vəzifə daşıyır. Buna görə də onalar iki yerə bölünür: idarə edən, icra edən.

Əsəb sistemi bütün danışıq üzvlərini idarə edir. Əsəb sisteminin- beyinin fəaliyyətdən düşməsi nəticəsində digər də danışıq üzvləri anormal vəziyyət alır.

Əsəb sistemindən başqa. yerdə qalan bütün üzvlər icraçı vəzifəsindədir. Icraçı üzvlər üç hissəyə bölünür. Səsin yaranmasında bu hissələrin və bunlara daxil olan üzvlərin hər biri müəyyən vəzifə yerinə yetirir.

I hissə- bu hissəni tənəffüs (nəfəs) orqanı təşkil edir. Məlumdur ki, səsin materiyası hava axınıdır. Bu hava axını tənəffüs orqanı vasitəsi ilə əmələ gəlir. Tənəffüs orqanına ağ ciyərlər, bronxlar və nəfəs borusu daxildir.

1. *Ağ ciyərlər*. Ağ ciyərlər nəfəs orqanının başlıca üzvüdür. Bu öz mahiyyətinə görə köməkçi xarakterb daşıyır. Səsin yaranmasındfa ağ ciyərlərin rolu bunlardan ibarətdir: a) hava axının yarnmasında baza təşkil edir; b) hava axınının bronxlardan nəfəs borusuna, nəfəs borusundan xirtdəyə, xirtdəkdən udlaq

boşluğuna və oradan da ağız və burun boşluğuna keçməsinə təsir edir; c) müxtəlif səslərin yaranması üçün hava axınını tələbata uyğun şəkildə tənzim edir.

2. *Bronxlar*. Səsin yaranmasında bronxların rolu ağ ciyərdən gələn havanın nəfəs borusuna keçməsinə imkan yaratmasından ibarətdir.
3. *Nəfəs borusu*. Bu üzv ağ ciyərdən gələn havanın qırtlağa (xirtdəyə) gəlib çatmasına imkan yaradır. Buna görə bronxlar kimi. nəfəs borusu da hava axını yolu adlanır.

   Deməli, tənəffüs orqanına daxil olan üzvlərin vəzifəsi lazım olan səsin yarnması üçün kifayət qədəq hava axını verməkdən ibarətdir.

II hissə -bu hissəni səs törədn üzvlər təşkil edir. Səs, əsasən bu hissədə əmələ gəlir. Belə ki, ağ ciyərlərdən gələn hava axını burada müəyyən maneə ilə rastlaşır və səs yaranır. Bu iki hissəyə daxildir: xirtdək, səs telləri.

1. *Xirtdək (qırtlaq*). Xirtdək qısa borudan ibarətdir. Xirtdək bir neçə qığırdağın birləşməsindən ibarət üzvdür.
2. *Səs telləri*. Hava axınının səsə çevrilməsində səs telləri mühüm rola malikdir. Səs telləri xirtdək boşluğunda yerləşir. Səs telləri bir- birinə yaxınlışdıqda, yaxud gərginləşdikdə ağ ciyərdən gələn hava axını səs tellərini ehtizaza gətirir, beləliklə, səs əmələ gəlir. Burada yara a səs nitq üçün formalaşmamış, xam materialdır.Həmin xam material digər üzvlərin vasitəsi ilə formalaşar və müxtəlif səslərə çevrilir.

   III hissə- bu hissəni səsi formalaşdıran üzvlər təşkil edir. Səsin formalaşmasında və eləcə də müxtəlif səslərin yaranmasında bir sıra üzvlər iştirak edir. Həmin üzvlər aşağıdakılardır.

   1. *Udlaq boşluğu*. Xirdəkdən gələn səsin ağız boşluğuna və ya burun boşluğuna keçməsi imkanı udlaq boşluğu vasitəsi ilə yaranır.
   2. *Ağız boşluğu*. Müxtəlif səslərin formalaşmasında iştirak edən ən başlıca üzv ağız boşluğudur. Ağız boşluğu səsin formalaşması üçün, bir növ laboratoriyadır. Ağız boşluğu udlaq boşluğundan gələn səsləri qəbul edərkən, öz vəziyyətini dəyişməklə, onlara müxtəlif rəng verir.
   3. *Dil*. Səslərin formalaşmasında iştirak edən mühüm üzvlərdən biri dildir. Dil çox mütəhərrik üzvdür. Dil üç hissəyə bölünür: dilönü,dilortası və dilarxası.
   4. *Dişlər*. Dişlər səslərin müxtəlifləşməsində köməkçi üzvdür. Bunlar iki formadadır: alt dişlər, üst dişlər.

5. *Yuvaqlar*. İçəri tərəfdən dişlərin dibindəki çıxıntıya yuvaq. Yaxud alveol deyilir. Nitq səslərin formalaşmasında yuvaqlar da müəyyən vəzifə yerinə yetirir.
6. *Damaq*. Ağız boşluğunun üst hissəsini təşkil edir. Damaq bir- birindən fərqli iki hissəyə bölünür: sərt damaq (ön hissə), yumşaq damaq (arxa hissə). sərt damaq yumşaq damaqdan demək olar ki. iki dəfə böyükdür.
7. *Dilçək.* Bu üzv yumşaq damağın sonunda yerləşir. Dilçəyə eyni zamanda damaq pərdəsi də deyilir. Dilçək hərəkət edən üzvdür. O, aşağı və yuxarı istiqamətdə hərəkət edir. Dilçək yuxarı qalxmış vəziyyətdə olarkən burun boşluğuna gedən hava axınının qarşısını kəsir; aşağı düşmüş vəziyyətdə isə burun boşluğunun yolu açılır və hava burun boşluğuna daxil olur. Beləliklə də, burun səsinin formalaşmasına imkan yaranır.
8. *Burun boşluğu.* Burun boşluğunu ağız boşluğundan damaq ayırır. Burun boşluğu burun çalarlıqlı bir sıra səslərin yaranmasında iştirak edir.
9. *Dodaqlar*. Səslərin formalaşmasında dodqaların da xüsusi rolu vardır. Dodaqlar ikidir: alt dodaq, üst dodaq. Dodaqlar hərəkət edən üzvdür. Bunların hərəkəti çox mürəkkəbdir. Belə ki, dodaqlar irəli uzanır, yana dartılır, bir-birinə tərəf hərəkət edib kipləşir və s. Bu hərəkətlərə əsasən də müxtəlif sait və samit səslər formalaşır.
10. *Alt çənə*. Bu üzv xirtdəkdən gələn səslərin müxtəlif avazlı nitq səslərinə çevrilməsinə kömək edir. Ağız boşluğunun həcmi bu üzvün iştirakı ilə dəyişə bilir.

Dildəki səslərin əmələ gəlməsində danışıq üzvlərindən bəziləri mütəhərrik, yaxud hərəkət edən, bəziləri isə qeyri- mütəhərik, yaxud hərəkət etməyən üzvlərdir. Bu nöqteyi-nəzərdən danışıq üzvləri iki yerə bölünür: **fəal üzvlər və qeyri-fəal üzvlər**

A) Fəal üzvlər. Bu və ya başqa səsi yaranmasında mütəhərrik olan üzvlərə fəal üzvlər deyilir. Fəal üzvlər bunlardır: dil, dodaqlar, səs telləri, alt çənə, yumşaq damaq, dilçək.

b) Qeyri-fəal üzvlər. Bu və ya digər səsin əmələ gəlməsində qeyri-mütəhərrik və ya az mütəhərrik olan danışıq üzvləri qeyri-fəal üzvlər adlanır. Qeyri-fəal üzvlər bunlardır: dişlər,yuvaqlar, sərt damaq, nəfəs borusu, ağ ciyərlər

Nitqdəki bu və ya digər səsin yaranmasında üzvlərinin aldığı vəziyyətə **məxrəc (artikulyasiya)** deyilir.

Bu və ya digər danışıq səsinin yaranması zamanı danışıq üzvlərinin hərəkətində bir ümumi cəhət göstərir. Bu ondan ibarətdir ki, bu və ya digər səsin tələffüzündə üç mərhələ nəzərə çarpır:

1) Bu və ya digər səsi tələffüz etmək üçün danışıq üzvləri hərəkətə başlayır. Buna başlanğıc və ya ekskursiya deyilir.
2) Həmin səsi tələffüz etmək üçün danışıq üzvləri bir an hərəkətsiz qalır ki, buna fasilə və ya pauza deyilir.
3) Bu səs tələffüz edildikdən sonra danışıq üzvləri öz əvvəlki vəziyyətini almağa başlayır ki, buna sonluq və ya rekursiya deyilir.

İnsanlar nitqi, adətən, qulaqları vasitəsilə eşidir və qavrayırlar. Qulaq, əsasən, üç hissədən ibarət olur: xarici hissə, orta hissə və iç hissə.

Xarici qulaqla orta qulaq arasında qulaq pərdəsi yerləşir ki, adətən, səs dalğaları, hər şeydən əvvəl, onları rəqsləndirir. Qulaq pərdəsindən sonrakı hissədə - həcmi 1 sm olan uzunsov pəncərəni xatırladan hissədə çəkic, zindan, üzəngi tipli sümüklər yerləşmişdir. Bu sümüklər ling kimi işləyən oyna qsümüklərdir. Qulaqda qıcaqlanmaya çox həssasolan sinir uclarının olduğu hissə endolimf deyilən maddə ilə doludur. Burada əsas mebran deyilən hissə də yerləşir. Həmin mebran bir-biri ilə zəif bağlanmış təxminən 20. 000 lifdən ibarətdir. Məhz bu liflərin hərəkəti ilə biz müxtəlif səsləri eşidə bilirik. İnsan qulağı, adətən, 16 ilə 20.000 hs arasındakı tezliyə malik olan səsləri eşidir.

Mövzu:5

Danışıq səslərinin təsnifi. Fonem

Danışıq səsi ilə fonemi eyniləşdirmək olmaz. Əlbəttə, bunlar bir-birindən ayrı da deyil. Lakin müxtəlif əlamətlərlə danışıq səsləri fonemlərdən fərqlənir. Danışıq səsləri ilə fonemlər arasında aşağıdakı fərqlər vardır:

1 Dildə danışıq səsi çox, fonem isə sayca ondan qat-qat azdır. Danışıq səsi bir səsdən ibarət olduğu halda, fonemlər iki səsdən ibarət ola bilər.

2 İki fonem bir danışıq səsinə uyğun gələ bilər. Məsələn, rusca сшит(сшитъ), almanca sch - Ş

FONEMİN ƏLAMƏTLƏRİ. Fonem haqqında danışanlar ona müxtolif mövqelərdən yanaşmış, onun müxtəlif əlamətlərini ön plana çəkmişlər. Məs., N.S.Trubetskoy fonemin əsas əlaməti kimi relevant – diferensial-fərqləndirici və irrelevant – inteqral-

birləşdirici cəhətini ön plana çəkirdi. Bu mövqeyi Reformatskidə, sonralar L. R. Zinderdə də görmək olar. Fonemlərin əlamətlərindən danışarkən Ə. M. Dəmirçizadənin də maraqlı konsepsiyasından bəhs etmək lazımdır. Əvvələn, Ə. Dəmirçizadə Moskva fonoloji məktəbinin konsepsiyasını qəbul edir. Buna görə də o, fonemləri yalnız morfoloji mövqedən şərh edərək aşağıdakı əlamətlərini göstərir: ***1 .Fonem dilin müstəqil bir həlqəsidir.***

2. Fonem sözdən aid deyil, ancaq söz daxilində ola bilən mənalı dil vahididir.

3. Fonem dilin məna varada bilən ən kicik vahididir.

4. Fonemlər sistemi hər bır dilin məxsusi əlamətlərinə görə müəyyənləşir.

5. Bir fonem bir səsdən, iki səsdən, hətta üç səsdən ibarət ola bilər (monoftonq, diftonq, triftonq).

6. Sözdən, ifadədən və daha bir sıra başqa şəraitdən asılı olaraq bir fonem, digər bir fonem çalarlığında işləndikdə yeni bir fonem formalaşması və ya fonem variantı formalaşması mümkündür.

7. Fonemlər silsiləsi qarşılıqlı cütlükdən ibarətdir.

Fonemin söz fərqləndirici və forma fərqləndirici cəhətlərinə L. V. şerba hələ 1912-ci ildə nəQr etdirdiyi «Rus saitləri kəmiyyət və keyfiyyət münasibətlərində» adlı əsərində toxunmuşdur. Fonemi müxtəlif mövqedən qiymətləndirənlərin hamısı, əslində fonem nəzəriyyəsinin banisi – Kazan dilçilik məktəbinin banisi İvan Aleksandroviç Boduen de Kurteneyə əsaslanırlar. İ.A.Boduen de Kurtenc 1870-ci ildə yazdığı «XIV yüzilliyə qədərki qədim polyak dili haqqında» adlı magistrlik dissertasiyasında fonem nəzəriyyəsinin ilkin müddəalarını irəli sürmüşdür. Alim burada fonemi etimoloji-morfoloji mövqedən izah edir. 1881-ci ildə yazmış olduğu «Slavyan dillərinin qrammatikasının bəzi şöbələri» adlı əsərində əvvəlki fikirlərini daha da dəqiqləşdirir və ümumiləşdirərək fonemə aşağıdakı tərifi verir: «Fonem sözün fonetik hissələrinin müqayisələnməsi nöqteyi- nəzərdən bölünməyəndir» Fonemi danışıq səsindən ilk dəfə fərqləndirən Boduen de Kurtene olduğu kimi, fonemin quruluşu haqqında mülahizələri də ilk dəfə o söyləmişdir. O, fonemin danışıq səsinin bir hissəsi olduğunu söyləyərkən, səsin qısa-yumşaq tələffüzünü nəzərdə tutmuşdur. Bundan əlavə o, bir fonemin bir-iki səsdən ibarət ola bilməsini də əsaslandırmışdır. Yaradıcılığının birinçi mərhələsində Boduen fonemin əsas əlaməti olaraq morfem tərkibindəki funksiyasını götürürdü. O, belə hesab edirdi ki, «fonem morfemin mütəhərrik komponenti olub məlum morfoloji kateqoriyanın əlamətidir». Burada alim morfemin antropofonik aspektini nəzərə

almırdı. Fonemin antropofonik xüsusiyyətini nəzərə almayıb sırf morfem elementi hesab etmək bəlkə də mümkündür. Lakin onda fonem anlayışı tam hesab edilə bilməz. Məhz buna görə də Boduen yaradıcılığının ikinci mərhələsində öz əvvəlki mövqeyini dəyişərək sırf psixoloji platformaya keçir. Belə ki, 1884-cü ildə yazmış olduğu «Fonetik alterasiya nəzəriyyəsi təcrübəsi» adlı fundamental əsərində alim əvvəlki mövqeyindən uzaqlaşdığını göstərir, həmin əsərində o, fonemi belə izah edir: «Fonem, fonetika aləminə mənsub olan vahid təsəvvür olub, təəssüratın təsiri ilə insan ruhunda eyni sosin tələffüzündən alınan – dildəki səslərin psixi ekvivalenti olan təsəvvürlərin dürüstləĢməsindən yaranır» Alim sonrakı dövrlərdə də fonemə psixoloji mövqedən yanaşmaqda davam etmişdir. 1917-ci ildə yazdığı «Введение в языкознание» adlı əsərində də fonemi insan psixikasında daim mövcud olan səs təsəvvürü adlandırmıĢdır. Bəlli olduğu kimi, İ.A. Boduen de Kurtene təlimi əsasında müasir dilçilikdə iki foanoloji məktəb yaranmıĢdır. Moskva fonoloqları A. A. Re- formatski, P. S. Kuznetsov, V. N. Sidorov əsrimizin 30-cu illərində Boduenin fonem haqqında etimoloji-morfoloji mövqeyi əsasında bu nəzəriyyəni daha da dərinləşdirmişlər. Onların ardıcılları T. V. Bulıkina, Ķ. V. Qorkov, A. Yeskova, V. V Ġvanov, Ġ. S. İlinskaya, Ķ. A. Klimov və başqaları əksər fonoloqları da öz arxasınca aparırlar. Sankt-Peterburq fonoloji məktəbinə gəlincə, göstərmək lazımdır ki, bu məktəbin nümayəndələri L. V. Şerba və onun şagirdləri L. R. Zinder, M. Ġ. Matuseviç və başqaları öz müəllimləri Boduenin ikinçi fikirlərini üstün tuturlar. Yəni onlar fonemə morfoloji-etimoloji mövqedən deyil, psixoloji mövqedən yanaşırlar, hələ L. V. Şerba fonemin sözfərqləndirici və forma fərqləndirici cəhətlərinə fikir vermişdi. Sankt-Peterburq fonoloqlarının fonemə verdikləri təriflərə nəzər salaq. L. R. Zinder yazır: «Fonem – ən qısa, baĢqa sözlə, zamana görə (və ya xətti olaraq) elə bölünməz vahiddir ki, onda struktur cəhətdən müxtəlif əlamətlər meydana çıxır, onlardan bəziləri başqa fonemlərlə ümumi olub, bəziləri onu qcyri-fonemlərdən fərqləndirir» Zinderin həmfikri olan M. Ġ. Matuseviç isə fonemə belə bir tarif verir: «Fonem – tarixən əmələ gəlmiş xətti şəkildə bölünməyən ən kiçik dil vahididir ki, bütün başqalarına qarşı qoyulmuşdur... O, nitqdə öz fonetik vəziyyətindən asılı olaraq müxtəlif çalarlıqları ilə mövcud olur». Bütün bu dediklərimizə yekun olaraq göstərmək olar ki, fonem dilin elə kiçik, bölünməz vahididir ki, o, dil sistemində mühüm ictimai vəzifə daşıyır. Onun başlıca funksiyası məna fərqləndirməkdir. Məs., sənəd və sənət sözlərini götürək. Hər iki sözün axırında «t» səsi eşidilir. Amma sözlərin mənası tamam başĢadır. Qənd, kənd sözlərində isə «d»-nın karlaşması mənanı dəyişə bilmir. Burada eşidilən «t» səsi müstəqil fonem olmayıb «d» foneminin kar variantıdır. Fonemin başlıca əlamətinin məna fərqləndiricilik olduğunu dedik. Dildə məna (leksik və qrammatik) fərqləndirə

bilməyən bir qrup danışıq səsləri isə fonem çalarlığı adlanır. Fonem çalarlıqları da dildə daşıdığı vəzifəyə görə iki qrupa bölünür. Məsələn, yuxarıda dediyimiz kimi kənd – kənt, qənd – qənt sözlərindəki «t» səsi «d» foneminin variantıdır. Çünki «t» ayrılıqda fonem ola bilir. Məs. tar – dar sözlərində həm «t» həm də «d» müstəqil fonemdir. Amma bir qrup fonem çalarlığı heç vaxt dildə müstəqil işlənə bilmir. Məsələn, y foneminin kar qarşılığı olan x, q° və s. çalarlıqlar heç vaxt müstəqil fonem səviyyəsində işlənə bilməz, belə çalarlıqlar isə variasiya adlanır.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

5. Abdullayev Ə. Azərbaycan dili məsələləri, Bakı, 1992
6. Babayev A. Dilçilyə giriş. B. Maarif, 2004
7. Qurbanov A. Ümumi diçilik I cild (2 cilddə), Bakı, Nurlan, 2004
8. Məmmədov N., Axundov A. Dilçilyə giriş. B. Maarif, 1980

Mövzu:6

Fonetik hadisə və qanunlar. Orfoqrafiya və orfoepiya

FONETİK HADİSƏ VƏ QANUNLAR. Nitq axını zamanı danışıq üzvləri sürətlə, tez-tez müxtəlif hərəkətlər edir, hər bir səsin öz tələffüz məxrəci olduğu üçün danışıq üzvləri tez-tez müxtəlif cür qurulub-sökülür. Bu proses o qədər sürətlə getməlidir ki, bir səsin məxrəc (artikulyasiya) bazası başqasına uyğun gəlməsin. Bu isə praktik olaraq fizioloji cəhətdən mümkün olmur. Ona görə də səs təhrifləri əmələ gəlir. Yəni danışıq səslərinin bir-birinə təsiri nəticəsində fonetik hadisələr yaranır. Başqa sözlə desək, yanaşı gələn səslərin başlanğıc və son məxrəcinin bir-birinə təsiri və sözdə səslərin vəziyyəti ilə əlaqədar olaraq fonetik hadisələr əmələ gəlir. Fonetik hadisələr mövqeli və kombinator olaraq iki qrupa bölünür: Kombinator hadisələr. DanıĢıq prosesesindo tələffüz edilən səslərin bir-birinə təsiri nəticəsində yaranan fonetik hadisələr kombinator adlanır. Kombinator hadisələrin çox vaxt ədəbi dil normasına çevrilə bilmədiyi üçün onları orfoqrafıyada məqbul saymaq olmaz. Belə ki, gəliilər, İrbahım, stəkan və s. şəkildə yazmaq olmaz. Bəzi fonetik hadisələr də vardır ki, tarixən sabitləşərək qanuna keçir və ədəbi dil normasına çevrilir, (məs: ahəng qanunu, cingiltiləşmə, karlaşma və s.) *Bəzi kombinator hadisələrə nəzər salaq. Kombinator hadisələr aşağıdakılardır: Uyuşma (assimilyasiya), Dissimilyasiya, Eliziya, Akkomodasiya, Aferezis, Diareza, Metateza, Epenteza, Proteza, Qaplologiya, Uyuşma (assimilyasiya).* Danışıq zamanı səslərin bir- birinə təsir edib onu öz məxrəcinə

çevirməsinə uyuşma və ya assimilyasiya deyilir. Bu iki termin dilçiliyimizdə yanaşı işlənir. Azərbaycan dilçiliyində bu fonetik hadisəyə ilk dəfə 1924-cü ildə prof. B. V. Çobanzadə diqqət verib və «Türkcənin səs uyuşması qanunu» adlı məqaləsində bu məsələdən bəhs etmişdir. Adından da göründüyü kimi, uyuşma prosesində bir səs digərinə təsir edərək onu ya tamamilə öz məxrəcinə salır, ya da özünə yaxınlaşdırır.

Uyuşmanın keyfiyyətinə və istiqamətinə görə iki növü vardır. Keyfiyyətə görə uyuşma tam və natamam olaraq iki qrupa bölünür.

a) Tam uyuşma zamanı bir səs başqasına təsir edərək onu tamamilə öz məxrəcinə sala bilər. Məsələn, Azərbaycanca: gəlirlər – gəliilər, oğlanlar – oğlannar, danlamaq – dannamaq və s. Rusca: отдать – оддать, разсориться – рассориться, сватба – свадьба. Almança – Zimber - Zimmer. Yeri gəlmişkən, göstərmək lazımdır ki, bir sıra sözlər fonetik uyuşma şəklində sabitləşmiş və ədəbi dilin normasına çevrilmişdir. Məsələn: indi heç kəs свадьба sözünü сватьба şəklində deyib yazmaz. Əslində isə bu söz vaxtilə свата (elçi), сватать (elçilik etmək), сватьба (elçilik) sözündən törənmişdir. Eyni səsləri топерь – теперь və s. sözlər haqqında da demək olar.

b) natamam uyuşma zamanı bir səs başqasına təsir edərək onu tamamilə öz məxrəcinə sala bilməyib, özünə yaxın məxrəcə salır. Məsələn: əlimdən – əlimnən, damdan – damnan, adamlar – adamnarva s. Rusca: ложка – лошка.

Uyuşmanın istiqamətinə görə də bu fonetik hadisə iki qrupa bölünür:

1. İrəli uyuşma (прогрессивная ассимилясия),

2. Geri uyuĢma (регрессивная ассимилясия).

İrəli uyuşma. Bu fonetik hadisə zamanı bir səs özündən sonra gələn səsə təsir edir. Məs.: qapmaq – qappaq, satdı – sattı. Geri uyuşma. UyuĢma zamanı səs özündən əvvəl gələn səsə təsir edib öz məxrəcinə salır: Məs: azərbaycanca: gəlirlər – gəlillər; danışırlar – danışıllar; rusca: легкий – леккий və s. Danııq zamanı səslər öz qonşusuna təsir etdiyi kimi (смежная ассимилясия), yanaşı olmayan səsə də təsir edə bilər, (не смежная ассимилясия). Bu, bütün türk dillərindəki ahəng qanununun əsas səbəb- lərindəndir. Rus dilində də yanaşı olmayan səslər bir-birinə təsir edir. Məs: indi hamının теперь şəklində deyib yazdığı söz tarixən топерь formasında olmuşdur. Danışıq səslərinin bir-birinə təsiri zamanı yaranan fonetik hadisələrdən biri də ahəng qanunudur (sinoarmonizm). Bu qanun türk dilləri üçün səçiyyəvidir. Bu qanunun türk dillərində sabitləĢməsini həmin dillərin iltisaqiliyi ilə izah etmək lazımdır. Türk dillərinin hamısında bu qanun artıq ədəbi dil normasına çevrilmiĢdir. Məs.: türkcə: Biz kendi

sorunlarımızı başkalarından daha iyi biliyouruz. Azərbaycanca: QıĢın orta ayı idi. Soyuqdan hamı qaçıb evlərdə gizlənmişdi. (S. S. Axundov). Tatarca: Ul orada süz ikençeqə kitep alınqannamın gizqapıq bulur xakında kayqırışa dedilər ki, tapılanlar çox yazıqdır. (Q. İbrahimov). Türkməncə: ġəxerden sopboş, xiç sərin başını tutman oba qaydı bermeqa kasımın yüreqi etmədi. (Abu Bakar) Misallara diqqət yetirsək, görərik ki, bu dörd türk dilinin hamısında eyni cinsli səslərin biri digərini izləyir. Uyuşmamn bir hissəsi olan ahəng qanunu dilə axıçılıq, rəvanlıq və musiqililik verir. Ahəng qanununun, əsasən, üç növünü qeyd etmək olar: 1. Saitlər ahəngi (uyuşması). 2. Samitlər ahəngi (uyuşması). 3. Saitlərlə samitlərin ahəngi (uyuıması) Saitlər ahəngi. Ahəng qanunun tələbinə görə kökdə gələn saitlər (bütün növləri ilə) kökə əlavə edilən şəkilçilərdə özünə uyar sait tələb edir. Bu, xüsusilə dörd cür yazılan şəkilçilərdə daha qabarıq şəkildə nəzərə çarpır. Məs: alqış-la-maq. ütü-lə- mək. Bü-züş-dü-rü-Iür, düzəl-di-lir, dilim-lə-mək və s. Saitlərin neçə növü varsa, saitlər ahənginin də bır o qədər növü vardır. Yəni qalın, incə, dodaqlanan, dodaqlanmayan saitlərin həmin adda da ahəngi vardır. Samitlər ahəngi. Samitlər ahəngi geri uyuşma (assimilyasiya) şəklində meydana çıxır. Yəni söz tərkibində hər bir sait özündən əvvəlki saitdən asılı olaraq kar və ya cingiltili olur. Belə ki, kar samitlər söz daxilində kar samitlərlə yanaşı gəlir. Məs: püstə, süstləşmək. Cingiltili samitlər isə cingiltili samitlərlə yanaşı işlənir. Məs: azğın, pozğun və s. Saitlərlə samitlərin ahəngi. Dildə saitlərlə samitlərin həmcinsləşməsi, Yəni uyuşması başqa fonetik hadisələrdən az yayılmışdır. Dilin vəziyyətinə və səs tellərinin vəziyyətinə görə yaranan sait-samit ahəngi qalın və incə saitlərin arxa sıra və ön sıra olaraq bölünməsi ilə formalaşır. Məlumdur ki, e səsi istisna olunmaqla bütün saitlərin arxa-ön variantı olduğu kimi x, g~k, x səslərinin – samitlərin də arxa və ön sıra növləri vardır. Məs: toqqa, bağırtı, qarğıdalı, əkinçi, ikilik, təklik və s. Səs əvəzlənməsi (dissimilyasiya). Fonetik hadisələrdən biri do səs əvəzlənməsi – dissimilyasiyadır. Səs əvəzlənməsi uyuşmanın tam əksidir. Əgər uyuşma prosesində müxtəlif səslər bir-birinə təsir edərək onu öz məxrəcinə salırdısa, burada eyni səslər tələffüzdə ağırlıq törətdiyi üçün biri digərini öz məxrəcindən uzaqlaşdırır. Dissimilyasiya – səs əvəzlənməsi çox vaxt dildə sabitləşir. Məs: rus dilindəki лыцар - рыцар, личард – ричард, вельблюд – верблюд, феврар – февраль şəklində sabitləşmişdir. İndi heç kəs тарелка əvəzinə талелька demir, halbuki Avropa dillərinin əksərində olan bu sözün tərkibində «talel» səs birləşməsi vardır. Məs.: alman dilində bu söz teller şəklində indi də işlənməkdədir. Azərbaycan dilində də vaxtilə issi, tüssii kimi sözlərdə səs əvəzlənməsi gedərək, eynicinsli samitlərin birincisi ikincini öz məxrəcindən uzaqlaşdıraraq, isti, üstü, saralmaq, qaralmaq və s. şəklinə salmışdır. Müasir Azərbaycan dilində səs əvəzlənməsinə, dis-similyasiya tək-tək olsa da rast golmək olur, məsələn, qərar – qora!

və s. Səs əvəzlənməsi dissimilyasiyaya yaxın olan hadisələrdən biri də metateza (səslərin yerdəyişməsi), yerini dəyişmiş səslər isə metatetik səs adlanır. Məs. vağzal – vazğal, İbrahim – İrba- /ım, Kəlbəcər – Kəbləcər və s. Səs düşümü (eliziya). Tələffüz prosesində səslərin qarşılıqlı təsiri ilə səs düşümü (eliziya) hadisəsi də baş verir. Bu hadisə həm sözlərin bir-birinə birləşməsi, həm də sözə şəkilçi artırılması zamanı baş verir. Eliziya zamanı sait səslər düşür. Məs.: oğul – oğlum, ağız – ağzın və s. Səs düşümü bəzən dildə elə sabitləĢir ki, onu yazıda da göstərmək lazım gəlir. Məs: alın – alnım, ömür – ömrümüz, ƏlİabbasƏlabbas, Əlimərdan – Əlmərdan. Bəzi hallarda isə səs düşümü sabitləşə bilmir. Belə hadisələr orfoqrafiyada göstərilmir. Məs: qovurma – qourma, sovurma – sourma, söyüd – söüd və s. Diareza – bu da səs düĢümünün bir növüdür. Diareza mürəkkəb səs birləĢməsi zamanı baĢ verir. Məs.: rus dilində честный – честный, солнце – сонце. Ġki müxtəlif səsin yanaĢı gəlməsi (mürəkkəb səs birləşməsi) nəticəsində Azərbaycan dilində də diareza hadisəsi baş verir. Məs.: dostdur – dosdur. Aferezis – iki sözün birləĢməsi zamanı ikinci sözün birinci səsinin düşməsinə deyilir. Məs.: vasitəsi ilə – vasitəsi/ə, əlim ilə – əlim/ə. Qaplologiya isə tələffüz prosesində bütöv hecanın düşməsinə deyilir. Məs.: mineralologiya – mineralogiya, tragiko- komediya – tragikomediya, gətirdi – gə tdi. Səs artımı (proteza). Fonetik hadisələrdən biri də protezadır. Proteza yaranma yerinə görə müxtəlif olur: a) sözün əvvəlində Azərbaycan dilinin fonetik xüsusiyyətlərinə görə iki müxtəlif cinsli samit səsin, tələffüzü ağırlıq törədir. Ona görə də söz əvvəlinə sait səs artırılmaqla həmin səs birləşmələri heca ilə ayrılır. 1.St səs birləşməsinin əvvəlnnə «i» artırılır; stansiya – istansiya, stəkan – is təkan. 2.Şk səs birləşmələri ilə başlanan sözün əvvəlinə «i» artırılır. Məs.: şkaf – işkaf. b) R ilə başlanan Azərbaycan sözü yoxdur. Belə sözlərin əvvəlinə mütləq «i» artırılır. Məs: Rəsul – İrəsul, Rəna – İrəna, Rza – Irza.

Mövqeli-dəyişmə. Adından göründüyü kimi, bu fonetik hadisə səsin işlənmə mövqeyindən asılıdır. Tələffüz prosesində səsin zəifləməsinə reduksiya deyilir. Məs: Azərbaycan dilində vurğusuz hecadan əvvəl gələn samit səslər zəifləyir. Məs. görüş, dərman və s. kimi səslər fonoloji davamlığının zəifləməsi ilə seçilir.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

9. Abdullayev Ə. Azərbaycan dili məsələləri, Bakı, 1992

10. Babayev A. Dilçilyə giriş. B. Maarif, 2004

11. Qurbanov A. Ümumi diçilik I cild (2 cilddə), Bakı, Nurlan, 2004

12.Məmmədov N., Axundov A. Dilçilyə giriş. B. Maarif, 1980

Mövzu 7. Dil və səs yazı

Plan:

- *Yazı və onun mənşəyi.*
- *Yazının xüsusiyyətləri.*
- *Yazının tipləri.*
- *Piktoqrafik yazı və onun xüsusiyyətləri*
- *Ideoqrafik yazı və onun xüsusiyyətləri*
- *Heca yazısı və onun xüsusiyyətləri*
- *Səs yazısı və onun xüsusiyyətləri*
- *İstiqamətlərinə görə yazıların təsnifi: şaquli və üfüqi yazılar*

Yazı – görmə vasitəsilə dərk edilib, fikrin ifadəsində əsas ünsiyyət vasitəsinə köməkçi olan işarələr sistemidir. Yazı özünəməxsus bir sıra xüsusiyyətlərə malikdir. Birincisi, yazı şifahi nitqə köməkçi bir ünsiyyət vasitəsi kimi yaranmışdır. Ona görə yazını heç vaxt dildən ayrı təsəvvür etmək mümkün deyildir. İkincisi, bu və ya digər fikri başqasına çatdırmaq mümkün olmayan yerdə yazı həmişə insanların köməyinə çatır, çox-çox uzaq məsafələrdən adamların bir-biri ilə "danışmasına" – ünsiyyət saxlamasına şərait yaradır, onların söz-söhbətini, fikir və düşüncələrini bütün tarix boyu mühafizə edib saxlamağa imkan verir. Üçüncüsü, yazı işarələr sistemindən ibarət olub, şərti işarələrlə yazılır və görmə üzvlərimizin köməyi ilə oxunur.

Yazı insanların dillə ünsiyyət saxlamaları mümkün olmadığı şəraitdə, çox tədrici şəkildə, həm də zəruri tələbat əsasında əmələ gəlmişdir. Lap qədim zamanlardan – yazının mövcud olmadığı bir dövrdə insanlar öz fikirlərini uzaq məsafəyə çatdırmaq üçün çox müxtəlif əşya və digər şeylərdən istifadə etmişlər. Yazının meydana gəlməsi tarixi ilə məşğul olanların bir qrupu, insanların öz fikirlərini əşya vasitəsilə əks etdirmələrini "əşya yazısı" adlandırmışdır. Yazı xətlərdən, cizgilərdən ibarət olduğuna görə, fikrin şərti mənalı əşyalarla ifadə olunmasını, sözün əsl mənasında yazı adlandırmaq, əlbəttə, düzgün deyildir. Lakin qeyd etmək lazımdır ki, fikrin şərti mənalı əşyalarla ifadə olunması1 yazının formalaşmasına böyük təsir göstərmişdir.

Yazının inkişafı cəmiyyətin inkişafı ilə əlaqədardır. yazının dörd əsas tipi vardır:

1. Piktoqrafik, yaxud şəkli yazı;

2. İdeoqratik, yaxud fikri yazı;

3. Sillaboqrafik, yaxud heca yazısı;

4. Fonoqrafik, yaxud səs yazısı.

Yazının bu tiplərinin hər biri bu və ya başqa xüsusiyyətlərinə görə bir-birindən əsaslı surətdə fərqlənir.

1**. ŞƏKLİ (PİKTOQRAFİK) YAZI VƏ ONUN XÜSUSİYYƏTLƏRİ.** Bu və ya digər məlumatın, yaxud hadisənin şəkillər vasitəsilə ifadə edildiyi yazıya piktoqrafik, yaxud şəkli yazı deyilir. Piktoqrafik2 yazıdakı hər bir ünsür piktoqram adlanır. Piktoqrafik yazıda hər şəkil (piktoqram) bir və ya bir neçə cümləni əks etdirir. Belə yazıda nitq sözlərə bölünmür, bütöv cümlələrlə ifadə olunur. Piktoqrafik yazılarla ifadə edilən mövzuların əhatə dairəsi bir o qədər geniş olmamışdır. Əsasən ov səhnələri, vuruş və qaçış hadisələri, ticarət müqavilələri və s. mövzular bu yazılarda öz əksini tapmışdır. Şəkli yazıdan Şimali Amerika hindiləri daha çox istifadə etmişlər. Yazının bu növünə başqa xalqların, məsələn, qədim şumer və misirlilərin tarixində də təsadüf olunur. Təsadüfi deyil ki, eramızdan üç min il əvvəl şumerlər heca yazışma keçdikdə yüksək dərəcədə inkişaf etmiş olan şəkli yazıdan istifadə etmişlər. Qədim misirlilərin də yazısı eyni inkişaf yolu keçmişdir. Bu yazının özünəməxsus bir sıra xüsusiyyətləri vardır.

1. Şəkli yazıda müvafiq şəkillərlə bu və ya digər əşya, yaxud hərəkət göstərilir və onlar haqqında məlumat verilir. Bu məlumat eyni zamanda əyani xarakter daşıyır.

2. Şəkli yazı sintetik xarakterlidir. Belə ki, müəyyən bir şəkil vahid mürəkkəb quruluşa malik olub, bütöv bir mövzunu əks etdirir.

3. Belə yazılarda dil formaları əks olunmur, yəni burada məlumat söz və ifadələrlə göstərilmir.

4. Şəkli yazıda hər bir piktoqram, adətən, bütöv cümlələrə uyğun gəlir.

5. Bu yazıda piktoqramlar aydın və sadə xarakterlidir.

6. Şəkli yazı qədim insanların məişəti ilə çox əlaqədar olduğundan hamı tərəfindən aydın oxunurdu.

7. Şəkli yazı vasitəsilə ən incə və geniş fikirləri ifadə etmək mümkün deyildir.

8. Piktoqrafık yazı təlim-təhsil məqsədi daşımırdı. Buna görə də bu yazı vasitəsilə ancaq uzun zaman yadda qalması vacib olan hadisə və s. əks etdirilirdi.

Bu yazının özünəməxsus xüsusiyyətlərindən biri də onun hər dildə oxuna bilməsi olmuşdur. Belə ki, şəkli yazını müxtəlif dillərdə danışan hər xalq öz dilində oxuya bilirdi.

2. FİKRİ (İDEOQRAFİK) YAZI VƏ ONUN XÜSUSİYYƏTLƏRİ. Nitqdəki sözlərin şəkillər vasitəsilə deyil, ideoqramlarla əks olunmasına ideoqrafik, yaxud fikri yazı deyilir. İdeoqrafik1 yazıdakı hər bir ünsür ideoqram adlanır. Heroqliflər və digər işarələr ideoqramlara daxildir. İdeoqrafik yazı elə yazı sistemidir ki, burada hər bir işarə bütöv bir sözü, yaxud sözün mənalı hissəsini bildirir. Ona görə də bu yazı sistemi eyni zamanda söz yazısı da adlanır. İdeoqrafik yazı ilə şəkli yazı sistemi arasında möhkəm əlaqə olmuşdur. Bu əlaqə hətta şəkli yazının ideoqrafik yazı üçün bünövrə təşkil etməsində mühüm rol oynamışdır. Ona görə ki, ilk ideoqramlar zahirən, bir növ, piktoqramlara oxşayırdı. Bunu nəzərə alaraq yazının tarixi ilə məşğul olan tədqiqatçılar ideoqramı piktoqramdan fərqləndirmək üçün onun formasına deyil, məzmununa fikir verməyi məsləhət görmüşlər. Piktoqramla ideoqramı bir-birindən seçmək üçün başlıca olaraq piktoqramların bütöv hadisəni, ideoqramların isə ayrı-ayrı sözləri ifadə etməsi əsas götürülür.

Ən qədim ideoqrafik yazılardan biri Misir yazısıdır. Bu yazı bizim eradan əvvəl Afrika qitəsində yaşamış bir sıra xalqlar arasında geniş yayılmışdır. Qədim Misir yazısının inkişaf dövründə 3 yazı forması meydana çıxmışdır: heroqlif yazı, heratik yazı, demotik yazı. Bu yazılar istər formasına, istər mahiyyətinə, istərsə də istifadə olunma yerinə görə bir-birindən fərqlənirdi.

Heroqlif yazı – Misir yazısının ilk formasıdır. Bu heroqlif yazıdakı heroqliflərin müəyyən hissəsi bitki, əşya, quş və heyvan şəkillərindən, digər qismi isə simvolik işarələrdən ibarət olmuşdur. Heroqlif yazıdan təntənə məqsədilə istifadə edilirdi.

Heratik yazı – heroqliflərin qismən təkmilləşmiş, sxematik şəkil xarakterindən uzaqlaşmış formasıdır. Həmin yazıda dolaşıq xətlər get-gedə çoxalmış və nəticədə ondan istifadəni xeyli ağırlaşdırmışdır. Heratik yazıdan, əsasən, elmi məsələləri əks etdirmək üçün istifadə olunmuşdur. Misirlilər bu yazını dəri və sair yumşaq materiallar üzərində yazmışlar. Həmin dövrdə yazı alətləri qismən təkmilləşmişdi.

Demotik yazı – Misir yazısının yüksək inkişaf etmiş formasıdır. “Demotik” xəlqi deməkdir. Bu yazının xətləri asan və sadədir. Demotik yazı geniş ictimai mahiyyət

kəsb etmişdir. Bundan ictimai həyatda, o cümlədən dəftərxanalarda geniş istifadə olunmuşdur. Bu yazı tacirlərin, sənətkarların və digər şəxslərin də işini yüngülləşdirməyə az kömək etməmişdir.

Misirlilərin yazı inkişafının sürətlənməsində papirusdan yazı ləvazimatı kimi istifadə etmələri böyük bir hadisə oldu. Yazı üçün papirus əsasən iki cəhətdən əhəmiyyətli idi: birincisi, papirusa tez yazmaq olurdu; ikincisi, bu, yazının kütlə arasında geniş yayılmasına imkan yaradırdı. Yazı tarixində Misir yazısı çox böyük əhəmiyyətə malikdir. Bu yazı bir sıra başqa yazıların, o cümlədən minoy yazısının inkişafına böyük təsir göstərmişdir.

3. HECA (SİLLABOQRAFİK) YAZISI VƏ ONUN XÜSUSİYYƏTLƏRİ Hecaları şərti işarələrlə göstərən yazıya sillaboqrafik1 , yaxud heca yazısı deyilir. Bu yazı sisteminin tələbinə görə dildə nə qədər heca (səs birləşmələri) varsa, bir o qədər də işarə – sillaboqram olmalıdır. Heca yazının ünsürlərinin formalaşdığı ən qədim yazılardan biri də şumerlərin yazısıdır. Qədim heca eramızdan qabaq üçüncü minilliyin əvvəlində şumer yazısında əmələ gəlmişdirŞumer yazısı zahiri əlamətlərinə görə başqa yazılardan fərqlənirdi. Bu yazının işarələri mismara-mıxa bənzəyirdi. Elə buna görə də həmin yazının işarələrinin forması nəzərə alınaraq ərəbcə "mismari", fars dilində "mixi" yazı adlandırılmışdır. Azərbaycan dilində də həmin yazı "mixi yazısı" adlandırılır.

4. SƏS (FONOQRAFİK) YAZISI VƏ ONUN XÜSUSİYYƏTLƏRİ Şərti işarələrlə dilin səslərini əks etdirən yazıya fonoqrafik, yaxud səs yazısı deyilir. Yazının başqa tiplərindən fərqli olaraq, fonoqrafik1 yazıda dilin bu və ya digər səsi, əsasən, ayrı-ayrı qrafemlərlə, yəni hərflərlə (qrafik işarələrlə) yanaşı, digər işarələrdən, yəni orfoqrafik işarələrdən (apostrof, hərəkə və sair işarələrdən) də istifadə edilir. Hərfli yazılar xarakterlərinə görə iki yerə bölünür: konsonant yazı və vokallaşdırılmış yazı. Bəzi yazılarda ancaq samit səslər hərflərlə göstərilirdi. Bu cür yazılar konsonant adlanır. Digər qrup yazılarda isə sözlərdəki həm sait, həm də samitlər hərflə əks olunur. Belə yazılar tam fonoqrafik – vokallaşdırılmış yazıdır. Hərfli yazı əlifbanın inkişafı tarixində ən yüksək pillədir. Bu yazı həm yazmaq, həm də oxumaq üçün sadə, asan və çox əlverişlidir. Bunun vasitəsilə insan düşüncəsinin bütün incəliklərini ifadə etmək olur ki, o, özündən əvvəlki yazı tiplərindən əsaslı surətdə fərqlənir.

Müasir fonoqrafik yazılarda istifadə olunan vasitələrdən biri də durğu işarələridir. Bunlar yazıda xüsusi qrup təşkil edərək köməkçi xarakterə malikdir. Belə ki, hərfsiz bunların vasitəsilə heç bir səsi əks etdirmək mümkün deyildir. Durğu

işarələri nitqin sintaktik bölünməsinə, cümlələrin sərhədini müəyyən etməyə, intonasiya və məna çalarlarını əks etdirməyə kömək məqsədilə işlənilir. Durğu işarələri, əsasən, fonoqrafik yazıdan başlanır. Yazıda əlifba yarandıqdan sonra durğu işarələri əmələ gəlmişdir. İlk dəfə Finikiyada, Yunanıstanda bu vasitədən istifadə olunmuşdur. Durğu işarələrinin birinci nümayəndəsi nöqtədir. Bu işarə hazırkı vəzifəsinə qədər bir çox məqamlarda müxtəlif məqsədlər üçün işlənilmişdir. XII əsrdən nöqtə indiki vəzifədə işlənilməyə başlanmışdır. Dünya xalqlarının uzaq keçmişindən xəbər verən qədim yazılı abidələri və müasir nümunələri əsasında yazıları istiqamətə görə iki qrupa bölmək olar: üfüqi yazılar, şaquli yazılar.

Yazının inkişafına təsir edən vasitələrdən biri də yazı ləvazimatıdır. Yazı tarixində ən yararlı vasitə kağız olmuşdur. Kağız ilk dəfə bizim eranın II əsrində Çində meydana çıxmışdır. Kağızı Tzay Lui kəşf etmişdir. Çinlilərin istehsal etdikləri kağız bitkidən hazırlanırdı. VIII əsrin sonunda Bağdad və Dəməşqdə kağız istehsal olunmuşdur. IX əsrin ortalarında Misirdə və başqa yerlərdə də kağız meydana çıxmışdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

13. Abdullayev Ə. Azərbaycan dili məsələləri, Bakı, 1992

14. Babayev A. Dilçilyə giriş. B. Maarif, 2004

15. Qurbanov A. Ümumi diçilik I cild (2 cilddə), Bakı, Nurlan, 2004

16.Məmmədov N., Axundov A. Dilçilyə giriş. B. Maarif, 1980

Mövzu-8

Leksikologiya.

Plan:

1. *Söz və məfhum.*
2. *Dilin lüğət tərkibi və onun dəyişmə yolları.*
3. *Ədəbi dil və dialektlərin leksikası.*
4. *Lüğət tərkibinin inkişaf yolları.*
5. *Dilin daxili vəsaiti hesabına yaranan yolları.*
6. *Alınma sözlər.*

Təfəkkür əşya və hadisələrin mahiyyətinin, onlar arasındakı əlaqə və asılılıqların insan şüurunda ümumiləşmiş və vasitəli inikasından ibarət olan idrak prosesidir.

Əsas əlamətləri: a) ümumiləşdirmə b)mücərrədləşdirmə c)ardıcıl və müntəzəm əks olunma

Təfəkkürün başlıca vahidləri bunlardır: *anlayış, mühakimə, əqli nəticə*

Anlayış (məfhum) – Əşya və hadisələrin ümumi və mühüm əlamətlərinin inkisaından ibarət olan təfəkkür forması anlayış adlanır. Təfəkkür vahidi olan hər bir anlayışın dildə başlıca forması söz və söz birləşmələridir.

Mühakimə (hökm)- maddi varlıqların əlaqə, xüsusiyyət və münasibətlərini əks etdirən təfəkkür vahididir. Düşüncənin məhsulu olan mühakimənin dildə ifadə forması cümlədir.

Əqli nəticə - məntiqi formalarla alınan elmi nəticələr əqli nəticə adlanır. Əqli nəticənin vasitəsi ilə bir və ya bir neçə mühakimədən yeni mühakimə alınır. Əqli nəticənin dildə ifadə forması cümlədir.

Söz və məfhum. Dil və təfəkkür probleminin konkret məsələlərindən olan söz və məfhum dilçilik elmi üçün böyük əhəmiyyətə malikdir. Söz ilə məfhum (anlayış) arasında çox möhkəm və qırılmaz əlaqə vardır. Belə ki, söz fikrin maddi cilddir. Hər hansı bir söz bu və ya başqa bir məfhumun adını ifadə edir. Söz anlayışın yaranması və mövcud olmasının zəruri şərti və vasitəsidir. Obyektiv gerçəkliyin insan beynində inikası o zaman məfhuma çevrilir, daha doğrusu o zaman anlayış olur ki, o sözlə ifadə olunur. Əşya və hadisələri adlandırmaq üçün istifadə olunan söz iki xüsusiyyətə-bir tətərfdən səslənmə və digər tərəfdən məna xüsusiyyətinə malikdir. Dil və təfəkkür sahəsində olduğu kimi, burada da söz və məfhum eyni bir şeyin müxtəlif tərəfləridir. Lakin söz və məfhumun vəhdəti onların heç də eyniliyi demək deyil. Söz və məfhum arasında bir sıra fərqlər vardır. Onlardan aşağıdakıları qeyd etmək olar:

1. Məfhumlar ümumbəşəri səciyyə daşıdıqları halda, sözlər milli səciyyəli olur. Məs: ev məfhumu bütün xalqlar üçün eyni olduğu halda, müxtəlif dillər üçün müxtəlifdir. (ərəb dilində baytun, hind dilində qhar və s).
2. Məfhumlar eyni olduğu halda, sözlər müxtəlif olur, başqa sözlə, dilin semantik sistemində sinonimlik var.
3. Məfhumlar müxtəlif olduğu halda, öz səslənməsinə görə sözlər eyni olur: başqa sözlə, dilin sematik sistemində omonimlik var.
4. Söz dilə, məfhum isə təfəkkürə aid olan anlayışdır.
5. Sözlə dilçilik elmi, məfhumla məntiq məşğul olur.
6. Söz ikitərəflidir. Yəni hər bir söz səs (səs kompleksi) və mənadan ibarətdir. Lakin anlayış ancaq məzmuna malikdir.

Dilin lüğət tərkibi və onun dəyişmə yolları.Dildə olan bütün sözlər həmin dilin lüğət tərkibini təşkil edir. Dilin lüğət tərkibinə daxil olan sözlər son dərəcə rəngarəndir. Çünki elmin müxtəlif sahələrini əhatə edən sözlərin hamısı dilin lüğət tərkibinə daxil olur. Dil insanın hər cür iş fəaliyyəti ilə əlaqədar olduğu üçün onun lüğət tərkibi daima dəyişir. Belə ki, ictimai faktorların təsiri ilə bir qrup söz dilin lüğət tərkibini tərk edir. Eyni zamanda insanın əmək fəaliyyəti ilə birlikdə yeni məfhum və anlayışlar əmələ gəlir, bunlar da söz və ifadələr vasitəsilə dildə təsbit olunub möhkəmlənir. Buna görə də dilin lüğət tərkibinin dəyişməsindən bəhs edərkən aşağıdakıları nəzərə almaq lazımdır: a) müəyyən miqdarda söz və ifadələr köhnələrək dildən çıxır b) yeni sözlər yaranır

Arxaizmlər. Müxtəlif tarixi, iqtisadi səsbəblər nəticəsində bəzi söz və ifadələr dildə istifadə olunmur. Belə dil vahidləri köhnəlmiş və ya arxaik vahidlər adlanır. Arxaik söz və ifadələrə tarixi-bədii əsərlərdə və tarixə aid yazılmış əsərlərdə rast gəlmək olur.

Dildə köhnəlmiş sözlərin köhnəlmə dərəcəsi eyni olmur. Belə ki. bəzi sözlər az, bəzi sözlər isə çox köhnəlir. Bu nöqteyi-nəzərdən köhnəlmiş sözləri iki qismə bölmək olar: a) ancaq müasir ədəbi dil üçün könəlmiş sözlər. Bu qrup sözlər vaxtı ilə ədəbi dildə də olub, hazırda ümumxalq Azərbaycan dilinin yalnız dialekt və şivələrində işlənir.

Can mey andırdı əhl tövbəyə təkrar gül

(M. Füzuli)

Bu misaldakı andırmaq sözü yada salmaq, xatırlamaq mənasında dilimizin bir sıra dialekt və şivələrində işlənməkdədir.

b) Ümumidil üçün köhnəlmiş sözlər. Bu qrup sözlər vaxtı ilə dildə işlənib, indi isə ədəbi dildə və danışıq dilində istifadə olunmayan sözlərdir. Belə sözlərə, əsasən, qədom abidələrin dilində təsadüf olunur.

məsələn:

Oğlun sağdır, əsəndir avdadır

(Kitabi Dədə Qorqud)

Bu misaldakı əsən sözü X-XI əsrlərdə salamat mənasında işlənmiş, indi isə demək olar ki. tamamilə köhnəlmişdir.

Köhnəlmiş sözlər iki yerə bölünür: tarixizmlər, arxaizmlər

Tarixizmlər müəyyən bir əşya, keyfiyyət və ya hadisənin həyatdan çıxması ilə əlaqədar olaraq vaxtı ilə onları ifadə etmiş sözlərə deyilir. Məsələn: yüzbaşı, xış, kəndxuda və s.

Sözün ifadə etdiyi anlayışla bağlı olan əşya və hadisənin qalması, lakin ya sözün özünün, ya da onun ancaq mənasının köhnəlməsinə arxaizmlər deyilir. Arxaizmlərin iki növü vardır: leksik arxaizmlər, semantik arxaizmlər

Əşya və ya hadisənin adını başqa söz əvəz edirsə, passiv fonda keçmiş əvvəlki söz leksik arxaizm adlanır. Məsələn, saç əvəzinə işlənmiş oaln muy sözləri leksik arxaizmlərdir, əsrük (sərxoş), yey (yaxşı) və s. Söz öz köhnə mənasını itirərək, yeni məna ifadə etdikdə, onun köhnə mənası semantik arxaizm adlanır: ayaq – köhnə mənada (badə) , kişi (adam) və s.

Dildə təzəcə yaranan, yaxud da dilə yenicə daxil olan sözlərə neologizm deyilir. Neologizm hadisəsi arxaizmin tam əksini təşkil edir. Dilin lüğət tərkibinə müxtəlif dövrlərdən başlayaraq daxil olan yeni sözlər həmişə neologizm olaraq qalmır. Bunlar zaman keçdikcə işlənmə məqamından, nə vaxt meydana çıxmasından, anlaşılma dərəcəsindən asılı olaraq get-gedə dəyişilir. Neologizmlər bir müddətdən sonra ümumişlək sözlər sırasına keçə bilir. Yeni sözlər iki yolla düzəlir:

1) Dilimizin öz söz ehtiyatı əsasında: açıqca (otkrıtka), öndər (lider), çağdaş (müasir), toplum (cəmiyyət) və s.

2) Başqa dillərdən alınma yolla: investisiya, distribüter, eksklüziv, spiker, mer,sayt və s.

Ədəbi dil və dialektklərin leksikası. Ümumxalq dilinin cilalanmış, müəyyən normalara salınmış qoluna ədəbi dil deyilir, Ədəbi dil ictimai müəssisə və idarələrdə, nəşriyyat və mətbuatda, kino və teatrlarda, maarif və mədəniyyət ocaqlarında və s. istifadə olunan dildir.

Hər bir ədəbi dil həm şifahi, həm də yazılı formalara, eyni zamanda zəngin üslubi rəngarəngliyə malik olur. Ədəbi dilin hamı üçün aydın və ümumi olması onun əsas əlamətlərini təşkil edir. Ədəbi dil mədəni və tarixi hadisədir. Bu dil cəmiyyətin mədəni tələbatı nəticəsində və müəyyən zərurət nəticəsində şifahi yolla yaranır. Ədəbi dilimiz formalşmağa başladığı dövrdən ümumxalq dilinin mövcud vasitə və materiallarına əsaslanmış, onların müəyyən hissəsini seçib qəbul etmişdir. Bu zaman ümumxalq dilinin ancaq bir sahəsi deyil, onun bütün quruluşu, yəni səs sistemi, lüğət tərkibi və

qrammatik quruluşu nəzərə alınmış və seçmə əmliyyatı aparılmışdır. Ədəbi dilin formalaşmasında ümumxalq dili dialektlərinin də xüsusi rolu olmuşdur. Belə ki, bu və ya digər ədəbi dil ümumxalq dilinin müəyyən dialekti əsasında yaranıb inkişaf edir. Ədəbi dil ilə dialekt və şivələr bir-birilə daima qarşılıqlı əlaqədə inkişaf edir və qarşılıqlı surətdə bir- birini zənginləşdirir. Şübhəsiz ki, ədəbi dilin lüğət tərkibi yerli dialektlərin lüğət tərkibindən çox zəngindir. Ədəbi dil inasanalrın bütün iş sahələrini əhatə etdiyi üçün onun təsir dairəsi yerli dialekt və şivələrin təsir dairəsindən qat-qat genişdir. Onu da qeyd etmək lazımdır ki, hər bir dialektizmi ədəbi dilə gətirmək olmaz. Ədəbi dil özünəməxsus daxili qaydalara və ədəbi normalara malikdir. Ümumi normalar olmadan ədəbi dil də ola bilməz. Ədəbi normalar fikrin aydın, dəqiq ifadə olunmasına, hamı tərəfindən eyni formada anlaşılmasına, düzgün və vahid nitq yarat mağa kömək edir. Ədəbi dilin normaları dilin bütün sahələrinə aid olur. Ədəbi dilin normaları daimi deyildir. Müasir dövrün tələblərini ödəyə bilməyən normalar sıradan çıxır. Yeni tələblər əsasında yaranan zəruri normalr isə dilə daxil olur.

Lüğət tərkibinin inkişaf yolları. Dilin lüğət tərkibinin zənginləşdirilməsinin mənbələrindən bəhs edərkən, onun daxili imkanlarını və başqa dillərdən gələn sözləri nəzərə almaq lazımdır.

Dilin daxili vəsaiti hesabına yaranan sözlər. Dilin lüğət tərkibinin zənginləşməsinin birinci və əsas mənbəyini dilin daxili vəsaiti təşkil edir. Bu mənbədən danışarkən: a) leksik yolla, b) morfoloji yolla c) sintaktik yolla d) kalka (yamsılama) yollu ilə yaranan sözlər nəzərə alınmalıdır.

1. <u>Leksik yolla yaranan sözlər.</u> Ümumxalq danışıq dili və onun müxtəlif sözdüzəltmə vəsaiti (sözdüzəldici şəkliçiləri və sözlərin birləşməsi) istər dilin tarixi inkişafı prosesində və istərsə də müasir dildə yeni sözlərin yaranmasında əsas olmuşdur: Çünki ümumxalq danışıq dili ədəbi dilin inkişafı üçün başlıca və tükənməz mənbədir. Ümumxalq danışıq dilindən qidalanmayan və onun hesabına zənginləşməyən hər hnsı ədəbi dil nəticədə məhv ola bilər.

Cəmiyyət inkişaf eidr; bu inkişaf özü ilə yeni məfhumlar da yaradır, bunları ifadə etmək üçün sözlər lazımdır. Belə sözlərin yaranmasında müxtəlif mənbə və üsullar da vardır. Bunlar birinci növbədə xalqın öz dilindən götürürlməlidir. Əgər xalqın öz dili hesabına bu sözləri yaratmaq mümkün deyilsə, onda başqa dillərdən, həm də əsasən məfhum hansı dildə yaranmışsa o dildən həmin anlayışı ifadə edən sözü alıb dilə gətirmək lazımdır. Dilin söz ehtiyatından istifadə etməklə yeni hadisə, anlayışları ifadə etmək üçün başlıca yol dildə tarixən mövcud olan sözdüzəltmə

formalarına əsaslanıb, dilin tarixi inkişaf qanunlarına uyğun surətdə yeni sözlər yaratmaqdır. Söz yaradıcılığında süniliyə yol vermək olmaz.

Dildə onun öz materialı zəmində yaranan və lüğət tərkibinin zənginləşməsinə səbəb olan sözdüzəltmə qaydaları dilin daxili inkişaf qanunları ilə bağlıdır.

2. Morfoloji yolla yaranan sözlər. Dünya dillərində sözdüzəldici şəkilçilər: ön, orta və son olmaq üzrə üç yerə bölünür. Azərbaycan dilinin özünəməxsus sözdüzəldici şəkilçiləri isə yalnız son şəkilçilərdən ibarətdir. Məlumdur ki. dünya dilləri bir-biri ilə əlaqədə inkişaf etmiş və etməkdədir. Həmin əlaqələr nəticəsində bu dillər qarşılıqlı surətdə bir-birinin lüğət tərkibini zənginləşdirdiyi kimi, bu və ya başqa qrammatik formalar da bir dildən başqa bir dilə keçə bilər. belə formalar bir dildən başqasına keçərkən ilk əvvəl, əlbəttə, ayrılıqda deyil, sözlərlə birlikdə keçir. Sonralar isə keçdiyi dilin daxilində yavaş-yavaş o dilin şəkilçiləri sırasına daxil olur. Azərbaycan dili də özünün müxtəlif tarixi inkişaf dövrlərində bəzi dillərlə, birinci növbədə ərəb və fars dilləri ilə yaxınlaşma və uzaqlaşma prosesi keşirmişdir. Bunun nəticəsində ərəb və fars dillərindən Azərbaycan dilinə dilinə bir çox sözlər və onlarla birlikdə bəzi isim, sifət düzəldən şəkilçilər də keçmişdir. Məsələn: ban, na, bi, i, dar, güzar, stan və s. ön və son şəkilçilərinin sözlərə qoşulmsı ilə: bağban, naməlum, hərbi, siyasi, iqtisadi, kütləvi, tələbkar, kargüzar və s. sözlər yaranmışdır.
   Eyni fikri rus dilindən və bu dil basitəsilə keçən söz və şəkilçilər haqqında da demək olar. Məsələn, rus dili vasitəsilə Azərbaycan dilinə sözlərlə birlikdə keçmiş –ist, -izm, -loji, -anti və s. şəkilçilərin sözlərə əlavəsi ilə: maşinist, marksizim, bioloji, antifaşist və s. sözlər əmələ gəlmişdir. Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsində sözdüzəldiçi şəkilçilərin rolu çox böyükdür. Çünki dilimizdə bu şəkilçilər vasitəsilə bir sözdən bir çox yeni sözlər əmələ gətirmək olur. Sözdüzəldici şəkilçilər bu və ya digər nitq hissəsinin axırına artırıla bilər. Bu şəkilçilər qoşulduğu sözlərə təsir edərək, bir nitq hissəsindən başqa bir nitq hissəsi də əmələ gətirir. Məsələn: əkmək-əkin; bilmək-bilik və s. Qeyd etmək lazımdır ki, Azərbaycan dilinə məxsus olan sözdüzəldici şəkilçilər həm bu dilin öz sözlərinə, həm də alınma sözlərə qoşulub, onaların mənasına da təsir edə bilir. Bu şəkilçilər alınma sözlərə qoşularaq onalrdan yeni mənalı sözlər əmələ gətirir. Halbuki, başqa dillərin şəkilçilərinin əksəriyyəti Azərbaycan dilinin sözlərinə qoşulmur və onlar yeni mənalı sözlər də düzəldə bilmir.
3. Sintaktik yolla yaranan sözlər. Dilin lüğət tərkibinin zənginləşməsində sözlərin yanaşdırılması və birləşdirilməsinin də rolu az deyildir. Bu üsulla yaradılan

sözlər müxtəlif mənşədən ola bilər, yəni iki əsil Azərbaycan sözü, bir ərəb və fars sözü, bir rus sözü və s. ilə yanaşdırıla və birləşdirilə bilər.

Sözlərin qovuşma və birləşməsinin də müxtəlif növləri vardır:

a) Iki sadə sözün birləşməsi ilə düzələnlər: özfəaliyyət, itigöz və s.
b) Birinci tərəfi heç bir şəkli əlamət qəbul etməyən, lakin ikinci tərəfi nisbət şəkilçisi qəbul edərək düzələnlər: xalqlararası, dünyagörüşü və s.
c) Birinci tərəfi nisbət şəkilçisi qəbul etmiş sözlə adlıq halda olan sözün birləşməsi ilə əmələ gələnlər: gözüaçıq, özünüidarə və s.
d) İki bir-birinə zidd olan sadə və ya düzəltmə sözün birləşməsindən əmələ gələnlər: dost-düşmən, ölüm-dirim və s.
e) İki bir-birinə yaxınmənalı olan sadə və ya düzəltmə sözün birləşməsindən əmələ gələnlər: adlı-sanlı, əzab-əziyyət və s.

4. Kalka (yamsılama) yolu ilə yaradılan sözlər. Bu üsulla əmələ gələn sözlər dilimizin öz daxili materialı əsasında yaradılır. Kalka yolu ilə yeni sözlərin yardılmasında həm sözlərimizdən, həm də dilimizin sözdüzəldici şəkilçilərindən geniş surətdə istifadə olunur. Kalka yolu ilə yaradılan yeni söz və terminlər hərfən tərcümə vasitəsilə dilə gətirilir. Bu proses zamanı tərcümə olunan söz həmin dildə (tərcümə edilən dildə) eyni mənanı verən sözlərlə yaxud söz və sözdüzəldici şəkilçilərlə ifadə olunmalıdır. Buna görə də burada tərcümə edilən sözün tam qarşılığı verilməlidir, yoxsa, onu kalka adlandırmaq olmaz. Bu kimi tərcümələr eyni zamanda sərbəst tərcümə adlanır. Məsələn: əmanətçi və zərbəçi sözlərin hər ikisi kalka üsulu ilə (rus dilində вкладчик və ударник sözlərin müqabilində) yaradılmışdır.

Alınma sözlər. Dilin lüğət tərkibinin zənginləşməsinin ikinci mənbəyini başqa dilərdən alınan sözlər təşkil edir. Dünyada yalnız öz milli sözlərində ibarət olan saf bir dil yoxdur. Sözlərin bir dildən başqa bir dilə keçməsi prosesi dünyanın bütün dillərinə xasdır. Başqam dillərdən keçən sözlər keçdiyi dilin daxili inkişaf qanunlarına tabe olaraq işlədilir və bunun nəticəsində də çox zaman həmin sözlərin gəlmə olduğunu müəyyənləşdirmək çətin olur. Azərbaycan dili lüğət tərkibinin bir hissəsini də ərəb və fars dillərindən keçən sözlər təşkil edir. Ərəb və fars dillərindən keçən sözlərin işlədilməsində əsasən aşağıdakı xüsusiyyətlər nəzərə çarpır:

a) Ərəb və fars dillərindən dilimizə keçən sözlərin tarixi çox qədim olmaqla, bunaların çox hissəsi həm ədəbi dilimizdə, həm də ümumxalq danışıq dilində işlənərək, bugünkü dövrə gəlib çıxmışdır.

b) Ərəb və fars dillərindən keçən sözlərin çox hissəsi dilimizin tələffüz xüsusiyyətlərinə uyğun olaraq işlədilir: xəlq-xalq; səlam-salam, rahət-rahat və s.
c) Azərbaycan dilinin sözdüzəldici şəkilçilərini ərəb və fars mənşəli sözlərə əlavə etməklə müxtəlif məzmunlu sözlər əmələ gəlir: təbliğatçı, qüdrətli,tələbkarlıq və s.
d) Ərəb və fars dillərindən keçən bir qrup sözlər öz şəkliçiləri ilə birlikdə dilimizdə işlədilir: evdar, namərd, zəhmətkeş və s.
e) Ərəb və fars sözlərin bir hissəsi klassiklərimizin dilində işlənmiş və ümumxalq danışıq dilinə daxil ola bilməmişdir: belə sözlər müasir ədəbi dilmizdən çıxmış, bunalar ya öz sözlərimiz, ya da beynəlmiləl sözlərlə əvəz olunmuşdur.
f) Ərəb və fars dillərindən dilimizə keçmiş sözlərin bir hissəsi öz mənasını dəyişmişdir: hiyləgər mənasında işlənən dahi sözü Azərbaycan dilində dahi adam mənasında; ittiham edən (prokuror) mənasında işlənən müttəhim sözü Azərbaycan dilində günahkar mənasında işlənir.

Azərbaycan dili lüğət tərkibinin zənginləşməsinin müəyyən bir hissəsini də rus dilindən və rus dili vasitəsilə başqa dillərdən gələn sözlər təşkil edir.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

17. Abdullayev Ə. Azərbaycan dili məsələləri, Bakı, 1992

18. Babayev A. Dilçilyə giriş. B. Maarif, 2004

19. Qurbanov A. Ümumi diçilik I cild (2 cilddə), Bakı, Nurlan, 2004

20.Məmmədov N., Axundov A. Dilçilyə giriş. B. Maarif, 1980

Mövzu-9

Semasiologiya

Plan:

- **Çoxmənalı sözlər və onların yaranma yolları.**
- **Omonimlər.**
- **Sinonimlər.**
- **Antonimlər.**
- **Terminlər.**

- **Frazeoloji birləşmələr.**

Semasiolgiya yunan sözü olub (sema- işarə, loqos-elm) məna haqqında elm deməkdir. Burada sözlərin mənası, mənaca müxtəlif söz qrupları və s. kimi mühüm məsələlər tədqiq edilir. Hər hansı bir söz müəyyən varlıqların adını bildirir. Müəyyən bir əşyaya onun bu və ya başqa bir əlamətinə görə ad verilir. Deməli, əşya və hadisələrin adları onlara təsadüfi olaraq verilmir. Həmçinin bir əşyada olan müəyyən bir əlamət ikinci, başqa bir əşyada da ola bilər. Belə olduğu halda, ikinci əşyanın adı birinci əşyanın adı ilə adlan bilər. Bunun nəticəsində də dildə müxtəlif əşyaların oxşar əlamətlərini bildirən eyni səs komplekslərindən ibarət sözlər əmələ gəlir.

Bu və ya başqa bir söz öz ilk mənasını saxlamaqla, başqa məna və ya mənalara keçə bilir ki, bu da onların məna qruplarını əmələ gətirir. Sözlərin məna qruplarını aşağıdakı kimi bölmək olar: çoxmənalı sözlər, omonimlər, sinonimlər, antonimlər və s.

Çoxmənalı sözlər və onların yaranma yolları

Çoxmənalı sözlərin bir mənası əsas yeri tutaraq müstəqil, qalanları isə köçürmə və ya məcazi mənalarda işlədilir. Çoxmənalı sözlər dünyanın bütün dillərində vardır. Azərbaycan dilində baş, açıq, yer və s. kimi sözlər bu qəbildəndir. Sözün çoxmənalılığının əmələ gəlməsi üçün eyni səs tərkibindən ibarət olan sözün müxtəlif mənalarda işlədilə bilməsi əsas şərtdir. Bu da müəyyən bir əşya və ya hadisənin adının başqa bir əşya və hadisəyə keçə bilməsi ilə əmələ gəlir. Çoxmənalı sözlər bu və ya başqa bir əşyanın, hadisənin, prosesin, keyfiyyətin və s. adını ifadə edən məyyən səs tərkiblərinin başqa bir əşyada, hadisədə, prosesdə, keyfiyyətdə olan oxşar əlamət və vəzifənin adını ifadə etməyə keçməsi ilə əmələ gəlir. Sözlərin bir mənadan başqa bir mənaya keçməsinin müxtəlif yolları vardır.

Vəzifə oxşarlığına görə sözlərin keçməsi. Vəzifə oxşarlığına görə sözlərin bir əşyadan başqa bir əşyaya keçməsi ayrı-ayrı əşyaların eyni və ya oxşar vəzifə daşıması nəticəsində əmələ gəlir. Vəzifə oxşarlığına görə adların köçürülməsinə funksional keçmə deyilir.

Vəzifə oxşarlığına görə keçmədə əşyaların forması, rəngi və hərəkətin xarakteri nəzərə alınmayıb, yalnız bir əşyanın gördüyü vəzifənin başqa bir əşyaya keçməsi ilə əmələ gəlir. Məlum olduğu üzrə, ruslar bir vaxt quş lələyi ilə yazarmışlar. Buna da pero deyilirdi. Lakin metal peroların ixtira edilməsi ilə əlaqədar olaraq daha quş lələyi ilə yazmadılar, köhnə pero adı yeni əşyaya keçdi. Halbuki quş lələyi ilə metal pero arasında material cəhətdən heç bir oxşarlıq yoxdur. Lakin bunlar arasında vəzifə birliyi vardır.

Buna görə də bu vəzifə birliyi bir əşyanın adının başqa bir əşya adına keçməsinə səbəb olmuşdur.

Sözlərin bir anlayışdan başqa bir anlayışa keçməsi onların çoxmənalılığını əmələ gətirir. Deməli, çoxmənalılığın vəzifə oxşarlığına görə bir əşyadan başqa bir əşyaya keçməsi hadisəsi heç də təsadüfi deyildir.

Əşyaıarın zaman, məkan, material cəhətdən oxşarlığına, prosesin nəticəsinə görə adların keçməsi. Adların belə keçməsində əşya və hərəkətin xarici və daxili əlamətləri deyil, onalrın yalnız zaman, məkan və material cəhətdən oxşarlığı nəzərə alınır. Burada nəinki əşya, bütövlükdə anlayış dəyişilir. Məsələn, büro sözünü alaq. Bu söz fransızca dəvə yunundan hazırlanmış parça deməkdir. Sonralar həmin parça ilə örtülmüş stolu bildirmiş, sonra həmin stol qoyulmuş evi bildirmişdir. Daha sonra isə büro sözü müəssisə, təşkilatrın bir şöbəsini –maşın büro, layihə bürosu və s. bildirmiş, ən nəhayət, insanların iclas etdiyi yeri, təşkilatın mərkəzini- partiya bürosu və s. bildirir.

Əşyaların rənginə, formasına, hərəkətin xarakterinə görə adların keçməsi. Ayaq (adamda)- ayaq(stolda); göz (adamda)- göz (bulaqda); baş (adamda)- baş (soğanda); soyuq (hava)- soyuq (hərəkət); sürmək (maşın)- sürmək (ömür) və s.

Xüsusi və ümumi adların keçməsi. Dildə olan sözlər ümumi və xüsusi olmaq üzrə iki yerə bölünür ki, bunların arasında da sıx əlaqə vardır. Belə ki, xüsusi və ümumi isimlər arasında daimi bir mübadilə gedir, yəni xüsusi isimlər ümumi isimlərə, ümumi isimlər də xüsusi isimlərə keçir.

Bunun da aşağıdakı xüsusiyyətləri vardır:

a) Yer bildirən xüsusi adların ümumi adların keçməsi. Dildə elə sözlər vardır ki, bu və ya başqa əşyanın adını bildirir və həmin əşyanın hazırlandığı yerin adı (toponomik mənşəli sözlər) adlanır. Məsələn: Kürdəmir (şəhər adı)- Kürdəmir (çaxır adı); Sirab (kənd adı)- Sirab (mineral su adı); Şal (Hindistanda şəhər adı)- şal (yun parçadan hazırlanmış baş örtüyü) və s.
b) İnsan adlarının əşya və hadisələrə keçməsi. Adların belə keçməsi bəzi insan adları (antroponimiya) ilə və bəzən də bu və ya başqa hadisə ilə əlaqədar olur. Məsələn, qalife şalvar adı, hərbi geyim adı, XIX əsrdə yaşamıç fransız generalı Qalifenin adı ilə bağlıdır.
c) Ümumi adların xüsusi adlara - insan adlarına keçməsi. Məsələn: Dəmir (azərbaycanca)- metal növü, Mariya (yəhudi dilində)-acı və s.

Sözlər nə qədər çoxmənalı olsalar da, onların mətn daxilində konkret bir mənası olur. Başqa sözlə desək, mətn daxilində sözün çoxmənalılığı aradan qaldırılır.

Omonimlər.

Omonim sözü yunanca homos (bərabər, oxşar) və onuma (ad deməkdir) sözlərin birləşməsindən əmələ gəlmiş dilçilik termindir. Çoxmənalı sözlərlə omonimlər arasında ciddi fərq vardır. Belə ki, çoxmənalı sözlərdə hər hansı bir söz nə qədər müxtəlif mənalar ifadə etsə də, onlar əsasən, bir məfhum ətrafında toplaşaraq müxtəlif məna qrupları əmələ gətirir. Omonim olan sözlər formaca nə qədər bir- birinə oxşasa da, onların arasında məna yaxınlığı olmur, yəni bir-biri ilə əlaqəsi olmayan mənaları ifdaə edir.

Omonimlər ya sadə söz köklərindən, ya da düzəltmə sözlərdən ibarət olur. Dilimizdə leksik omonimlərdən başqa, təsadüfi omonimləşən- əslində omonim olmayan, müəyyən morfoloji dəyişmələrə məruz qalan və başqa xüsusiyyətlər qazanan leksik vahidlər də mövcuddur. Bu tipli omonimləri omoqraf, omofon və omoform növlərə ayırmaq olar. Eyni şəkildə yazılıb müxtəlif cür tələffüz olunan sözlərə omoqraf deyilir. Məs; alma həm isim mənasında meyvə, həm də almaq felinin əmr formasının inkarını bildirir.

Omoform (və ya morfoloji omonimlər) –sözlərin müxtəlif qrammatik şəkilləri ilə uyğunlaşmasına deyilir. Burada omonimlik qrammatik şəkilçilər hesabına təmin edildiyindən, həmin leksik vahidlər mətndən ayrıldıqda omonim olmaq xüsusiyyətini itirir. Məs: Əzizim kimi gözlər

Tar çalan simi gözlər
Qaşın kimi qaş olmaz
Gözlərin kimi gözlər

Eyni şəkildə tələffüz edilib müxtəlif şəkildə yazılan sözlərə omofon deyilir. Məsələn, Azərbaycan dilində (yassın) fonetik tərkibinin iki mənası vardır: 1) yatsın (uşaq yorulub, yer salın yassın)-assimilyasiya, 2) yazsın (qoy bir ərizə yassın, gətirsin)-assimliyasiya .

Beləliklə, omonimləri çoxmənalı sözlər, omoformlar, omoqraf və omofonlarla müqayisə etdikdən sonar onalra belə tərif vermək olar:

Fonetik və qrafik cəhətdən eyni olub, məzmunca müxtəlif məfhumları bildirən sözlərə omonimlər deyilir.

Sinonimlər.

Dilin lüğət tərkibində bir qrup sözlər də vardır ki, onlar müxtəlif səs tərkiblərindən ibarət olub, ya eyni və ya bir- birinə çox yaxın mənaları ifadə edirlər, bunlara sinonimlər deyilir.

Sinonim sözü (yunanca sinonimon) eyniadlı deməkdir. Sinonimələri əmələ gətirən sözlər bir- biri ilə nə qədər yaxın olsalar da, hər haldan onlar arasında incə məna və üslub fərqləri vardır. Sözlərin sinonim qrupuna daxil olması üçün onların müxtəlif deyil, eyni nitq hissələrinə aid olması əsasdır. Dildə əmələ gələn sinonimləri aşağıdakı qruplara bölmək olar:

1. Sinonim olan sözlərdən biri və ya bir neçəsi sadə və düzəltmə olur: qəhrəman- igid- qoçaq-cəsarətli- ürəkli-qorxmaz və s.

2. Sinonim olan sözlərin biri ədəbi dildən, o biri dialekt və şivələrədən gəlir: uca-hündür (ədəbi dildən)- qəlbi (dialektlərdə); divar-hasar (ədəbi dildə)- barı(dilaekt) və s.

3. Sinonim olan sözlərin biri həmin dilin öz sözü, o biri və ya hər ikisi başqa dillərdən gəlir. Məsələn: yeni (az.)- təzə (farsca); dəli (az.)- axmaq(ərəbcə); insan-adan(hər ikisi ərəbcə), sitayiş (farsca)- səcdə (ərəbcə) və s.

   Sinonimlər özlərinin işlənməs sahələrinə görə iki yerə ayrılır: 1) xalis (leksik) sinonimlər 2) üslubi sinonimlər

   Xalis sinonimlər istər mətn daxilində, istərsə də mətndən xaric eyni bir məfhumu əks etdirə bilir.

   Üslubi sinonimlər isə yalnız mətn daxilində və ya müəyyən təsadüflərdə eyni bir məfhumu ifadə edə bilir. Məs:

   El bilir ki, sən mənimsən
   Yurdum, yuvam, məskənimsəm

   Burada ikinci misradakı yurd, yuva, məskən eyni məfhumu, vətən məfhumunu əks etdirir. Halbuki, mətn xaricində onlar sinonim deyildir.

Antonimlər.

Antonim yunanca anti (zidd) və onoma (ad) sözlərinin birləşməsindən əmələ gəlib, bir-birinə zidd olan söz deməkdir. Antonimlər səs tərkibinə görə müxtəlif olub, bir-birinə zidd, əks mənaları ifadə edən sözlərə deyilir. Dildə antonim təşkil edən sözlər insanların ətraf mühitə qarşı münasibətinə görə bir sıra məna qruplarına ayrılır ki, bunları da aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İnsanın hal-vəziyyət ilə əlaqədar olan antonim sözlər: şadlıq- qəmgin, ağlamaq-gülmək,sağlam-xəstə, tənbəl- çalışqan və s.
2. Təbiət hadisələrini ifadə edən antonim sözlər: isti-soyuq, qaranlıq- işıq, küləkli- sakit və s.
3. Zaman anlayışları ilə əlaqədar olan antonim sözlər: yay-qış, gecə-gündüz, keçmiş-gələcək və s.
4. Məkan anlayışları ilə əlaqədar olan antonim sözlər: şərq –qərb, uzaq-yaxın, irəlidə -geridə, ora-bura və s.

Antonim təşkil edən sözlərin quruluşca növlərinə gəlincə, bunlar həm sadə, həm düzəltmə və həm də mürəkkəb olur.

Sadə sözlərə: axşam-səhər, tez-gec, ağ-qara, almaq- vermək və s. düəltmə sözlərə: düzlük-əyrilik, girinti-çıxıntı, gəliş-gediş və s.; mürəkkəb sözlərə: tez-tez-gec-gec, gülə-gülə- ağlaya-ağlaya və s.

Bədii dildə təzad yaratmaq üçün şair və yazıçılar öz əsərlərində antonim sözlərdən geniş surətdə istifadə edirlər:

Sənlə ağlayan, sənlə gülən
Sənlə yaşayan, sənlə ölən

Ziddiyyətin dərəcəsinə görə antonimlər iki qrupa ayrılır:1) mütləq antonimlər, 2) nisbi antonimlər

Mütləq antonimlər məzmunca bir- biri ilə ziddiyyət təşkil edən sözlərdir: ağ-qara, gecə-gündüz, dərə- dağ

Nisbi antonimlər ziddiyyət əkslik xarakterində olmur: dağ- tarla, ağ-göy və s.

İşlənmə sahəsinə görə də antonimləri iki yerə bölmək olar: 1) xalis antonimlər 2) üslubi antonimlər

Xalis antonimlər həm mətn daxilində, həm mətndən xaric öz antonimliyini mühafizə edir. Başqa sözlə, bunlar özlərinin həqiqi mənalarında işlənərkən antonim olur.

Üslubi antonimlər isə sözlər müəyyən məcazi məna kəsb etdikdən sonra işlənir. Məs: Qırmızılar ağlara qalib gəldilər.

Terminlər

Terminlər də adi sözlər kimi dilin lüğət tərkibinə daxildir. Lakin onlar ümumxalq ədəbi dilində işlədilən adi sözlərdən bəzi xüsusiyyətləri ilə fərqlənir. Əgər dildə işlədilən bu və ya başqa bir sözün mətn daxilində müxtəlif məna variantları olursa, termin adlanan sözün mətndən asılı olmayaraq konkret, müəyyən mənası olur.

Termin- elm, texnika, siyasət və mədəniyyətə aid xüsusiləşmiş mənalı söz və ifadələrdir. Terminlər quruluşuna görə iki cür olur: a) bir sözdən ibarət olanlar; məs: sintaksis, hasil, sitoplazma və s. b) bir neçə sözdən ibarət olanlar; məs: ahəng qanunu, hissələrin qeyri-sabitliyi, vegetativ orqanlar və s.

Üç əlamət əsasdır: 1) təkmənalılıq 2) az komponentlilik 3) sinonimsizlik

İşlənmə dairəsinə görə iki yerə bölünür: a) ümumişlək terminlər; məs: vurma, faiz, toplama və s. b) xüsusi terminlər ; məs: tembr, fonologiya, fotosintez və s.

Terminlərin əmələgəlmə mənbələrinə gəlincə, bunlar müxtəlifdir. Terminlərin yaradılmasının birinci və əsas mənbəyini dilin öz daxili vəsaiti təşkil edir. Elmin müxtəlif sahələrində işlədilən terminlərin çoxu ümumxalq sözlərinə sözdüzəldici şəkilçilərin artırılması ilə əmələ gəlmişdir. Məs: sözçülük, yanaşma, dilönü və s.

Terminlərin yaranmasının ikinci mənbəyini başqa dillərdən gələn sözlər təşkil edir

Frazeoloji birləşmələr

Frazeologiya yunanca phrasis (ifadə, təbir) və loqos (təlim) sözlərinin birləşməsindən əmələ gəlmişdir.

Frazeologiya hər hansı bir dildəki sabit söz birləşmələrini öyrənən dilçilik terminidir. İnsanlar gündəlik həyat təcrübəsində-adi danışıqda çox zaman sərbəst söz birləşmələrindən istifadə edirlər: yaxşı tələbə, beş dəftər, tez getmək və s.

Lakin hər hansı bir dilin lüğət tərkibində külli miqdarda söz birləşmələri vardır ki, onların tərəflərini bir-birindən ayırmaq çətin olur. Belə birləşmələr sərbəst yox, sabit birləşmələrdir ki, bunlar da dilçilik də frazeoloji birləşmələr adlanır. Buna görə də dildə işlədilən sərbəst söz birləşmələrinin vahid lüğəvi mənası olmadığı halda frazeologizmlərin lüğəvi mənası vardır. Sabit söz birləşmələri öz mənasına görə dildə xüsusi bir qrup təşkil edir və həmin qrupa daxil olan sözlər birləşmə daxilində vahid bir məna ifadə edir: ağzına su almaq-susmaq, gözü yol çəkmək (gözləmək) və s.

Frazeoloji birləşmələr də sözlər kimi insanın fəaliyyəti ilə bağlı olan xüsusiyyətləri ifdaə edir.

Frazeoloji birləşmələr sabit birləşmələrdir, başqa sözlə deyilsə, belə birləşmələr də sözlərin sırası dəyişməzdir, buna görə də onlar qrammatik cəhətdən ayrı-ayrılıqda təhlil olunmur. Frazeoloji birləşmələr leksik vahidlərdir, dildə hazır şəkildə olur. Bu birləşmələr möhkəm milli xüsusiyyətə malik olur. Buna görə də frazeoloji vahidlərin

əksəriyyəti başqa dilə eyni ilə tərcümə edilmir. Frazeoloji vahid başqa dilə tərcümə edilərkən onun qarşılığı-ekvivalenti və yaxud uyğun gələni olmadıqda o dildə frazeoloji vahidin mənasını doğru və düzgün əks etdirə bilən söz və ya ifadə axtarılıb tapılır.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

21. Abdullayev Ə. Azərbaycan dili məsələləri, Bakı, 1992

22. Babayev A. Dilçilyə giriş. B. Maarif, 2004

23. Qurbanov A. Ümumi diçilik I cild (2 cilddə), Bakı, Nurlan, 2004

24.Məmmədov N., Axundov A. Dilçilyə giriş. B. Maarif, 1980

Mövzu:10

Dilin Qrammatik quruluşu

Qrammatika termini yunanca gramma sözündən olub, hərf, yazı, savad mənasını verir. Qrammatika uzun müddət dil haqqında bilik, elm kimi başa düşülmüş və dilçilik elmini bütövlükdə əhatə etmişdir. Buna görə də dilçilik sözünün sinonimi olmuşdur. Müasir dövrdə isə qrammatika dilin konstruktiv səviyyəsini öyrənən dilçilik sahəsi olub, söz formalarından, onların dəyişmə və birləşmə qanunlarından, cümlə tərtibi məsələlərindən bəhs edir. Müasir mənada qrammatika dilin qrammatik quruluşu haqqında elm sahəsi kimi başa düşülür. Məlumdur ki, hər hansı bir dilin müstəqilliyinin əsas şərti onun özünəməxsus qrammatik quruluşunun olmasıdır. Əgər bir dil müstəqil qrammatik quruluşa malik deyilsə, onu müstəqil dil də hesab etmək olmaz. Müxtəlif dialektlər məhz mütləq qrammatik həddə yüksəldikdən sonra müstəqilləşir. Bir çox dialektlər mütləq qrammatik həddə yüksələ bilmədiyi üçün ölüb sıradan çıxır. Mütləq qrammatik həddə yüksələ bilən dialekt özünün qrammatik quruluşunu da formalaşdırır. Qrammatik quruluş nədir? Dilin qrammatikası ilə qrammatik qurpluş arasındakı əlaqə nədən ibarətdir? Qrammatik quruluş obyektiv olub, heç bir subyektin təsirinə məruz qalmır. O yalnız dilin ümumi qanunları əsasında inkişaf edir və dəyişir. Qrammatik quruluş sözlərin, söz birləşmələrinin, çümlələrin birləşmə, tərtib edilmə qanunlarının məcmusudur. Sözün quruluş ünsürlərinin, hər bir qramemin, sözlərin birləşmə üsulu, cümlələrin tərtib edilmə qanunları dilin qrammatik quruluşunun məhsuludur. Qrammatik quruluş dilin özü- formalaĢdığı gündən formalaşır. Buna görə də qohum dillərin qrammatik quruluşu eyni olur. Belə ki, aqqlütinativ dillərlə flektiv dillərin qrammatik quruluşu arasında mühüm fərqlər vardır. Dillərin təsnifındəki əsas

prinsiplərdən biri də qrammatik quruluş, qrammatik tipdir. Məs., Azərbaycan dilinin qrammatik quruluşu rus vo başqa Hind-Avropa dillərindon fərqlənir. Belə ki, Azərbaycan dilində prefikslər yoxdur, sıffıkslor inkiaf etmişdir. Azərbaycan dilində olan bütün prefikslər alınma olub, alınına sözlərin də tərkibində işlənir, h, bi, na, anti, a və s. sözönləri dilimiz üçün səciyyəvi deyil. (Buna görə də dildən çıxır). Sintaktik səviyyədə sözlərin birləĢməsi üsulunu götürsək, hər hansı söz birləĢməsi və cümlə üzvlərinin məntiqi vo qrammatik cəhətdən əlaqələnməsi dilin qrammatik quruluşuna əsaslanacaq. Məs., «Bakı şəhər metropolitenindən istifado edilməsi qaydaları» mürəkkəb söz birləĢməsinin müxtəlif sistemli dillərdə qurulmasına nəzər salaq. Azərbaycan dilində: Bakı Ģəhər metropolitqnindən istifado edilməsi qaydaları. Rus dilində: Правила пользования метрополитеном города Баку. Fars dilində: Qovaide-estefadokərdane əz mctropolitenc- şəhri-Baku. Ġngiliscə: The rules of wage of Baku metropoliten. Almanca: Die Regel der Benur zung Bakuer stadt untergrundbohn. Fransızca: Reqe de Utilizasijondü metro döla wel dö Baku. Göründüyü kimi, sözlərin birləşmə daxilindəki yeri bir-birino nəinki uyğun gəlmir, qohum olmayan dillərdə, hətta bir-birinin əksini təşkil edir. Rus və fars dilləri yaxın olduğu halda, Azərbaycan dili ilə tamam əks vəziyyətdədir. İngilis və alman dillərinin qrammatik quruluşu qohum olduğundan sözlərin birləşmə üsulu da eynidir. Deməli, dilin qrammatik quruluşu dil müstəqilləşdiyi gündən formalaşıb əsrlərlə inkişaf edir, öz daxili qanunları əsasında dəyişir. Dilin qrammatik quruluşunda da dəyişiklik və təkmilləşmə gedir. Amma bu, quruluş elementləri olan morfemlərə – qrammatik məna daşıyan kateqorial formalara aiddir.. Məs., Azərbaycan dilinin qrammatik quruluşunda dəyişiklik dedikdə dilin konstruktiv səviyyəsində deyil, kateqoriya-məna səviyyəsində gedən dəyiĢiklik nəzərdə tutulur. Yəni tarixi inkişaf, qrammatik konstruksiyasını deyil, məna ifadə edən formaların dəyişməsi vo təkmilləşməsidir. Qrammatika isə dilin qrammatik quruluşunu öyrənən elmdir. Qrammatika, bəzilərinin düĢündüyü kimi, dilə qanunlar tərtib edib vermir, əksinə oradakı qanun və kateqoriyaları ümumiləşdirib, dilin özünə qaytarır. Qrammatikanın ən başlıca xüsusiyyəti ondan ibarətdir ki, yalnız aid olduğu dilin qrammatik quruluşundan çıxış edir. Bir dilin qrammatikasını başqasının qrammatik quruluşu əsasında yazmaq olmaz. Bir halda ki, qrammatika qrammatik quruluĢa tabedir, onun qanun və kateqoriyalarından çıxıĢ edir, onda qətiyyətlə demək olar ki, birinci obyektiv, ikinci subyektiv təsirə məruz qalandır. Başqa sözlə, qrammatika bir elm sahəsi olaraq alimin mövqeyindən asılıdır. Hər hansı bir dilin qrammatik quruluşu dilçi alimlər tərəfindən düzgün və ya səhv tədqiq edilsin, fərqi yoxdur. O, obyektiv şəkildə inkişaf edir. Məs., vaxtilə Azərbaycan dilçiliyində mübtədanı ikinci dərəcəli üzv qəbul edirdilər. Bundan qrammatik quruluĢ deyil, qrammatika zərər çəkirdi. Çünki

mübtədalar obyektiv olaraq Azərbaycan dilində mövcud idi və yaşayıb inkişaf edirdi. Amma qrammatikada bu məsələ düzgün şərh edilmədiyindən elmi mübtəda anlayıĢı dilçiliyimizdə öz yerini tapa bilmirdi. Başqa bir misal. Vaxtilə feli sifət və ya feli bağlama tərkibləri türkologiyada və Azərbaycan dilçiliyində rus dilçiliyinin təsiri altında budaq cümlə hesab edilirdi. Yenə də dilimizin qrammatik quruluĢunda nə həmin tərkiblər, nə də təyin və zərflik budaq cümləsinə xələl gəlirdi. Təkcə dilçiliyimizdə – qrammatikada yanlışlıqlar baş verirdi. Dediklərimizdən belə bir nəticəyə gəlmək olar ki, bu və ya digər dil ünsürü – qramem qrammatikada ya düzgün, ya da səhv qiymətləndirilməsindən asılı olmayaraq, onlar öz qanunları daxilində inkiĢaf edir. Buradan, hətta belə bir nəticəyə də gəlmək olar ki, dilin qrammatikası, yazılıb yazılmaması həmin dilin qrammatik quruluĢunun inkiĢafına o qədər də təsir etmir. Doğrudur, ədəbi dilin normalarını müəyyənləĢdirən qrammatika qrammatik quruluşda sabitləşmə prosesinə kömək edir. Amma bunu dil inkişafının bütün dövrlərinə aid etmək olmaz. Digər tərəfdən, dilin qrammatik quruluşu inkişaf edib formalaşmasa, onun qrammatikasını da yazmaq olmaz. Qrammatik quruluşu tam formalaşmamış dil üçün tərtib cdilon qrammatikalarda qanun və kateqoriyaları ümumiləşdirmək onlara tərif vermək çox çətin olar. Bundan olavə, belə qrammatikalarda çoxlu istisnalar meydana gələr ki, bıı da qrammatika uçün böyük çatışmazlıqdır. Məs., təsəvvür edək ki, Azərbaycan dili üçün XIV əsrdə qrammatika yazmaq lazım imiş. XIV əsr dilimizin quruluĢuna nəzər salaq; hələ isim halları sabitləşməmişdir. Məkani halların hamısı – yönlük, yerlik və çıxışlıq hallar bircə formada – yerlik hal formasında çıxış edir; felin zamanları forma və məzmunca tam dəqiqləşməmişdir. Gələcək zamanla keçmiş zaman (apararam, görərəm və s.), indiki zamanla gələcək zaman (alır, gəlir və s.) eyni formada çıxıĢ edir. Bu vəziyyətdə uğurlu qrammatika yazmaq mümkün olardınıb Əlbəttə, yox! Dilçilik ədəbiyyatında qrammatik universallar vo universal qrammatika terminlərinə çox rast gəlirik. Bunlaı müxtəlif anlayışlardır. Universal qrammatika – ümumi. PorRoyal qrammatikasının adıdır. Qrammatik universal isə müxtəlif dillərdəki ümumi cəhotlor və onların qrammatik ifadəsidir. Müxtəlif dillərin qrammatik qunıluĢundakı universal çohətlər, qrammatikalarda oxşar şəkildə izah edilə bilər. Amma bu, yenə də qrammatikların bir-birini təqlid etməsi üçün əsas vermir. Qrammatika yalnız aid olduğu dilin quruluĢundan çıxıĢ etməlidir. **QRAMMATİKANIN NÖVLƏRİ.** Dilin qrammatik quruluĢuna müxtəlif mövqelərdən yanaĢmaq müxtəlif cür qrammatikaların yaranmasını Şərtləndirir. Qrammatik quruluĢa yanaĢma mövqeyi, əlbəttə, ümumi inkiĢafın nəticəsidir. Dilçiliyin ilkin inkiĢaf mərhələsindo diaxronik, müqayisəli və s. qrammatikalardan danıĢmaq belə olmazdı. Dilçiliyin müasir inkiĢafı səviyyəsində

qrammatikaların aĢağıdakı növlərini göstərmək olar: Assosiativ, xarici, daxili, ümumi, deskriptiv, tarixi, izahe- dici, təsviri, sintaqmatik, sinxron, qarĢılaĢdırma-tutuĢdurma, müqayisəli, müqayisəli-tarixi, , formal, nəzəri, normativ, tipoloji, məntiqi vo s. Bu qrammatika növləri haqqında geniş bəhs etməyo lüzum yoxdur. Amma dünya dilçiliyində qrammatikanın on geniş yayılmış növlərini iki qrupa belmək olar.

1. Klassik növlor.

2. Müasir növlər.

Bu növlərin özünün də müxtəlif növləri vardır. Bu haqda aşağıdakı sxem daha yaxşı təsəvvür yaradır.

Filoloji qrammatika dünya dilçiliyinin ilkin qrammatikasıdır. Panininin yazdığı «Vcda və sanskrit dillorinin qramma- tikast», Appalon Diskol və frakiyalı Dionisinin yaratdığı «Yunan dilinin qrammatikası» ilk filoloji qrammatikalardır. Bıınlara ona görə filoloji deyilir ki, yalnız yazısı olan dillori tədqiq edir. Rasional qrammatika isə ümumi olduğu üçün belə adlanır. 1660-cı ildə Fransanın Por-Royal monastırında Lanslo vo Arno tərəfindən yazılmıĢdır. Ümumi adlanmasının səbəbi mənfiqlo müqayisə vo bütün dünya dillərinə guya yaraması idi. Həmin əsərin müəllifləri belə hesab edirdi ki, bütün dünya xalqlarının təfəkkürünü bir məntiq əhatə etdiyi kimi, dillərini də bir qrammatika əhatə edir. Qrammatikanın müasir növləri aĢağıdakılardır: a) Təsviri qrammatika. Qrammatikanın bu müasir növü (sinxron qrammatika) bu və ya digər dilin qrammatik quruluĢunu müasir inkişaf səviyyəsində öyrənir. Təsviri qrammatikanın da iki növü vardır: 1. Elementar-normativ. 2. Nəzəri. Elementar qrammatika normativ məktəb qrammatikası da adlanır. Elementar qrammatika ilə nəzəri qrammatika arasında metodoloji cəhətdən fərq yoxdur. Amma tədqiqatın eksten- sivliyi (dərinliyi) vo intensivliyi (geniĢliyi) cəhətdən onlar fərqlənir. Elementar qrammatikalar obyektin məntiqə əsaslanaraq keyfiyyətcə, nəzəri qrammatikalar isə linqvistik qanunlara əsaslanaraq kəmiyyətcə tədqiq edir. b) Tarixi qrammatika. Adından gerüdüyü kimi, qrammatikanın bu növü dilin qrammatik quruluşunu tarixi inkişaf aspektində öyrənir. Bu növ qrammatikalar da öz növbəsində iki qrupa bölünür: 1. Tarixi morfologiya. 2. Tarixi sintaksis.

Tarixi morfologiya dilin qrammatik morfoloji kateqoriyalarının keçirdiyi inkiĢaf və təkamül prosesini izləyir. Bundan əlavə, qrammatik məna daĢıyan köməkçi nitq hissələrinin tarixini öyrənir. Tarixi sintaksis isə bəzən ədəbi dil tarixi də adlandırılır, dilin söz birləĢməsi və cümlə quruluĢu konstruksiyalarının keçirdiyi tarixi təkamül prosesini öyrənir. v) Müqayisəli qrammatika. Müqayisənin məqsəd və effektinə görə

bu qrammatika iki qismə ayrılır: 1. Müqayisəli. 2. Tutuşdurma-qarşılaşdırma. Müqayisəli qrammatika yalnız eyni sistemli dillərin qrammatik quruluÇunu müqayisə edə bilər. Bu qrammatika öz qarÇısında elmi məqsəd qoyur. TutuÇdurma qrammatika isə qohum olan və olmayan dillər arasındakı qrammatik qanun və kateqoriyaları qarÇılaÇdırır. Bu qrammatikanın qarÇısında əməli moqsəd qoyulur. Məs., ingilis və Azərbaycan dili qrammatik quruluÇunu yalnız tutuÇdurmaq – qarşılaşdırmaq olar ki, bu da tədris-təlim prosesi üçün lazımdır.

QRAMMATİKANIN HƏSSƏLƏRİ. Qrammatika dilin konstruktiv yarusunu birtərəfli deyil, müxtəlif cəhətlərdən Öyrənir. Dil vahidlərinin formal quruluÇunu öyrənərkən onun semaıtik – geniÇ mənada məntiqi cahətinə, baÇqa bir mövqedən öyrəndikdə isə dil vahidlərinin xəyali, məntiqi, semantik cəhəti əsas götürülüb, Çəkil tərəfinə az fikir verilir. Qrammatikanın bu iki (morfologiya va sintaksis) sahəsini bir-birindan təcrid etmək olmaz. Aralarındakı mahiyyət fərqləri onları başqa-başqa keyfiyyət kimi qəbul etməyə əsas vermir. Onlar bir-biri ilə vəhdətdə olub, dilin qrammatik quruluşunu özünəməxsus aspektdə öyrənir. Qrammatikanın ənənəvi birinci hissəsi morfologiya, ikinci hissəsi isə sintaksis adlanır.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

25. Abdullayev Ə. Azərbaycan dili məsələləri, Bakı, 1992

26. Babayev A. Dilçilyə giriş. B. Maarif, 2004

27. Qurbanov A. Ümumi diçilik I cild (2 cilddə), Bakı, Nurlan, 2004

28.Məmmədov N., Axundov A. Dilçilyə giriş. B. Maarif, 1980

Mövzu:11

Sintaksis

SİNTAKSİS ŞÖBƏSİ. Dilçilikdə dilin sintaktik sistemindən bəhs edən şöbə sintaksis adlanır. Sintaksis termini yunan mənşəli syntaxis sözündən olub "tərtib edilmə" mənasını bildirir. Dilçilik ədəbiyyatında sintaksis termini həm dilin sintaksis sistemi, həm də bu sistem haqqında təlim mənasında işlənilir. Bu terminin belə ikimənalılığı elm üçün müsbət hal deyil. Sintaksisin obyekti həm söz birləşmələri, həm də cümlələrdir. Sintaksis bu vahidlərdən hər birinin əlamət və xüsusiyyətlərini, dildəki mövqe və rolunu aydınlaşdırır. Demək, sintaksis dildəki söz birləşmələri və cümlələr haqqında linqvistik təlimdir. Dilçilikdə sintaktik tədqiqatın tarixi çox qədim dövr lərlə

bağlıdır. Sintaksis anlayışı dil haqqında elmə hələ eramızdan əvvəl qədim hind alimləri tərəfindən daxil edilmişdir. Hind dilçiləri ilə yanaşı, klassik yunan, Roma və ərəb dilçiləri də dilin sintaktik sistemindən (cümlə məsələlərindən) bəhs etmişlər. Lakin qədim dövrdə və istərsə də orta əsrlərdə sintaksis xüsusi tədqiqat obyekti olmamış, bu şöbənin mövzusu başqa dil məsələlərinə qarışdırılmışdır. Buna görə də həmin dilçilik ənənələrində sintaksis məsələləri çox az tədqiq edilmişdir. Sintaksis məsələləri XVIII əsrdə rus alimlərini çox maraqlandırmışdır. M.V.Lomonosov 1755-ci ildə yazdığı "Rusiya qrammatikası" adlı əsərində sintaksis məsələlərinə geniş yer vermişdir. M.V.Lomonosovun dilçilik baxışları, eləcə də sintaksis, söz birləşmələri sahəsindəki fikirləri ondan sonra bir sıra dilçilər tərəfindən inkişaf etdirilmişdir. Alimin söz birləşməsi haqqındakı fikirləri xüsusilə qrammatika dərsliklərinə güclü təsir göstərmişdir". Sintaksis problemləri XIX əsrdə geniş şəkildə tədqiqat obyektinə çevrilmişdir. "Bu dövrdə sintaksisin əhatə dairəsi və mövzusu tam mənada dəqiq müəyyənləşdirilməsə də, bu sahədə çox mühüm işlər görülmüşdür". Əsrin ilk illərindən başlayaraq sintaksis məsələləri diqqət mərkəzində olmuş, söz birləşmələri, cümlə müxtəlif cəhətdən tədqiq edilmişdir. Rus dilçilərindən A.Vostokovun, N.Qreçin, F.Fortunatovun, A.Şaxmatovun, A.Peşkovskinin və başqalarının əsərlərində sintaksisə dair bir sıra fərqli fikirlər irəli sürülmüşdür. XIX əsrdə türk dillərinin sintaksisini tədqiq etməyə də müəyyən maraq göstərilmişdir. Görkəmli Azərbaycan alimi M.A.Kazımbəy öz əsərlərində dilimizin sintaktik sisteminin şərhinə xüsusi yer vermişdir. Doğrudur, M.A.Kazımbəyin yaradıcılığında bu məsə lələr lazımi şəkildə işlənilməmişdir. Lakin Azərbaycan di li sintaksisinin təhlili sahəsində onun ideyaları ilk addım kimi çox əhəmiyyətli olmuşdur. XX əsr dilçiliyində sintaksisə dair problemlər dərindən və ətraflı tədqiq olunmuş, bu sahədə əsaslı nəzəriyyə yaradılmışdır. Dilçilikdə sintaksisə dair külli miqdarda tədqiqatlar aparılmasına baxmayaraq, yenə də bəzi məsələlər tam həll olunmamışdır. Məsələn, sintaksislə əlaqədar qarşıya belə bir sual qoyulsa ki, "Cümlə nədir?" – bu suala çox müxtəlif cavablar verildiyinə rast gələrik.

1. SÖZ VƏ SÖZ BİRLƏŞMƏSİ. Söz birləşməsi cümlənin tərkibinə daxil olan intaktik vahiddir. İstər söz birləşməsi və istərsə də cümlənin tərkibində sözlərdən, onların formalarından istifadə olunur. Lakin bununla belə, heç vaxt söz birləşməsi və cümləni eyni anlayış hesab etmək olmaz. Çünki "...onlar müxtəlif, həm də bir-birinə münasibətdə müstəqil dil vahidləri olub, hərəsinin özünəməxsus xüsusiyyətləri, fəaliyyət dairəsi və rolu vardır". Məlumdur ki, sözlərin sintaktik birləşməsi sözlərarası müəyyən leksik-semantik münasibət fonunda mövcud olur. Ayrı-ayrı sözlər bir-birilə, hər şeydən əvvəl, mənaya görə birləşir. Söz birləşməsində sözlər arasında əlaqələnmənin bir sıra vasitələri vardır. Əlaqələnmənin başlıca vasitələri söz sırası,

sözdəyişdirici formalar, köməkçi sözlərdir. Sözlərin sintaktik birləşməsi ilə yanaşı, dildə frazeoloji birləşmələrlə dilçiliyin başqa şöbəsi – frazeologiya məşğul olur. Məlum həqiqətdir ki, müəyyən bir əşyanın, hadisənin adı sözlə ifadə edildiyi kimi, bəzən söz birləşməsi ilə də onu ifadə etmək mümkündür. Məsələn, "adam" sözünü "şüurlu varlıq" söz birləşməsi müəyyən mənada əvəz edə bilir, yaxud "dilçi" – dilçilik elmi ilə məşğul olan alim, "ədəbiyyatşünas" – ədəbiyyatşünaslıq elmi ilə məşğul olan alim və s. demək mümkündür. Lakin əşya və hadisələri adlandırmaqda sözün söz birləşməsindən daha əlverişli olması da elmə məlumdur. Çünki söz müəyyən bir obyekti qısa, konkret, dəqiq, aydın şəkildə adlandırırsa, söz birləşməsi həmin funksiyanı təsvirçilik yolu ilə yerinə yetirərək nitqi müəyyənləşdirir. Bununla bərabər, demək lazımdır ki, söz birləşməsi ilə əşya və ya hadisələrin adlandırılmasında daha çox məna tutumu olur. Bundan əlavə, söz birləşməsi vasitəsilə əşya və hadisələrin mahiyyəti ifadə edilərkən müxtəlif modellərdən istifadə olunur. Məsələn, "yazıçı" əvəzinə "qələm ustası", "söz ustası", "söz sənətinin ustadı", "söz sənətkarı" və s. birləşmələrdən istifadə olunur. Göründüyü kimi, müəyyən məfhum və anlayışların ifadə olunmasında söz birləşmələri daha geniş imkanlara malikdir. Söz – söz birləşməsinin, söz birləşməsi isə cümlənin daxili nüvəsidir. Söz birləşməsində bu nüvədən biri digərindən asılı vəziyyətdə olur. Məsələn, "yaşıl" və "yarpaq", "maraqlı" və "söhbət", "igid" və "qəhrəman" sözlərinin hər biri ayrı-ayrılıqda müxtəlif məfhum və anlayışı bildirir. Söz birləşməsi daxilində isə onlar bir məfhumu ifadə etməyə xidmət göstərir: yaşıl yarpaq, maraqlı söhbət, igid qəhrəman. Burada birinci tərəf (yaşıl, maraqlı, igid) ikinci tərəfin əlamət və keyfiyyətini bildirir. Dünya dillərinin əksəriyyətində söz birləşməsi bu sintaktik model əsasında əmələ gəlir. Bütün bunlarla bərabər, hər bir dildə söz birləşmələrinin spesifik xüsusiyyətləri vardır.

2. SÖZ BİRLƏŞMƏSİNİN TİPLƏRİ. Tədqiqatçıların əksəriyyəti söz birləşməsinə qrammatik cəhətdən qeyri-bərabər hüquqlu sözlərin birləşməsindən əmələ gələn bütöv mənalı sintaktik vahid kimi yanaşır. Buna görə də tərkibindəki baş sözün, aparıcı sözün xarakterinə görə söz birləşməsinin əsas iki tipi müəyyənləşdirilir: a) ismi birləşmələr; b) feili birləşmələr. İsmi birləşmələrdə baş söz isimdən ibarət olur. Məsələn, göy çəmən, uca bina, beş kitab, o adam, belə hadisə, sərin su, baharın ətri, nazir müavini və s. (Azərbaycan dilində), высокие горы, друг Пушкина, близкий к городу, ход конем və s. (rus dilində). İsmi birləşmələr Azərbaycan dilçiliyində təyini söz birləşmələri adı altında da öyrənilir. İsmi birləşmələr termini isə rus dili və başqa dillərə dair dilçilik əsərlərində öz əksini tapmışdır. Həmin əsərlərdə doğru olaraq söz birləşmələri birləşmədə aparıcı rola malik olan nitq hissəsinin adı ilə adlanır. Azərbaycan dilində ismi söz birləşmələrinin üç növü müəyyən olunmuşdur: a) I növ ismi birləşmə. Bu sintaktik modeldə tərəflər müstəqil cümlə üzvü yerində işlənir. Məsələn, yaşıl işıq, sakit

hava, qaranlıq gecə, şiddətli yağış və s. Bu nümunələrdə ismi söz birləşməsinin I tərəfi, bir qayda olaraq, təyin rolunda, II tərəfi isə müxtəlif cümlə üzvü kimi çıxış edir. I növ ismi birləşmələrin I tərəfi müxtəlif nitq hissəsi ilə, II tərəfi isə isim və ya isimləşmiş nitq hissəsi ilə ifadə olunur. Məsələn, daş ev, dəmir qapı, qızıl pul, polad magistral və s. (I tərəfi isim), ağıllı uşaq, müdrik qoca, uca dağ, sıx meşə, qüvvətli adam və s. (I tərəfi sifət), doqquzuncu mərtəbə, altı il, səkkiz ay, XXIX qurultay və s. (I tərəfi say), bu adam, həmin məsələ, belə vəziyyət, belə hərəkət və s. (I tərəfi əvəzlik), oxumuş qız, içməli su, görüləsi iş, oxunacaq məruzə, axar su və s. (I tərəfi feili sifət). b) II növ ismi birləşmə. Bu sintaktik modeldə tərəflər ayrı-ayrılıqda müstəqil cümlə üzvü deyil, birlikdə bir cümlə üzvü vəzifəsini daşıyırlar. Məsələn: Görürəm dan yeri yenə sökülür, Göydən yer üzünə nurlar tökülür. (S.Vurğun) Bu şeir parçasında "dan yeri" və "yer üzünə" sintaktik vahidləri II növ söz birləşməsi əsasında formalaşmışdır. İkinci növ ismi birləşmənin başlıca əlaməti ondan ibarətdir ki, birinci tərəf formal cəhətdən şəkilçisiz olur, lakin mahiyyətcə qeyri-müəyyən yiyəlik halda işlənir. İkinci tərəfi isə III şəxs mənsubiyyət şəkilçisini qəbul etmiş olur. Məsələn, məktəb binası, dəniz kənarı, Qız qalası, alma ağacı, göz həkimi, Bakı şəhəri, ticarət şöbəsi və s. Azərbaycan dilində belə bir cəhət diqqəti cəlb edir ki, II növ ismi birləşmənin I tərəfinə yiyəlik hal şəkilçisini çox zaman bərpa etmək mümkündür, bəzi hallarda isə bu, mümkün deyildir. Çünki yiyəlik hal şəkilçisini belə vəziyyətdə bərpa etdikdə birləşmənin mənası tamamilə pozulur. Məsələn, "Qız qalası"nı "Qızın qalası", "oğlan uşağı"nı "oğlanın uşağı", "Xəzər" kinoteatrı"nı "Xəzərin kinoteatrı" yə s. şəkildə demək mümkün deyildir. Azərbaycan dilində II növ ismi birləşmələrdə tərəflərin arasına heç bir söz daxil ola bilmir. Məsələn, "gözəl bir gün" I növ ismi birləşməsində olduğu kimi, "uşaq bir bağçası" demək mümkün deyildir. II növ ismi birləşmənin tərəfləri də müxtəlif nitq hissələri ilə ifadə olunur. c) III növ ismi birləşmə. Bu sintaktik modelin başlıca əlaməti ondan ibarətdir ki, tərəflərin hər ikisi morfoloji əlamət qəbul edir, yəni I yiyəlik hal, II müxtəlif tipli mənsubiyyət şəkilçiləri qəbul edir. Məsələn: qəhrəmanın arzusu, mənim kitabım, sənin qəlbin, onun ümidi, bizim söhbətimiz, sizin həyatınız, onların cəbhəsi və s. III növ kimi ismi birləşmədə diqqəti cəlb edən cəhətlərdən biri də budur ki, bu birləşmənin tərəfləri arasına istənilən qədər söz və söz birləşməsi daxil ola bilir. Məsələn, zavodun direktoru – zavodun bu il zavod fəhlələri tərəfindən seçilmiş direktoru, qəzetin nömrəsi – qəzetin müqəddəs, ümumxalq Qurban bayramına həsr olunmuş xüsusi nömrəsi və s. Tərəflərinin arasına nə qədər söz daxil olunursa-olunsun, III növ ismi birləşmə bütöv bir sintaktik vahid kimi cümlənin təkcə bir üzvü yerində çıxış edir. Məsələn, Qarabağın burada da payız çölləri, quba-qazlı qulları, gölləri, ördəkləri, bəzəkli düzləri zəngin süfrə kimi hardan-hara açılmışdı (B.Bayramov). Bu

cümlədə III növ ismi birləşmənin komponenti “Qarabağın”, II aparıcı komponenti isə “düzləri”dir. Göründüyü kimi, burada II komponent ilə həmcins olan “çölləri”, “suları”, “gölləri”, “ördəkləri” sözlərindən başqa söz birləşməsinin daxilinə başqa bir neçə dil vahidi də daxil olmuşdur. Bunlar hamısı bütövlükdə III növ söz birləşməsi təşkil edib cümlədə mübtəda yerində işlənmişdir. Feili birləşmələrdə baş söz, əsasən, feildən ibarət olur. Məsələn, məktəbə daxil olmaq, həyətə qaçmaq, məqalə yazmaq, idmanla məşğul olmaq, ətrafa baxmaq, nəfəsi gül qoxuyan və s. (Azərbaycan dilində). Feili birləşmələr feili sifət, feili bağlama və məsdər tərkiblərinin, habelə xəbərlə ifadə olunmuş feilin müxtəlif nitq hissələrini özünə tabe etməsi əsasında yaranır. 1. Feili sifət tərkibi əsasında əmələ gələn feili birləşmə. “Siz dünyagörmüş adamsınız, bəy, – deyə, Bərdənin pristavı buxaq basmış boğazını arıtlayıb, mətləb üstünə gəldi’’ (B.Bayramov). “Dastanını yazdığımız bu şəhərin baş küçəsi dəniz kimi coşub qaynar’’ (S.Vurğun). Bu bədii parçalarda işlənən feili sifət tərkibləri eyni zamanda feili birləşmələr kimi mürəkkəb təyin vəzifəsində işlənmişdir 2. Feili bağlama tərkibi əsasında əmələ gələn feili birləşmə. “Evdən çıxıb yola düşəndə şiddətli xəzri əsirdi” (M.Sü leymanov). “Bahadır hələ üzünü yumamış ev yiyəsi qoca arvad Bahadırı çay içməyə çağırdı”. Bu cümlələrdə “düşəndə” və “yumamış” feili bağlamaları əsasında düzələn feili bağlama tərkibləri və feili birləşmə əmələ gətirmiş zaman zərfliyi vəzifəsində işlənmişdir. 3. Məsdər tərkibləri əsasında əmələ gələn feili birləşmə. “Qədir kişi çubuğunu külqabıya döyməyə başladı”. Burada məsdər tərkibi (çubuğunu külqabıya döyməyə) əsasında əmələ gələn feili birləşmə tamamlıq vəzifəsində çıxış etmişdir. **3. CÜMLƏ SİNTAKTİK VAHİD KİMİ**. Sintaksisin əsasını cümlə nəzəriyyəsi təşkil edir. Cümlə başlıca sintaktik vahiddir. O, müəyyən məna və struktur əlamətlərə görə xarakterizə olunur. Cümlənin məna əlaməti onun baş üzvləri arasındakı münasibətlə müəyyənləşir. Belə ki, baş üzvlər arasındakı predikativ münasibət cümlənin məna cəhətini göstərir. Cümlənin struktural əlaməti dedikdə, müxtəlif cümlə tiplərinin quruluş xüsusiyyətləri təsəvvür edilir. Buna görə də cümlənin struktural əlaməti aydınlaşdırılarkən sadə və mürəkkəb cümlələrin növləri, bunlara aid cəhətlər tədqiq və s. Söz və söz birləşməsinə nisbətən cümlə daha böyük dil vahididir. Eyni zamanda, cümlə dildə ünsiyyət vasitəsi rolunu yerinə yetirən kiçik kommunikativ vahiddir. İnsanlar arasında danışıq, fikir ünsiyyətini söz və söz birləşməsindən daha çox cümlə yerinə yetirir. Buna görə də dilçilikdə cümlənin kommunikativ vəzifəsi barədə daha çox söhbət açılır Cümləni başqa dil vahidlərindən birinci növbədə onun kommunikativ vəzifəsi fərqləndirir. Bununla yanaşı, cümlə dildə nominativ vəzifəyə də malikdir. Söz və söz birləşmələrindən fərqli olaraq, cümlə gerçəkliyin ayrı-ayrı əşya və hadisələrini deyil, bütövlükdə onları əhatə edən hadisə və şəraiti ifadə və təsvir edir. Cümlə vasitəsilə

həmin hadisə və şərait eyni deyil, olduqca müxtəlif formada ifadə olunur. Cümlədə əşya və hadisələr bir-birilə müqayisə olunur, onlar haqqında məlumat verilir, bir əşyanın başqasına münasibəti bildirilir, bir əşyanın başqasına təsiri ifadə olunur və s. Beləliklə, cümlə təbiət və cəmiyyətdə baş verən intəhasız və olduqca mürəkkəb prosesləri güzgü kimi nitqdə canlandırmaq qüdrətinə malikdir. Cümlədə predikativlik və intonasiya ən vacib keyfiyyətlərdəndir. Bunlarsız cümlə mövcud ola bilməz.

4. CÜMLƏNİN NÖVLƏRİ. Cümlə özünün quruluşuna, ifadə tərzinə, intonasiyasına və sair keyfiyyətlərinə görə dildə müxtəlif tipdə özünü göstərir. Quruluşuna görə cümlənin sadə və mürəkkəb tipləri mövcuddur. Sadə cümlələrdə ancaq bitmiş bir fikir ifadə olunur. Məsələn, "Faytonçular atların başını yığmışdılar; Əhmədin gözləri hədəqəsinə sığışmadı, faytonla asta "hüznlü", dinməzcə irəliləyirdi" (B.Bayramov). Mürəkkəb cümlələrdə isə iki və daha artıq fikir ifadə olunur. Məsələn: Səhhətində baş verən fənalıq müqabilində Əhməd bəyə elə gəlirdi ki, söhbətlərini axıra çatdırmağa ömür vəfa etməyəcəkdir. Lakin var qüvvəsini səfərbər edib dözürdü, büruzə vermək fikrində deyildi (B.Bayramov). Bu cümlədə isə 4 fikir ifadə edilmişdir. Sadə və mürəkkəb cümlələrin dildə çox zəngin tipləri mövcuddur. Dilçilik ədəbiyyatında çox zaman cümlənin intonasiyaya görə növləri ancaq sadə cümlə materialları əsasında şərh edilir. Əslində, mürəkkəb cümlələr də intonasiya və ifadə məqsədlərinə malik olur. Tədqiqatçıların əsərlərində intonasiyaya görə cümlənin müxtəlif növləri göstərilir1 . Bütün bunları ümumiləşdirəndə cümlənin 4 növünü müəyyənləşdirmək olur: a) nəqli cümlə; b) əmr cümləsi; c) sual cümləsi; ç) nida cümləsi. a) Nəqli cümlələrin əsas mahiyyəti ondan ibarətdir ki, burada hər hansı əşya və hadisə haqqında adi təsviri yolla məlumat verilir. Ayazlı, şaxtalı bir qış axşamı Yeddi yoldaş olub yola düzəldik. (S.Vurğun) İstəyirəm mənim bacım bilsin ki, atamın vəsiyyətini, diləyini unuda bilmərəm... (B.Bayramov) Bu cümlələrin birincisi sadə, ikincisi isə mürəkkəb cümlə tipindədir. Göründüyü kimi, hər iki cümlədə fikir nəql yolu ilə ifadə olunur. b) Əmr cümləsində hər hansı bir işin icrası əmr, xahiş, təkid, məsləhət və s. tərzdə ifadə edilir. Məsələn: – Rica edirəm, adam göndərib Cəmil cənablarını gətirdəsiz... – Həmidə xanım, Cavanşir cənablarına yetirin ki, bizləri qəbul etmək qaydası öz ixtiyarındadır (B.Bayramov). Sual cümləsi sual intonasiyası ilə ifadə olunur. Azərbaycan dilində sual cümlələri, əsasən, sual əvəzlikləri yoxsa, bəs, məgər, mı, mi, mu, mü ədatlarının köməyi vasitəsilə yaranır. Məsələn, – Hanı millət qanı? Hanı dinimizin təəssübü? Harada qalıb Qarabağ bəylərinin qeyrəti? Niyə dayanmısınız? Hanı dini-islam yolunda qanını axıdan?" (B.Bayramov). Sual cümlələrinin bir forması olan ritorik suallardan bədii ədəbiyyatda geniş istifadə olunur. Xüsusilə şeir dilində dialoq və monoloqlarda ritorik suallar obrazlılıq vasitəsi kimi daha çox işlənir: Elbrus, söylə, bilinməzmi yaşın? Göyə

meydan oxuyan qarlı başın Nə bəlalar, nə cəfalar çəkmiş? Kimlərin gözləri hey yol çəkmiş? Tökülən qanların haqqında danış. Ona matəmmidir üstündəki qış? (S.Vurğun) Bu şeir parçasındakı sual cümlələri heç bir cavab almamaq məqsədilə verilməmişdir. Şair öz fikir və düşüncələrini sadəcə olaraq sual cümləsi formasında ifadə etmişdir. ç) Nida cümləsində danışan adam söylədiyi fikri müxtəlif hiss və həyəcanla ifadə edir. Məsələn: – Şarlatan. – Afərin. – Rəhbərə bir bax. Vətəni yadlara bunlar satacaq. (S.Vurğun) Ah, Rafael! Ah, Rafael! Qalx məzardan! Öz fırçanla bu axşamın seyrinə var. (S.Vurğun) Göründüyü kimi, bu cümlələrdə şair öz fikir və duyğularını çox dərin hiss və həyəcanla ifadə etmişdir. Sadə cümlələr qrammatik cəhətdən cüttərkibli və təktərkibli olur. Cüttərkibli sadə cümlələrdə baş üzvlər olan mübtəda və xəbərin hər ikisi iştirak edir. Məsələn: "Mirzə yazdığı iki felyetonu və Faiq əfəndiyə məktubu bir zərfə qoyub yapışqanladı" (B.Bayramov). Bu cümlədə mübtəda (Mirzə) və xəbər (yapışqanladı) iştirak edir. Ümumiyyətlə, cümlə üzvlərinin iştirakına görə cüttərkibli cümlələr iki şəkildə özünü göstərir. Müxtəsər və geniş cümlələr Müxtəsər cümlələrdə ancaq baş üzvlər iştirak edir. Məsələn: "Nümayəndələr baxdılar", "Gün isinmişdi", "Göyün üzü durulmuşdu", "Əhməd bəyin gözləri irildi" (B.Bayramov). Bu cümlələrdə ancaq mübtəda və xəbər iştirak edir. Geniş cümlələrdə isə baş üzvlərdən əlavə ikinci dərəcəli üzvlər də iştirak edir. Məsələn: "Əhməd bəy son vaxtlar gecə-gündüzünü guşənişinliklə keçirirdi; Həmidə xanım kiçicik güllü dəsmalla gözlərinin altını, çənəsini hissedilməz bir zərifliklə silməyə davam elədi" (B.Bayramov). Təktərkibli sadə cümlələrdə baş üzvlərdən biri iştirak etmir. Bu cəhətdən təktərkibli cümlələrin şəxssiz, qeyri-müəyyən şəxsli, ümumi şəxsli, adlıq cümlə tiplərinə rast gəlinir. Məsələn, "Bizi bayıra çağırdılar", "Dənizin dibinə az qalmışdı", "Onu tutub apardılar", "Kür qırağı", "Qara yazı", "Göy çəmən", "Qoşa palıd, tüstülənən od-ocaq" (S.Vurğun). Bu cümlələr təktərkibli cümlənin müxtəlif tiplərini əhatə edir. Mürəkkəb cümlə dildə tabelilik və tabesizlik əsasında yaranır. Ona görə də dilçilik ədəbiyyatında mürəkkəb cümlənin iki növü qeyd edilir. a) tabesiz mürəkkəb cümlələr; b) tabeli mürəkkəb cümlələr. Tabesiz mürəkkəb cümlələrin əsas əlaməti bundan ibarət dir ki, bu sintaktik modelin tərkibinə daxil olan sadə cüm lələr bərabərhüquqludur. Məsələn: "Kəhrizlərin suyu çatmır və biz yazda Qarqar çayından ayrılan arxdan istifadə edirik. Çox yerdə körpü yoxdur, olanları isə bərbad haldadır" (B.Bayramov). Azərbaycan dilində tabeli mürəkkəb cümlələr arasında aşağıdakı məna əlaqələri özünü göstərir: a) zaman əlaqəsi; b) məkan əlaqəsi; c) səbəb-nəticə əlaqəsi; ç) ziddiyyət-qarşılaşdırma əlaqəsi; d) aydınlaşdırma əlaqəsi və s. Tabeli mürəkkəb cümlələrin başlıca əlaməti budur ki, həmin sintaktik modelə daxil olan cümlələrdən biri müstəqil, digəri qeyri-müstəqildir. Dilçilikdə tabeli mürəkkəb cümlə daxilindəki müstəqil cümləyə baş cümlə, qeyri-müstəqil cümləyə isə budaq

cümlə deyilir. Dildə budaq cümlə baş cümləyə müxtəlif cəhətdən tabe olmur və bu zaman cümlə bütövlükdə hər hansı bir cümlə üzvünün sualına cavab verir. Bu cəhətdən budaq cümlənin müxtəlif növlərinə rast gəlinir: 1) mübtəda budaq cümləsi; 2) xəbər budaq cümləsi; 3) tamamlıq budaq cümləsi; 4) təyin budaq cümləsi; 5) zərflik budaq cümləsi. Dilçilikdə baş və budaq cümlələr arasındakı tabelilik əlaqəsinin dərəcəsinə görə analitik, sintetik tipli tabeli mürəkkəb cümlə tipləri göstərilir.

5. CÜMLƏ ÜZVLƏRİ. Bitmiş bir fikri ifadə edən hər hansı bir cümlənin tərkibini araşdıranda məlum olur ki, burada həmin fikrin ayrı-ayrı elementlərini bildirən söz və söz birləşmələri mövcuddur. Bunlardan hər biri müəyyən suala cavab verməklə cümlədə bitmiş bir fikrin ifadə olunmasında əsas rola malik olur. Cümlə tərkibində müstəqil suala cavab verə bilən sözə və ya söz birləşməsinə cümlə üzvü deyilir. Məsələn, "Şahsevən qızları hələ uşaqlığında Araza gedən yolu Həmidəyə öyrətmişdilər" (B.Bayramov). Bu cümlədə müxtəlif suala cavab verən cümlə üzvləri vardır. Kim? (Şahsevən qızları), nə etmişlər? (öyrətmişdilər), nəyi? (yolu), (Araza gedən), nə zaman? (hələ uşaqlıqdan). Cümlədə əsas fikri ifadə edib-etməməsinə görə cümlə üzvləri iki qrupa bölünür: 1) Baş üzvlər: mübtəda, xəbər. 2) İkinci dərəcəli üzvlər: tamamlıq, təyin, zərflik. 1. Mübtəda.Mübtəda cüttərkibli cümlənin baş üzvlərindən biri olmaqla aparıcı rola malikdir. Dilçilik ədəbiyyatında mübtədanın aşağıdakı əlamətləri qeyd edilir: 1) Mübtəda xəbərlə ifadə olunmuş əlamətin daşıyıcısı kimi çıxış edir; 2) mübtəda bu və ya digər hərəkətin icrası kimi çıxış edir; 3) mübtəda ismin adlıq halında olur və heç bir cümlə üzvündən asılı olmur; 4) mütbəda cümlədə ancaq xəbərlə şəxsə və kəmiyyətə görə uzlaşır və s. İfadə vasitələrinə görə mübtədanın müxtəlif növlərinə rast gəlinir: 1. İsimlə ifadə olunan mübtəda: "Çovğun günorta səngimişdi". "Əhəd bəy hiddətləndi". 2. Sifətlə ifadə olunan mübtəda: "Qırmızı qaradan yaxşı görünür". 3. Sayla ifadə olunan mübtəda "Beş üçdən çoxdur". 4. Əvəzliklə ifadə olunan mübtəda: "Mən çox səhv eləmişəm, bala, anlamamışam" (B.Bayramov). 5. Zərflə ifadə olunan mübtəda: "Bura hamının xoşuna gəlirdi". 6. Məsdər tərkibi ilə ifadə olunan mübtəda: "Yaxşı insan olmaq həyatda hər adama nəsib olmur". 7. Feili sifət tərkibi ilə ifadə olunan mübtəda: "Hər oxuyan Molla Pənah olmaz". 8. Söz birləşməsi ilə ifadə olunan mübtəda: "Qəzetin redaktoru müxbirləri öz yanına çağırdı" və s. 2. Xəbər. Cüttərkibli cümlədə xəbər baş üzv hesab olunsa da, o, müəyyən dərəcədə mübtədadan asılı olur. Xəbər mübtəda ilə birlikdə cümlənin əsasını təşkil edir. Cümlədə xəbər mübtədaya aid iş, hal, hərəkət bildirir. Xəbər icranın nə kimi hərəkətə, vəziyyətə, xasiyyətə və keyfiyyətə malik olduğunu göstərir. İfadə vasitələrinə görə xəbərin iki növü vardır: feili xəbərlər, ismi xəbərlər. a) Feili xəbərlər ancaq feillə ifadə olunur. Məsələn: yağış yağırdı, fəhlələr həvəslə işləyirdilər, duman hər tərəfi

bürüdü. Külək get-gedə şiddətlənirdi və s. b) Məsələn: “Yer üzünün əşrəfi insandır,” “İndi növbə bizimdir,” “Parçanın rəngi sarıdır” və s. 3. Tamamlıq. Cümlənin ikinci dərəcəli üzvlərindən biri olan tamamlıq mübtəda ilə xəbər arasında münasibət yaratmağa xidmət edir. Tamamlıq, bir qayda olaraq, xəbər vasitəsilə idarə olunur və buna görə də xəbərə tabe olur. Tamamlıq ismin adlıq və yiyəlik hal suallarından başqa yerdə qalan halların suallarını daşıyır. Hərəkətlə obyektin arasındakı əlaqənin xarakterinə görə tamamlıqların iki növü vardır: a) vasitəsiz tamamlıq; b) vasitəli tamamlıq. Vasitəsiz tamamlıq üzərində hərəkət icra edilən obyekti bildirir. Vasitəsiz tamamlıq ismin təsirlik halında olur, təsirli feillə ifadə edilən xəbərə aiddir. Məsələn: “Fəhlələr maşınla pambıq daşıyırdılar”. Bu cümlədə xəbər (daşıyırdılar) təsirli feillə ifadə olunduğuna görə tamamlığı da (pambıq) ismin qeyri-müəyyən təsirlik halına salmışdır. Vasitəli tamamlıq üzərində hərəkət icra edilən obyekti bildirir. Vasitəli tamamlıq ismin yönlük, yerlik və çıxışlıq hallarında işlənən sözlərlə ifadə olunur. Məsələn: “O, üzünü pəncərəyə tutdu; Artıq Firudinin gözlərində həyatın ağır və əzablı səhnələri canlanırdı. Firudin hər gün iki saat İran ədəbiyyatından və ümumi tarixdən Şəmsiyyəyə dərs deyirdi”. Cümlədə “üçün”, “ötrü”, “ilə” qoşmaları vasitəsilə də vasitəli tamamlıq əmələ gəlir. Məsələn: “Bu, Məşədi bəy üçün gözlənilməz bir hadisə deyildi. O, hərdən gəmi ilə dəniz səyahətinə çıxırdı” (H.Mehdi). 4. Təyin. Cümlənin ikinci dərəcəli üzvlərindən biri olan təyin isimlə ifadə olunmuş üzvün əlamətini bildirir. Buna görə də təyin cümlədə isimlə ifadə olunmuş hər hansı bir cümlə üzvündən asılı vəziyyətdə olur və bir qayda olaraq, onun əvvəlində işlənir. Təyin cümlədə, əsasən, sifətlə, bəzən isə isim, say, əvəzliklə ifadə olunur. Məsələn: “Küçədə yaşıl işıq yandı. Uşaqlar rezin topla oynayırdılar. O, üç qəzetə, iki jurnala abunə yazılmışdı” və s. 5. Zərflik. Cümlədə ikinci dərəcəli üzvlərdən biri olan zərflik xəbərə aid iş, hal, hərəkətin zamanını, yerini, səbəb-məqsədəni, əlamətini, tərzini və s. bildirir. Zərflik bilavasitə xəbərə tabe olur. Mənaca zərfliyin müxtəlif növləri özünü göstərir. Zaman zərfliyi, tərzi-hərəkət zərfliyi, yer zərfliyi, kəmiyyət zərfliyi, səbəb-məqsəd zərfliyi və s. Məsələn: “Poçtalyon gələndə yol gözləyənlərin yığnağı Əhməd bəyin həyətində olurdu” (B.Bayramov). “Quraqlıq keçəndə tez solur gülü, Durur yetim kimi boynu bükülü”. “O, planı birə-beş yerinə yetirərdi” (Ə.Vəliyev) və s. Bu misallardakı “Əhməd bəyin həyətində” yer zərfliyi, “Quraqlıq keçəndə” zaman zərfliyi, “durur yetim kimi” tərzi-hərəkət zərfliyi, “birə-beş” kəmiyyət zərfliyidir. Dil haqqında elmdə ənənəvi bölgüyə əsasən, dilin qrammatik quruluşundan bəhs edən şöbə uzun zaman qrammatika adlandırılmışdır. Morfologiya və sintaksis qrammatikanın yarımşöbələri hesab olunmuşdur. Hətta fonetika, etimologiya qrammatika şöbəsinin tərkibində öyrənilirdi. Lakin sonradan bunların hər biri inkişaf edib zənginləşmiş və nəticədə ayrılaraq

müstəqilləşmişdir. İndi qrammatika dedikdə ancaq morfologiya və sintaksis nəzərdə tutulur.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

29. Abdullayev Ə. Azərbaycan dili məsələləri, Bakı, 1992

30. Babayev A. Dilçilyə giriş. B. Maarif, 2004

31. Qurbanov A. Ümumi diçilik I cild (2 cilddə), Bakı, Nurlan, 2004

32.Məmmədov N., Axundov A. Dilçilyə giriş. B. Maarif, 1980

Mövzu-12

Dilin əmələ gəlməsi

Plan:

1. *Dilin yaranmasına dair müxtəlif nəzəriyyələr.*
2. *Təbiət nəzəriyyəsi.*
3. *Səs təqlidi nəzəriyyəsi.*
4. *Nidalar nəzəriyyəsi.*
5. *Jestlər nəzəriyyəsi.*
6. *Əmək nəzəriyyəsi.*
7. *İctimai razılaşma nəzəriyyəsi.*
8. *Dilin yaranmasında eşitmə və danışıq orqanlarının rolu.*

Dilin yaranmasına dair alimlər ümumi bir nəticəyə gələ bilməmişlər; buna görə də ta qədimdən başlayaraq çox zamanlara qədər çoxlu və müxtəlif nəzəriyyələr meydana çıxmışdır. Bu nəzəriyyələr mahiyyətinə görə iki yerə bölünür: a) fərdi nəzəriyyələr b) ictimai nəzəriyyələr

Fərdi nəzəriyyələrdə dilin yalnız bir cəhəti, yəni onun ekspressivliyi nəzərə alınırdı. Buraya səs təqlidi və nidalar nəzəriyyəsi aiddir.

İctimai nəzəriyyələrdə isə dilin kommunikativliyi nəzərə alınır, dil ünsiyyət vasitəsi kimi şərh olunur, onun yaranma səbəblərininaydınlaşdırılmasına cəhd göstərilir. Dilin yaranmasına dair fərdi nəzəriyyələr daha çox yayılmışdır.

*Səs təqlidi nəzəriyyəsi.*Səs təqlidi nəzəriyyəsi dilin mənşəyinə dair ilk fərdi nəzəriyyələrdən biridir. Bu nəzəriyyə bizim eradan əvvəl V-IV əsrlərdə qədim Yunanstanda yaranmışdır. Elmi ədəbiyyatda səs təqlidi nəzəriyyəsinə "vau-vau nəzəriyyəsi" də deyilir, bunu XIX əsrdə Maks Müller belə adlandırmışdır.

Səs təqlidi nəzəriyyəsinə görə dil ilk insanların guya eşitdikləri səsləri təqlid etməsi əsasında əmələ gəlmişdir. Dilin əmələ gəlməsini insanların təqlid etdikləri səslərlə bağlayan nəzəriyyənin təhlili göstərir ki, burada irəli sürülmüşmüddəalar elmi cəhətdən tam əsaslandırılmadığı üçün bir sıra qüsurlara yol verilmişdir. Həmin qüsurlar aşağıdakılardan ibarətdir.

1. Müasir dilin lüğət tərkibinin etimoloji təhlili müəyyən etmişdir ki, dildə təqlidi sözlər olduqca çox azdır.
2. Bizi əhatə edən maddi varlıqdakı əşya, cisim, hadisə və digər şeylərin əksəriyyəti səs çıxarmağa malik deyildir. Məs: torpaq, ev, günəş və s.
3. Təbiətin elə səsləri var ki, insanın danışıq üzvlərinin çox inkişaf etdiyi müasir dövrdə onları tələffüz etmək olmur. Məs: od yananda alovdan çıxan səsi heç cür tələffüz etmək mümkün deyil.
4. Dilin lüğət tərkibinin müəyyən hissəsini mücərrəd anlayışları bildirən sözlər təşkil edir. Lakin təqlidi sözlərin bunlarla heç bir əlaqəsi yoxdur.
5. Bütün dünya dillərində mövcud olan təqlidi sözlərin fonetik tərkibi eyni deyildir. Canlıların çıxardığı, hadisələrin törətdiyi eyni səs müxtəlif dillərin səs və səs komleksi ilə ifadə olunur. toyuq qaqqıldayır-курица кудахчит, külək vıyıldayır-ветер воет və s.

   Dilin əmələ gəlməsinə dair səs təqlidi nəzəriyysinin ayrı-ayrı əsrlərdə çoxlu tərəfdarları olmuşdur.

   Nidalar nəzəriyyəsi. Dilin əmələ gəlməsinə dair nidalar nəzəriyysi qədim Yunanstanda meydana çıxmışdır. Nidalar nəzəriyyəsi dilçilkdə “fu-fu” kimi də adlandırılır. Bu ad ona son tədqiqatçılar tərəfindən rişxəndlə verilimişdir.

   Nidalar nəzəriyyəsinə görə dil ilk insanların şərait və vəziyyətindən asılı olaraq, ağrı və qorxu, təəccüb və sevinc nəticəsində çıxardıqları qeyri-iradi emosional səslərdən əmələ gəlmişdir. Guya ibtidai insanlar öz hiss və həyəcanlarını, əhval-ruhiyyələrini, müəyyən şey haqqında təsəvvürlərini bildirmək üçün səslər çıxarmışlar, həmin səslərə get-gedə müxtəlif mənalar vermişlər. Eyni zamanda bunlardan yeni-yeni sözlər törənmiş və nəticədə dil yarnmışdır. Lakin nəzəri dilçilik çoxdan sübut etmişdir ki, nidalar dildə əsas söz deyildir. Belə ki, başqa söz təbəqələrinə nisbətən, dildə ay,ax, oho, bəh, vay və sair kimi sözlər, demək olar ki, təqlidi sözlərdən də azdır, miqdarca bu dərəcədə az olan söz heç vaxt dildəki on minlərələ sözlərin mənşəyi üçün bünövrə təçkil edə bilməz.

   Buna görə də nidalar tarixən bu və ta başqa sözləriun yarnmasına əsas verə bilməzdi.

Nidalar nəzəriyyəsi XVIII əsrdə xüsusi olaraq diqqəti cəlb etmişdir. Həmin dövrdə bu nəzəriyyəni daha çox müdafiə edənlərdən Jan Jak Russo idi. O, deyirdi: " Şiddətli arzu ilk səsləri törətdi"

Jestlər nəzəriyyəsi. Jestlər nəzəriyyəsinin mahiyyəri ondan ibarətdir ki, guya ilk dil səsli dil şəklində yaranmamışdır. Ilk insanlar jestlərlə danışmışlar, səsli dil isə son zamanlarda əmələ gəlmiş və jestlər diləinə köməkçi olmuşdur.Bu nəzəriyyəni tərəfdarlarından biri olan alman psixoloqu V. Vundt prinsipcə jest və səsləri eyniləşdirmişdir.

Dilin əmələ gəlməsinə dair bu nəzəriyyə aşağıdakı səbəblərdən məqbul olunmur. Belə ki, jestlərdə söz olmur. Buna görə də jest və ya mimika bu və ya digər əşyanın adı ola bilmir. Jestlər səslə dildən qabaq mövcud olmamışdır. Bunalr təxminən, səsli dilin təşəkkül prosesində və ya ondan sonra meydana çıxaraq bəzi hallarda səsli dili müşayiət etmişdir.

Əmək hıçqırıqlar nəzəriyyəsi. Bu nəzəriyyə XIX əsrdə əmələ gəlmişdir. Bunu həmin əsrin 70-ci illərində Fransız filosofu Lüdviq Nuare irəli sürmüşdür. Lüdviq Nuranenin əmək hıçqırıqlar nəzəriyyəsinə görə dil əmək prosesində inasanaların çıxardığı instiktiv və ya refleksiv hıçqırıqlar əsasında yaranmışdır.Məsələn, odun doğrayan adamın balta vurarkən, yaxid matrosların avar çəkərkən çıxardıqları və sair səslər guya dilin ilk sözləri –felləri olmuş və digər sözlər də bunlardan əmələ gəlmişdir.

Lüdviq Nuare fikrincə, əməklə dil paralel amillərdir. Bunun qeyri-elmi olduğunu aşağıdakı dəlilərdən aydın görmək olur.

a) İş zamanı insanın çıxardığı müxtəlif səslər, hıçqırıqlar dildə xüsusi mənaya malik omayan ritmik sədalardır. Bunlar dilin nə kommunikativ, nə mdə ekspressivlik vəzifəsini ifadə edir.
b) Dil əməyi müşayiət etmək məqsədi ilə deyil, insanlar arasında ünsiyyət üçün əmələ gəlmişdir.
c) Əmək hıçqırıqları çox azdır. Bundan əlavə, həmin hıçqırıqlara heyvanlar da təsadüf olunur. əgər bu hıçqırıqlar dilin əsasını təşkil etsə də, şübhəsiz ki, heyvanlar da danışa bilərdi.

İctimai razılaşma nəzəriyyəsi. İctimai razılaşma nəzəriyyəsi bizim eradan əvvəl V-IV əsrdə Yunanstanda meydana çıxmışdır. Bu nəzəriyyəyə eyni zamanda tesey nəzəruyyəsi də deyilir.

İctimai razılaşma nəzəriyyəsinə görə, dil insanların öz aralarında müəyyən ad haqqında razılığa gəlmələri əsasında yarnmışdır. Belə ki, guya ilk insanlar hələ dil olmadığı bir dövrdə bu və ya başqa hadısəni, yaxud da əşyanı adlandıranda

bir- biri ilə razılaşmışlar. İctimai razılaşma nəzəriyyəsinin tərəfdarları sübut etməyə çalışmışlar ki, madam ki, terminlər yaradılanda razılaşma əsas tutulur, deməli ikl sözlərin yaradılmasında da bu yoldan istifadə edilmişdir. Bütün deyilənlərə diqqətlə yanaşıldıqda aydın olur ki, dilin mənşəyinə dair tesey nəzəriyyəsində doğru fikir söylənilməmişdir. Əgər ilk insanlar bu və ya digər bir şeyə ad verərkən bir-biri ilə razılaşsalar. Mütləq ünsiyyət vasitəsinə müraciət etməli idilər. Məlumdur ki, əsas ünsiyyət vasitəsi dildir. Bəs hələ dil olmadığı halda insanlar razılaşa bilərdilərmi? Əlbəttə yox. deməli, bu fikir əsassız və yanlışdır.

Günəş nəzəriyyəsi. Dilin mənşəyinə dair maraqlı nəzəriyyələrədn biri "Günəş nəzəriyyəsi"dir. Bu nəzəriyyənin tarixi bir o qədər qədim deyildir.

XX əsrin 30-cu illərində Vyana alimi dilin meydana gəlməsinə dair "Günəş nəzəriyyəsi"ni irəli sürmüşdür.

Bu nəzəriyyə görə dilin yaranmasının əsasını sözlər deyil, səslər təşkil etmişdir. Alimin fikrincə, ilk insanlar gördüklərini, hiss etdiklərini ifadə etmək üçün müxtəlif səslər çıxarmışlar və ilkin ünsiyyət prosesi buradan başlamışdır.

İlk insanlar:

-günün çıxmasını "*A", "A", "A"*

-günün batmasını "*O", "O", "O"*

"Günəş nəzəriyyəsi"nə görə ilk insan türk, ilk dil də ulu türk dili olmuşdur.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

33. Abdullayev Ə. Azərbaycan dili məsələləri, Bakı, 1992

34. Babayev A. Dilçilyə giriş. B. Maarif, 2004

35. Qurbanov A. Ümumi diçilik I cild (2 cilddə), Bakı, Nurlan, 2004

36.Məmmədov N., Axundov A. Dilçilyə giriş. B. Maarif, 1980

Mövzu:13

Dillərin inkişafı

1**. DİLİN İNKİŞAF QANUNAUYĞUNLUQLARI**. Müasir dilçiliyin ən başlıca məsələlərindən biri dilin inkişafı problemidir. Dilin dəyişməsinin, onun inkişaf qanunauyğunluqlarının öyrənilməsi, aydınlaşdırılması ilə ayrı-ayrı dövrlərdə bir çox tədqiqatçılar məşğul olmuş və bunun da nəticəsində müxtəlif mülahizələr, görüşlər

meydana çıxmışdır. İndi qəribə görünsə də, keçmişdə bəzən dilin dəyişməyən hadisə olduğu fikrini irəli sürmüşlər. Sonralar bu sahədə dərin elmi əsaslar üzrə aparılan tədqiqatlar bu fikrin tamamilə yanlış olduğunu sübut etdi, çünki dil öz təbiətinə görə tarixən dəyişən, cilalanan, inkişaf edən ictimai hadisədir. Dilin inkişafı nə deməkdir? Dilin inkişafı dilin tərkib hissəsini təşkil edən səslərin, sözlərin, söz birləşmələrinin, şəkilçilərin və qrammatik əlaqələrin, onun müxtəlif komponentlərinə məxsus ünsürlərin müntəzəm olaraq dəyişməsi və zənginləşməsidir. Dilçilik elmində "dilin inkişafı" termini də məhz bu anlayışı ifadə edir. Dilin dəyişməsi və inkişafı onun təbii halı və başlıca keyfiyyətidir. Dildə yenidənyaratma, yenidənqurma meyli güclüdür. Buna görə də dilin inkişafı nəticəsində dil kateqoriyaları kəmiyyət və keyfiyyətcə dəyişir, onun tərkibində tədricən yeniləşmə prosesi baş verir. Dilin inkişafı iki istiqamətdə özünü göstərir: funksional və struktural. Buna görə də dilin inkişafı öyrənilərkən aşağıdakıları fərqləndirmək lazımdır: a) dilin bütövlükdə inkişafı; b) dilin quruluşunun inkişafı; c) dilin üslublar sisteminin inkişafı; ç) dilin fonetik, leksik və qrammatik cəhətdən inkişafı; d) dilin ayrı-ayrı ünsürlərinin (fonem, morfem, söz, məna, qrammatik forma və s.) inkişafı. Dilin göstərilən inkişaf formaları olduqca müxtəlifdir. Elə buna görə də onları eyni əlamətə görə qruplaşdırmaq və ümumiləşdirmək olmur. Belə bir cəhət bütün dillər üçün xarakterikdir. Dilin inkişafı başqa sahələrdə olduğu kimi, materialist dialektikanın qanunlarına uyğundur. Burada hər bir dəyişiklik müəyyən qanunlar, səbəblər əsasında baş verir. Dilin inkişafı hər bir xalqın ümumi inkişafı ilə bağlıdır. Buna görə də dilin hər hansı bir sahəsindəki dəyişiklik, inkişaf yaranmış daxili və ya xarici şəraitlə əlaqəli olur.

2. DİLİN DAXİLİ VƏ XARİCİ FAKTORLAR ƏSASINDA İNKİŞAFI. Dilin inkişafı problemi daxili və xarici faktorların öyrənilməsini tələb edir. Dilin inkişafı üçün bunun hər ikisi vacibdir. Buna görə də faktorların hər birinin əhəmiyyətini dəqiq müəyyənləşdirmək lazımdır. "Dilin inkişafının xarici və daxili faktorlarından ikitərəfli asılılığı haqqındakı tezisdən çıxış edərək, bununla bərabər qeyd etmək istəyirik ki, problemin müasir qoyuluşu bir səbəbin öyrənilməsinin başqasının ziyanı hesabına deyil, onların bu və ya digər konkret əlaqələrinin özünü məhz nədə büruzə verə biləcəyini obyektiv surətdə göstərək."1 Dilin inkişafına dair daxili və xarici faktorların bölgüsü şərtidir. Lakin bunların ayrı-ayrı xarakterizə olunması elmi cəhətdən zəruridir.

1. DAXİLİ FAKTORLARIN ROLU. İnkişaf prosesində öz imkanlarından istifadəetmə hadisəsi daxili faktor hesab olunur. Daxili faktorlar daxili inkişaf qanunlarına əsaslanır. Hər bir dil zəngin daxili ehtiyat vasitələrinə və imkanlarına malikdir. O öz inkişafında bunlara əsaslanaraq fəaliyyətini davam etdirir. Dilin daxili inkişaf prosesində aşağıdakı iki cəhət diqqəti daha çox cəlb edir. a) Dildə yeni

ünsürlərin yaranması. Bu cəhət bütün dillərdə mövcuddur. Hər bir dil sözyaratma imkanına malikdir. Dildə sözyaratmanın müxtəlif yolları vardır. Məsələn, leksik, morfoloji, sintaktik və s. Qədim türk dilində, güman ki, sintaktik yolla sözyaratma çox az inkişaf etmişdir. Müasir Azərbaycan dilində isə əksinə, sintaktik yolla sözyaratma prosesi daha geniş inkişaf etmişdir. Bunu müasir alman dili haqqında da demək olar. Son illərdə ictimai-siyasi həyatda baş verən dəyişikliklər, elm və texnikanın inkişafı və başqa amillərlə bağlı olaraq sintaktik yolla xeyli yeni söz yaranmışdır. Məsələn, sülhsevər, təbiətsevər, özünütənqid, özünümüəyyənləşdirmə, beynəlxalq, insanabənzər, çoxişlənən, uzaqgörən, nəfəsalma, nəfəsvermə, anadangəlmə, iynəyarpaq, həmişəcavan, tozsoran, telekamera, kinoteatr, əlüzyuyan, üçbucaq, şüşəbənd, topaldıqaç, vintburan və s. b) Dildə mövcud olanın dəyişilməsi. Dil inkişaf etdikcə onun tərkibindəki vasitələrin bəzisi dəyişib yeni keyfiyyət kəsb edə bilir. Dillərdə onlarca söz vardır ki, vaxtı ilə başqa məna bildirib, başqa məqsədlər üçün işlənilmişdir. Həmin sözlər indi tamamilə yeni vəzifə daşıyır. Məsələn, vaxtı ilə Azərbaycan dilinin leksikasında ancaq bir mənada (yol yoldaşı) işlənən "yoldaş" sözü hazırda bir sıra yeni məna kəsb etmişdir: 1) yoldaş (müraciət mənasında) – "Yoldaş, vaxtımızı alma, qısa və konkret danış"; 2) yoldaş (rəsmiyyət mənasında) – "Şairlər ordusu səf-səf düzülsün. Yoldaş Mayakovski komandan olsun" (S.Vurğun); 3) həyat yoldaşı ("ər" və ya "arvad" mənasında) – O, həyat yoldaşının ömür-gün yoldaşı kimi sonsuz hörmətini saxlayırdı; 4) yoldaş (həmkar, iş yoldaşı mənasında) – Aygün, daha yığış, yetişdi zaman. Yoldaşlarım kimi, mən də Muğana aqronom gedirəm (S.Vurğun). Dildə mövcud olan söz əsasında yeni mənalı sözlərin əmələ gəlməsi omonim hadisəsinin mənbəyi kimi diqqəti cəlb edir. Dilin daxili inkişafı dilin müxtəlif lay və qatlarında baş verən dəyişikliklərdir. Dilçilikdə bu daxili inkişaf qanunları iki yerə bölünür: ümumi və xüsusi. Ümumi bütün dillərə aid olan qanunlara deyilir. Məsələn, sözyaratma prosesi bütün dillərə aiddir. Dilin ümumi qanunları universallıq təşkil edir. Yəni bütün dünya dillərində olan qanunauyğunluqlar universal hesab olunur. Xüsusi daxili qanunlar isə müəyyən dil və ya dil qrupuna aid olur. Məsələn, ahəng qanunu, əsasən, aqlütinativ dil qrupuna, o cümlədən türk dilləri qrupuna məxsusdur və buradakı dəyişiklik və inkişaf xüsusi xarakterlidir. Başqa şəkildə desək, bu dil hadisəsi dünya dillərinin çoxuna yaddır və əsasən türk, monqol, tunqus, mancur dillərində mövcuddur.

2. XARİCİ FAKTORLARIN ROLU. Dilin inkişafının xarici faktorları insan fəaliyyətinin, cəmiyyət tarixinin müəyyən məsələləri ilə bağlıdır. Dilin dəyişməsi və inkişafında xarici faktorların rolu az deyildir. Əgər dilin daxili inkişaf faktorları dilin qatları, layları ilə əlaqədardırsa, xarici faktorlar cəmiyyətin ictimai quruluşu, ideologiyası, xalqların əlaqəsi, əhalinin etnik tərkibi, bədii ədəbiyyat, elm, sənaye,

texnika və təfəkkür fəaliyyətinin inkişafı ilə bağlıdır. İnsan şüurunda, onun təfəkküründə müxtəlif sahələrində baş verən hər bir dəyişiklik dildə də öz lüğəvi və qrammatik əksini tapır. Dilin inkişafında xüsusi rol oynayan xarici faktorlardan biri dillərin əlaqəsi, kontaktıdır. Bu faktor xalqlar arasında iqtisadi, siyasi, mədəni və digər əlaqələr əsasında meydana çıxır. Dünyada elə bir dilə rast gəlinməz ki, o, ancaq öz daxili vasitələrindən ibarət olsun. Bu faktorun əsasında dünya dillərində dil əlaqəsi ənənəsi yaranmışdır. Bu ənənə bütün dünya dillərində mövcuddur. Dilin inkişaf etməsində xarici faktor kimi yazı da az rola malik deyildir. Dilin inkişafında yazının rolu olduqca böyükdür. Məlumdur ki, yazan hər bir şəxs şifahi danışana nisbətən öz fikrini tələsmədən sərbəst və ətraflı ifadə edə bilər. Yazı zamanı dilin imkanlarından daha geniş istifadə olunur. Buna görə də fikri rəngarəng, təsirli ifadə edərkən sadə cümlə ilə yanaşı, mürəkkəb cümlənin müxtəlif növlərindən geniş istifadə edilir. Bundan əlavə, yazı ədəbi dilin formalaşmasına təsir göstərir, fikrin müxtəlif üslubda ifadə olunmasına imkan yaradır. Dilin üslublar sistemi yazı vasitəsilə sabitləşir. Dildə baş verən inkişaf prosesi izləri birinci növbədə əyani şəkildə yazıda öz əksini tapır. Buna görə də yazılı ədəbiyyat dilin inkişaf meyarı kimi daha mötəbər mənbə hesab edilir. Çünki ancaq yazı vasitəsilə dilin ən qədim ünsürlərini, onların variantlarını aşkar etmək və onu müasir dillə müqayisə etmək mümkündür. Yazı olmasaydı, dilin keçmişi haqda heç bir təsəvvür əldə etmək mümkün olmazdı. Dilin digər xarici faktorlarının da hər biri onun ümumi inkişafında xüsusi əhəmiyyətə malikdir. Dilin hər hansı bir faktor əsasında inkişafı fəaliyyət dairəsini bir az da artırır. Dilin fəaliyyətdə olması onun inkişafı, inkişafda olması isə fəaliyyətdə olması deməkdir. Dilin inkişafı bütün komponentlərində aydın şəkildə özünü göstərir. Hələ uzaq keçmişdə alimlər dilin fonetik, lüğəvi və qrammatik tərkibini bir-birindən fərqləndirməyə başlamış, orada səs, söz və cümlələrdəki dəyişiklikləri, inkişafı müşahidə etmişlər. Bu ilk müşahidələr böyük təd qiqatların yaranmasına səbəb olmuşdur.

3. DİLİN FONETİK TƏRKİBİNİN İNKİŞAFI. Dilin səs quruluşu çox müxtəlif və mürəkkəb proseslərin məcmusundan ibarətdir. Buna görə də "...dil dəyişdikcə, inkişaf etdikcə dildəki səslərdə də az-çox dəyişiklik ola bilir. Cəmiyyətin inkişafı ilə bağlı olaraq dəyişən dilin maddi vasitəsi olan səslərin dəyişməsi dilin səslərinə məxsus bir sıra qanun və hadisələrin dəyişməsinə və ya yenidən yaranmasına səbəb ola bilir". Dilin fonetik tərkibində baş verən dəyişikliklər, əsasən, dəqiqləşmə və daha da təkmilləşmə xarakteri daşıyır. Ona görə də bu prosesi dilin fonetik sisteminin inkişafı kimi qiymətləndirmək daha düzgündür. Dilin fonetik tərkibində baş verən dəyişikliklər həm dərindən, həm də üzdən ola bilir. Dərindən əmələ gələn dəyişikliklər dilin fonoloji quruluşunda, üzdən əmələ gələn dəyişikliklər isə fonetik hadisə və

qanunauyğunluqlarda öz əksini tapır. Fonoloji quruluşda özünü göstərən dəyişikliklər dilin fonetik tərkibinin inkişafında aparıcı rola malikdir. Azərbaycan dilinin fonetik tərkibində tarixən bir neçə istiqamətdə inkişaf prosesi baş vermişdir. Bunlara səs əvəzlənmələrini, qapalı hecalılıqdan açıq hecaya keçilməsini, səs yerdəyişməsi, səsdüşümü və s. fonetik hadisələri göstərmək olar. "Kitabi-Dədə Qorqud" dastanının və habelə XIII–XVIII əsrlər Azərbaycan klassik ədəbiyyatının dil materiallarında bu fonetik dəyişiklik və inkişaf prosesini aydın görmək olur. Azərbaycan dili fonetik sisteminin tarixi inkişaf prosesində aşağıdakı səs əvəzlənmələri özünü göstərir: b→m, t→d, i→e, a→o, ğ→q, q→h və s. XIII əsr Necəsən, gəl ey yüzü ağım bənim, Sən əritdin odlara yağım bənim. (İ.Həsənoğlu) XX əsr El bilir ki, sən mənimsən. (S.Vurğun) Yaxud: XIV əsr Yürəki taş, qaməti ney, kiprügü tiri-xədəng, Necə bir yürəgümə od ilə taş oynadısar. (Q.Bürhanəddin) XX əsr Yarıyadək yerə batmış o qəbrin daşı. (S.Vurğun) Azərbaycan dilinin fonetik sistemində ahəng qanununun təkmilləşməsi və inkişafı daha qabarıq nəzərə çarpır. XIII-XVIII əsrlər Azərbaycan klassik poeziyasında, xüsusilə XIV əsrin görkəmli şairi Qazi Bürhanəddinin şeirlərində ahəng qanununun pozulması xarakterik hal kimi diqqəti cəlb edir1 . Bu hadisə, şübhəsiz ki, xarici təsir nəticəsində baş vermişdir. Azərbaycan dilində ahəng qanunu həmişə möhkəm və sabit olmuşdur. Dilin fonetik tərkibində baş verən dəyişikliklər ayrıayrı fərdlərin nitq səviyyəsindən başlanır. Əgər dəyişiklik fərdi nitqdən kollektiv nitq səviyyəsinə keçirsə, onda həmin dəyişiklik dildə fonetik norma sayılır və bu norma dilin fonetik tərkibinin inkişafı üçün zəmin yaradır. Dilin fonetik sistemində baş verən dəyişiklik və inkişaf ədəbi dilin inkişafının tərkib hissəsi kimi çox böyük ictimai əhəmiyyət kəsb edir. XIII–XVIII əsrlər Azərbaycan dilinin fonetik sistemi ilə müasir Azərbaycan dilinin fonetik sistemini müqayisə etdikdə bunun bir daha şahidi oluruq. Bunun başlıca səbəblərindən biri həmin dövrdə dialekt və şivə tələffüzünün ədəbi dilin fonetik sisteminə təsiri olmuşdur. Müşahidələr göstərir ki, dilin fonetik sisteminin normativ səs qanunlarına yad elementlər bir neçə səbəbdən daxil olur. Bunlardan biri dialekt və şivələrdir. Bəzən müəyyən dialekt və şivə leksikası, eləcə də tələffüzü öz arealından kənara çıxaraq ədəbi dilə də təsir göstərməyə başlayır. Qazi Bürhanəddinin "Divan"ında rast gəlinən "dedüm", "gərəkdür", "aşiqünəm", "artux", "içum", "aparun", "görmədüm", "edəlüm", "ölmüşdür", "qılurlar", "həyatıdur", "qərarun" və s. sözlərdə ahəng qanununun pozulması halları sənətkarın dövründə yalnız yazılı ədəbi dildə baş vermişdir. Bu tipli fonetik dəyişmə hadisəsi o dövr canlı danışıq dili üçün yad olmuşdur. Müasir dövrdə ədəbi tələffüzün dialekt və şivə tələffüzünü sıxışdırması Azərbaycan dilinin fonetik sistemində bir sabitlik əmələ gətirmişdir. Digər səbəb qohum dillərin təsiridir. Azərbaycan klassik ədəbiyyatında rast gəlinən bən, kibi, şol, böyls, deyəlim, sana, imdi,

şu və s. türk dilinin fonetik sisteminin təsirinə məruz qalır. Bəzən dilin fonetik tərkibində baş verən dəyişiklik proqressiv deyil, aqressiv xarakter daşıyır. Məsələn, Sağır "ŋ" səsi Azərbaycan dilinin səs sistemi üçün səciyyəvi fonem hesab olunur. Həmin fonetik vahid qədim türk və orta əsr Azərbaycan yazılı abidələrində də öz qrafik əksini tapmışdır. Lakin müasir Azərbaycan əlifbasında bu fonemin öz əksini qrafik şəkildə tapmaması yazıda uyğunsuzluq əmələ gətirir. Məsələn, "qardaşına", "evinə", "əməyinə" və s. sözlərin yazılışı bu baxımdan müasir Azərbaycan orfoqrafiyasında düzgün müəyyən olunmamışdır.

4. DİLİN LÜĞƏT TƏRKİBİNİN İNKİŞAFI. Hər bir dilin ibtidai dövründə onun lüğət tərkibi son dərəcə kasıb olur. Lakin lüğət tərkibindəki bu kasıblıq xalqın hərtərəfli inkişaf tarixi ilə bağlı olaraq get-gedə zənginləşmə prosesi ilə əvəz olunur. Lakin lüğət tərkibi öz inkişafında müəyyən mərhələlər və dövrlər keçirir. Bu mərhələ və dövrlər əsasında lüğət tərkibi dialektik inkişaf prosesinə malikdir. Həmin inkişaf prosesi nəticəsində dilin lüğət tərkibində baş verən dəyişikliklər müxtəlif tipli olur. Xalqın həyatının inkişafında baş verən dəyişikliklər öz əksini birinci növbədə dilin lüğət tərkibində əks etdirir. Bunun nəticəsində dilə yeni sözlər daxil olur. Lakin qeyd etmək lazımdır ki, həmin yeni sözlər dilin daxili qaydaqanunları əsasında yaranır. Əks təqdirdə o, heç kim tərəfindən başa düşülə bilməz. XX əsrin əvvəllərində yeni ictimai quruluşun meydana gəlməsi ilə əlaqədar olaraq Azərbaycan dilinə qardaşlıq, dostluq, nümayişçi, tətilçi, bərabərlik, işçi, komsomolçu və s. yeni sözlər daxil olmuşdur. Göründüyü kimi, həmin sözlər Azərbaycan dilinin morfoloji sözyaratma modelləri //-çı4 /, /-lıq4 // əsasında yaranmışdır. Dildə yeni sözlərin işlənmə dərəcəsi eyni olmur və bunlar dilin zənginləşməsi və inkişafına eyni dərəcədə təsir göstərə bilmir. Buna görə də onların bir qismi dilin lüğət tərkibini zənginləşdirməyə xidmət edirsə, digər qismi (dilin daxili qayda-qanunlarına uyğun gəlməyənləri) dilin inkişafına əngəl törədir. Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsi və inkişafında ərəb, fars, türk, rus və başqa dillərə məxsus alınmaların müəyyən hissəsi mühüm rol oynamışdır. Bununla bərabər, Azərbaycan dilinin lüğət tərkibinə daxil olmuş bir çox alınmalar get-gedə öz işləklik dərəcəsindən düşmüş və sıradan çıxmaqdadır. Məsələn, rubəru, ərzi-hal, nöqteyi-nəzər, tərəfi-müqabil, maddeyi-sübut, hakimi-mütləq, Kürreyi-ərz, kultura, revolyusioner və s. Dildə bir qrup sözlərin arxaikləşməsi də lüğət tərkibinin inkişaf istiqaməti kimi qiymətləndirilir. Çünki lüğət tərkibindəki sözlərin bir qismi hər hansı tarixi inkişafı nəticəsində arxaikləşib öz işləkliyini itirir. Məsələn, Azərbaycan dilinin XX əsrdən əvvəlki mərhələlərində işlənən xan, nökər, yüzbaşı, qalxan, qılınc, baqqal, divanxana, mədrəsə, mollaxana, xış, cütçü və s. sözlər ifadə etdikləri anlayış və məfhumların sıradan çıxması ilə əlaqədar dildə köhnəlməyə başlamışdır. İndi həmin

sözlərdən yazıçı və şairlər öz əsərlərində keçmiş həyat lövhələri yaradarkən istifadə edirlər. Yer üzündə dünya xalqları bir-biri ilə çoxcəhətli əlaqə lərə malik olduğuna görə onların dilləri də qarşılıqlı şəkildə bir-birinə təsir göstərir və bir-birini zənginləşdirir. Dilin lüğət tərkibinin inkişaf prosesi xalqın tarixi inkişafı ilə vəhdət təşkil edir. Xalqın tarixini izləmədən lüğət tərkibindəki inkişaf meyillərini aşkar etmək mümkün olmaz. Hər bir xalqın tarixi ictimai-siyasi, iqtisadi, mədəni, təsərrüfat hadisələri ilə zəngindir. Bu mürəkkəb və çoxcəhətli xalq tarixi dilin lüğət tərkibində leksik vahidlər şəklində ifadə olunur. Dilin lüğət tərkibinə yeni söz və ifadələrin daxil olması, sözlərin yeni məna kəsb etməsi, sözlərin arxaikləşməsi, sözün mənasını itirməsi, alınmaların dilə daxil olması və s. dil hadisələri xalqın tarixi izlərini lüğət tərkibində həkk edib möhkəmləndirir. Müasir Azərbaycan dilində arxaikləşmə, sözlərin yeni məna kəsb etməsi, alınmalar və s. dil materiallarının öyrənilməsi təbii olaraq Azərbaycan xalqının tarixi ilə bağlı aparılır. Dilin inkişafından bəhs edən əsərlərdə dillərin başlıca inkişaf dövrləri cəmiyyətin inkişaf dövrləri ilə əlaqədar öyrənilir.

5. DİLİN QRAMMATİK TƏRKİBİNİN İNKİŞAFI. Dilin quruluşunun sadə, bəsit qrammatik formalardan mürəkkəb və zəngin qrammatik formalara doğru inki- şafı obyektiv və qanunauyğun ictimai prosesdir. Bu inkişaf prosesində müstəqil sözün şəkilçiyə, şəkilçinin sözə çevrilməsi, bir qrammatik formada bir neçə qrammatik hadisənin ifadə olunması, sadə cümlələrdən mürəkkəb cümləyə keçid, mürəkkəb cümlələrin budaqlara ayrılması və s. dil hadisələri baş verir. Azərbaycan dilinin qrammatik quruluşunu nəzərdən keçirdikdə məlum olur ki, istər morfoloji, istərsə də sintaktik modellər müasir səviyyəyə gəlib çıxana qədər çox formalara düşmüşdür. Məsələn: ismin təsirlik hal şəkilçisi (-l, -i, -u, -ü) y və n samitləri ilə birlikdə işlənmişdir. Nümunələrə nəzər yetirək: Səndədir şol gənci-pünhan, gəzmə hər viranəyi, Dənizə tal, andan istə, ey könül, dürdanəyi Təndə canı yoxdur ol kim, bulmadı cananəyi. (Nəsimi, XIV əsr) Bilməz çu vəfayi kəm cəfalar. (Xətai, XVI əsr) Kim şad ikən etdi bizni qəmgin Gah örtər idi yaşım, gözimni. (Xətai, XVI əsr) Həmin bədii dil nümunələrində təsirlik halda işlənən sözlər müasir ədəbi dil baxımından fərqlidir. Tədqiqatlar göstərir ki, Azərbaycan dilinin orta əsrlər dövründə klassik ədəbiyyatın dilində sifətin azalma dərəcəsini əmələ gətirən -ımtıraq və -ımtıl şəkilçiləri işlənmişdir . Demək, həmin şəkilçilər Azərbaycan dilinin daha sonrakı mərhələlərində meydana gəlmişdir. Azərbaycan dilində feilə məxsus zaman, şəxs, növ kateqoriyaları da tarixi inkişaf prosesində bir sıra qrammatik formalarda əks olunmuşdur. Məsələn, müasir Azərbaycan ədəbi dilində qeyri-qəti gələcək (-ar, -ər) zaman şəkilçisi -az, -əz formasında işlənmişdir. Şövkət əhlinə olmazam həmdəm Çəkməzəm şiddətü məşəqqəti-ğəm. (M.Füzıli, XVI əsr) Dillərin tarixi sintaksisinin öyrənilməsi aşkar edir

ki, tarixən mürəkkəb cümlələr bağlayıcısız işlənmişdir. Həm də mürəkkəb cümlələr arasında tabesizlik əlaqəsi daha çox üstünlük təşkil etmişdir. Dillərin müasir inkişaf mərhələsində isə mürəkkəb cümlələr arasında tabelilik əlaqələri daha çox artmış və bu cümlələr müxtəlif tipli bağlayıcılar vasitəsilə bir-birinə bağlanır.

6. DİLİN İNKİŞAF SÜRƏTİ. Dilin inkişaf sürətini müəyyənləşdirmək ən vacib məsələlərdəndir. Bu məsələ ilə bağlı dilçilik ədəbiyyatında bir çox fikirlər, mülahizələr vardır. Dünya dilçiliyində məsələnin tam həlli öz yerini tapmamışdır. Dilin inkişaf sürəti problemi olduqca mürəkkəbdir. Burada iki cəhəti bir-birindən fərqləndirmək lazımdır. Birincisi, bütövlükdə dilin inkişaf sürəti, ikincisi, dilin ayrıayrı komponentlərinin inkişaf sürəti. Bütövlükdə dilin inkişaf sürəti. Dil yavaş-yavaş dəyişib inkişaf edir. Bu onun xarakterik cəhətidir. Əgər dil belə inkişaf etməsə, nəsillər onu başa düşə bilməzdi. Dilin iti sürətlə dəyişməsi onun fəaliyyətdən düşməsinə gətirib çıxarar. Dünya dillərinin hamısının inkişaf sürəti eyni deyildir. Nisbətlə götürüldükdə dillər bu cəhətdən, təbii olaraq, fərqlənir, birinin az, digərinin çox inkişaf etdiyi müşahidə olunur. Müəyyən bir dilin inkişaf sürəti dövrə, ictimai quruluşuna görə də seçilir. Məsələn, Azərbaycan dilinin keçən əsrdəki inkişafı başqa dövrlərdən əsaslı şəkildə fərqlənir. Dilin komponentlərinin inkişaf sürəti. Dilin komponentləri qeyri-bərabər inkişaf edir. Bunlardan dilin lüğət tərkibi daha çox dəyişir və zənginləşmə yolu keçir. Lakin burada da qeyri-bərabərlik mövcuddur. Belə ki, dilin lüğət tərkibinin özəyini təşkil edən leksemlər çox yavaş və az dəyişir. Dilin əlavə lüğət tərkibi deyilən hissəsi daha çox dəyişir. Yeni yaranan sözlər, terminlər məhz bu hissəyə aiddir. Dilin fonetik və qrammatik tərkibi leksemlər sisteminə nisbətən az dəyişir. Lakin bu o demək deyildir ki, hər iki komponentin dəyişilməsi dil üçün az əhəmiyyətlidir. Əksinə, bunların da dəyişilməsi dilin inkişafı və fəaliyyəti üçün zəruridir. Fonetik tərkibdə əsas fərq ondan ibarətdir ki, fonetik hadisə və qanunlara nisbətən fonemlər sistemi az dəyişikliyə uğrayır. Dilin qrammatik tərkibində isə morfologiyaya nisbətən sintaksis daha çox dəyişir. Ədəbi dil tarixinin araşdırılması sübut edir ki, müasir Azərbaycan ədəbi dilində tabeli mürəkkəb cümlələrin çox müxtəlif tipləri meydana gəlməkdədir. Bütün deyilənləri ümumiləşdirdikdə belə bir nəticəyə gəlmək olur ki, dilin komponentləri arasındakı inkişaf səviyyəsi eyni deyildir. Bunların fərqli inkişaf səviyyəsi, təxminən, 6-cı sxemdəki kimi təsəvvür olunur. Dilin komponentlərinin dəyişmə səbəbləri müxtəlifdir. Yəni hər sahənin özünə aid səbəbi vardır. Məsələn, lüğət tərkibinin dəyişmə səbəbi fərqlidir. Zamanla bağlı müəyyən anlayışın yaranma səbəbi dilin lüğət tərkibinə yeni söz gətirir və s. Lakin sintaksisdə bu belə deyildir. Sintaktik fiqurların inkişafı insan psixologiyasının inkişafı ilə bağlı dəyişir. Qavramanın həcmindən asılı olaraq nitqdə mürəkkəb cümlələr işlənir. İnsanda qavramanın həcmi nə

qədər artıq olarsa, nitqdə bir o qədər mürəkkəb cümlələr çox işlənir. Hər bir dilin dəyişməsini və inkişaf etməsini dəqiq ölçmək hələlik qeyri-mümkündür. Dilin inkişaf dərəcəsini hesablamaq üçün alimlər bir sıra metodlar irəli sürmüşlər. İngilis alimi Morris Svodeş bu məqsədlə qlottoxronologiya metodunu məsləhət bilmişdir. Müasir dilçilikdə də bu problem üzərində iş aparılır. Dilin inkişaf sürətini dəqiq ölçmək, mötəbər metod yaratmaq ictimai elmlərin qarşısında duran əsas vəzifələrdəndir.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

37. Abdullayev Ə. Azərbaycan dili məsələləri, Bakı, 1992

38. Babayev A. Dilçilyə giriş. B. Maarif, 2004

39. Qurbanov A. Ümumi diçilik I cild (2 cilddə), Bakı, Nurlan, 2004

40.Məmmədov N., Axundov A. Dilçilyə giriş. B. Maarif, 1980

Mövzu 14

Dillərin geneoloji təsnifi

TƏSNİFLƏR HAQQINDA. Elm aləmində hər bir obyektin tədqiq və təhlilində müxtəlif növ vasitələrə müraciət olunduğu müşahidə edilir. Dillərin öyrənilməsində istifadə olunan belə başlıca vasitələrdən biri dünya dillərinin qruplaşdırılması və onun əsasında təsnif olunmasıdır. Dillərin təsnifinin məqsədi bütün dünya dillərini qruplaşdırmaq, onların mənimsənilməsini asanlaşdırmaq, hər bir dilin dünya dilləri sistemində yerini dəqiqləşdirmək və şairədən ibarətdir. Dünya dillərinə aid qruplaşdırma və nəticələrə dair ümumiləşdirmələr aparılması dillərin hərtərəfli tədqiqi üçün geniş imkanlar yaradır. Buna görədir ki, dillərin öyrənilməsində təsnifdən tarixən geniş şəkildə istifadə olunmuşdur. Dilçilik elmində "dillərin təsnifi" ideyasının tarixi çox qədimdir. İnsanlar ictimai-siyasi məsələlərlə bağlı özgə dillərlə qarşılaşdıqca onlardakı yaxın və fərqli cəhətlər ciddi marağa səbəb olmuşdur. Buradan da dillərdə "fərqlər" axtarmaq, "qohumluq" izinə düşmək meyilləri meydana gəlmişdir. Bütün bunlarla bağlı dillərin təsnifi ideyası hələ qədim və klassik dilçilikdə özünə geniş yer tapmışdır. Qədim Şərq dilçiliyində XI əsrin məşhur filoloqu Mahmud Qaşqarlı ilk dəfə olaraq türk dillərinin təsnifini vermişdir. O, türk dillərini mənşəyinə görə də qruplaşdırmağı zəruri hesab etmişdir. Dünya dillərinin təsnifi təcrübəsi bir daha göstərmişdir ki, bütün dillərin dərindən, ətraflı və sistemli şəkildə öyrənilməsində təsnif xüsusi əhəmiyyət kəsb edir və bunların dəqiqləşdirilməsi, təkmilləşdirilməsi daima dilçiliyin diqqət mərkəzində olmalıdır. **DİLLƏRİN TƏSNİFİ PRİNSİPLƏRİ**. Dünya

dilləri olduqca zəngin tərkibə, müxtəlif quruluşa və geniş ifadə imkanlarına malikdir. Dillərin yaranma və inkişaf tarixləri də çox maraq doğuran sahələrdir. Dünya dilləri qruplaşdırılıb təsnif olunarkən onların müəyyən əlamətləri – yaranması, yayılması, inkişaf etməsi, istifadə olunması, mənşə ümumiliyi, ədəbi səviyyəsi, qrammatik uyğunluğu və sair bu kimi cəhətləri nəzərə alınır. Belə əlamətlər, səciyyəvi cəhətlər dillərin təsnifi prinsiplərini yaradır. Məsələn, dillərin mənşə ümumiliyi prinsipi, dil tiplərinin qrammatik uyğunluğu prinsipi, ədəbi səviyyə prinsipi və s. Bunlarla yanaşı, daha bir sıra prinsip də meydana gəlmişdir: dillərin xarakteroloji prinsipi, statistik xarakteristika prinsipi və s. Xarakteroloji prinsipə görə, tədqiqatçılar öyrənilən dilin özünəməxsusluğunu, onun xarakterik xüsusiyyətlərini aşkar etməyə çalışmışlar1 . Bu prinsiplə dilin ümumi sistemində ayrı-ayrı dil hadisələrinin rolunu müəyyənləşdirmək mümkün olmur. Belə bir cəhət onun nöqsanıdır. Statistik xarakteristika prinsipi əsasında E.Sepir dilləri öyrənərkən çoxpilləli təsnifat tərtib etmişdir. Həmin təsnifə əsasən, dillər köklü, düzəltmə, qarışıq, relyativ, təmiz relyativ qruplara bölünmüşdür. Müxtəlif dillərin öyrənilməsi tarixində müəyyən prinsiplər əsasında bir sıra təsnif meydana çıxmışdır. Bunların bəziləri az miqdarda dili, bəziləri isə çox dili əhatə etmişdir. Həmçinin dillər qruplaşdırılarkən bəzi təsniflər geniş yayıla bilməmiş, məhdud dairədə istifadə olunmuşdur. Dillərin qruplaşdırılmasına dair aşağıdakı təsniflər yaranma tarixinə, məzmun və mündəricəsinə görə diqqəti daha çox cəlb edir: 1) Coğrafi təsnif; 2) Tipoloji təsnif; 3) Stadial təsnif; 4) Funksional təsnif; 5) Genealoji təsnif Bu təsniflər məqsəd və vəzifələrinə görə bir-birindən fərqlənir və bunların hər biri ayrı-ayrı elmi prinsip və metodlara əsaslanır.

1. DİLLƏRİN COĞRAFİ TƏSNİFİ. Dilçilik elmində coğrafi təsnif areal təsnif kimi də adlanır. Bu təsnifdə areal-coğrafi əlamətlər əsas götürülür, müəyyən qütbdə, qitədə, yaxud ölkə və bölgədə hansı dillərin yerləşdiyi müəyyənləşdirilir. Məsələn, Qərb dilləri, Afrika dilləri, Qafqaz dilləri və s. Bu bölgünün tələblərinə uyğun olaraq qohum dillərin qütblərə görə təsnifi də verilə bilir. Məsələn, qərbi slavyan dilləri, şərqi slavyan dilləri və s. Dillərin coğrafi təsnifi xüsusi əhəmiyyət kəsb edir. Dünya dillərinin xəritəsi və atlaslar bu təsnifin prinsipləri əsasında hazırlanır. Yaranmış linqvistik xəritəşünaslıq ancaq xəritə, atlas tərtibi deyil, burada dillərin öyrənilməsi üsullarından və digər məsələlərdən də bəhs olunur. Dünya dilçiliyində linqvistik xəritəşünaslıq geniş inkişaf etmişdir. Ümumi linqvistik xəritələrlə yanaşı, indiyə kimi linqvistik atlasların bir sıra növləri də meydana çıxmışdır: 1. Milli dil atlasları. 2. Dil ittifaqları atlasları. 3. Problem atlasları. 4. Ərazi atlasları. 5. Dil anlayışları atlasları və s. Dil xəritəsi dünyanın etnik xəritəsi ilə bağlıdır. Çox halda bunlar bir-birinə uyğun gəlir. Lakin bəzən dil və etnik cəhətdən uyğun gəlməyən hallar da olur. Coğrafi təsnifdə dilçilik elminin areal

metodundan istifadə olunur. Bunun vasitəsilə makro və mikro obyektlər dil baxımından xarakterizə edilir. Coğrafi təsnifin prinsipləri əsasında türk dillərinin coğrafiyasını daha da dəqiqləşdirib elmi əsasda linqvistik xəritəsini yaratmaq müasir türkoloji dilçilikdə xüsusi aktuallıq təşkil edir.

2. DİLLƏRİN TİPOLOJİ TƏSNİFİ. Dilçilikdə geniş yayılmış bölgülərdən biri tipoloji təsnifdir. Bu təsnifin əsasını dil tipləri təşkil edir. Burada dillər tipinə görə qruplaşdırılır. Dil tipi nədir və o necə müəyyənləşdirilir? Dünya dillərinin struktur xüsusiyyətləri nəzərə alınaraq dil tipi müəyyən edilir. Burada dilin fonetik sisteminə, lüğət tərkibinə və qrammatik quruluşuna aid əlamətlər tutuşdurulur, ümumi və fərqli cəhətlər aşkar edilir. Belə bölgüdə başqa komponentlərə nisbətən qrammatika hissəsi daha münasib hesab edilir, morfoloji və sintaktik əlamətlər əsas obyekt kimi götürülür. Tipoloji təsnifdə dillərin müasir vəziyyəti nəzərə alınır. Burada müqayisəli və qarşılaşdırma metodlarından istifadə olunur. Dillərin bu növ təsnifi fonetik-tipoloji, leksik-tipoloji, morfoloji-tipoloji prinsiplər əsasında qurulur. Tipoloji təsnif dillərin morfoloji tipologiyası əsasında təşəkkül tapmışdır. Tədqiqatçılar dil tiplərini ancaq morfoloji əlamətlərə görə müəyyənləşdirmişlər. Elə buna görə də ilk zamanlar bu təsnif morfoloji təsnif adlanmışdır. Morfoloji tipologiyada dillərin morfoloji quruluşunun oxşar və fərqli cəhətləri (kökün, şəkilçinin əlamətləri) nəzərə alınır. Morfoloji tipologiyada sözün quruluşu əsas götürülərək dillər aşağıdakı kimi bölünür. Şəkilçisiz dillər, Aqlütinativ dillər, Şəkilçili dillər, Flektiv dillər. Sintaktik tipologiyada söz birləşmələri, cümlə quruluşu, sintaktik əlaqələrin xüsusiyyətləri izlənilir və tipoloji mövqedən xarakterizə edilir. Tipoloji təsnif XIX əsrin əvvəllərində meydana çıxaraq, xüsusi formalaşma və təkmilləşmə yolu keçmişdir. Bu təsnifi n əsası Fridrix Şlegel (1772–1829) tərəfi ndən qoyulmuşdur. O, 1808-ci ildə çap etdirdiyi "Hindlilərin dili və müdrikliyi" əsərində sanskrit dilini aşağıdakı dil qrupları ilə müqayisə etmişdir: 1) Yunan dili. 2) Aqlütinativ dillər. 3) Türk dilləri Bu üç dil qrupunun materialları əsasında belə bir qənaətə gəlmişdir ki, müqayisə olunan yuxarıdakı dillər iki tip təşkil edir: 1) flektiv dillər, 2) aqlütinativ dillər. F.Şlegel bu dil tiplərini səciyyələndirməyə səy etmiş və kökün dəyişib-dəyişməməsini meyar götürərək flektiv dilləri (kök dəyişdiyi üçün) zəngin və möhkəm, aqqlütinativ dilləri isə "kasıb, zəif və süni" dillər hesab etmişdir. Elmi baxımdan F.Şlegelin bu mülahizəsi tamamilə həqiqətəuyğun deyildir. Dövrünün alimləri tərəfindən F.Şlegelin təsnifi mübahisələrə səbəb olmuşdur. Onun mübahisələrdə iştirak edən qardaşı Avqust Şlegel (1767–1845) "Provansal dili və ədəbiyyatı haqqında qeydlər" (1818) əsərində qardaşının göstərdiyi iki dil tipindən əlavə üçüncü dil tipini (amorf dilləri) müəyyənləşdirmişdir. Həmçinin flektiv dillərin iki növdə – analitik və sintetik olduğunu izah etmişdir. Vilhelm Humboldt (1767–1835)

morfoloji təsnifə münasibət bildirərək amorf dil tipini dəqiqləşdirərək onu köksözlü dillər adlandırmışdır. O, flektiv, aqlütinativ, köksözlü dil tipləri ilə yanaşı, dördüncüsünü – inkorporlaşan dillər tipini aşkar etmişdir. Adıçəkilən müəlliflər dil tiplərini müəyyənləşdirərkən dillərin tarixini yox, onların hazırkı vəziyyətlərini nəzərə almışlar. Lakin Avqust Şlegel dillərin inkişafını əsas götürmüş və üç dil tipinin köksözlüdən aqqlütinativ və oradan flektivə doğru inkişaf etdiyini söyləmişdir. Onun dillərin inkişafını köksözlüdən başlaması müddəasının elmi əsası yoxdur. Çünki müasir köksözlü dillər heç də flektivdən geri qalmır. Bundan başqa, bir sıra dillər təkhecalılığa doğru inkişaf etməkdədir. Belə bir xüsusiyyət müasir ingilis ədəbi dilində müşahidə olunmaqdadır. Bundan başqa, bəzi dillərdə, o cümlədən türk dillərində şəkilçilərin get-gedə ixtisar edilməsi özünü göstərir. Məsələn, "Bu gün külək yoxdur" cümləsi müasir türkcədə "Bu gün rüzgar yoq" formasında işlədilir. XX əsrin I yarısında Avqust Şlegelin yuxarıdakı bölgüsünə başqa istiqamətdən yanaşanlar da olmuşdur. İngilis alimi Maks Müller köksözlü dilləri "ailə dili", aqlütinativ dilləri "köçəri həyat keçirənlərin dili", flektivi isə "siyasət-dövlət quruluşu olan dil" hesab etmişdir. Əslində, belə mülahizələr, sadəcə olaraq, uydurmadan başqa bir şey deyildir. Çünki tarix göstərir ki, hər üç dil tipindən istifadə edən xalqlar siyasət aləmində əsaslı müddəalar irəli sürmüş və qüvvətli dövlətlər yaratmışlar. Dilçilikdə yuxarıda bəhs olunan bölgülərdən başqa XIX əsrin sonunda (F.Misteli) və XX əsrin əvvəlində (N.Fink) bir sıra tipoloji təsnif irəli sürülmüşdür. Müxtəlif bölgülərdə dillərin 4, 8 və hətta 21 tipi olduğu göstərilmişdir. Bütün təsniflərdə mövqe eyni olmuş, dilin qrammatik quruluşunun əlamətləri əsas meyar götürülmüşdür. Müasir dilçilikdə dünya dillərini dörd tipdə qruplaşdırmaq konsepsiyası daha geniş yayılmışdır. Bu təsnifə görə, dünya dilləri aşağıdakı əsas tiplərə bölünür: 1. Köksözlü dillər. 2. Aqlütinativ dillər. 3. Flektiv dillər. 4. İnkorporlaşan dillər. Bu dil tipləri özlərinə məxsus səciyyəvi cəhətləri ilə bir-birindən fərqlənir.

3. DİLLƏRİN STADİAL TƏSNİFİ. Bu təsnifə görə, dillərin inkişafı mərhələlərlə götürülür və bunlar üzrə qruplaşdırmalar aparılır. Mərhələli-stadial təsnifin rüşeymləri XIX əsrdə Avqust Şleyxerin morfoloji təsnifində mövcud olmuşdur. Nikolay Marr Avqust Şleyxerin təsnifinin ideya istiqamətini götürüb onun əsasında 1928-ci ildə mərhələli şəkildə yeni təsnif irəli sürmüşdür. Stadial təsnif "dillərin ilkin ünsürləri"nə əsaslanır. Marra görə, guya, bütün dünya dilləri dörd ünsürdən (sal, ber, roş, yon) əmələ gəlmişdir. Onun fikrincə, dillər bu eyni materialdan, ünsürlərdən törədiyi üçün onların təsnifi inkişafla bağlı olmalıdır. Marr dillərin inkişafının dörd mərhələdən ibarət olduğunu göstərir və buna uyğun da dilləri qruplaşdırırdı. Nikolay Marr dilləri aşağıdakı kimi təsnif edir:

I qrupa aid dillər: 1) Çin dili; 2) Bəzi Afrika dilləri.

II qrupa aid dillər: 1) Fin-uqor dilləri; 2) Türk dilləri; 3) Monqol dilləri.

III qrupa aid dillər: 1) Yafəs dilləri; 2) Hami dilləri.

IV qrupa aid dillər: 1) Sami dilləri; 2) Hind-Avropa dilləri.

Bunlardan birinci qrupu təşkil edən dillər ilk mərhələyə aid olduğu üçün ibtidai dillər, dördüncü qrupa məxsus dillər isə ən yüksək inkişaf etmiş dillər hesab olunur. Dünya dillərini bu qaydada təsnif etmək elmi cəhətdən doğru deyildir. Müasir çin dili dördüncü qrupdakı dillərin heç birindən geri qalmır, hazırda BMT-də rəsmi dillərdən biridir. Eləcə də üçüncü qrupa daxil edilən dillər, o cümlədən türk dilləri özünün ahəngdarlığı, lüğət tərkibi, qrammatik quruluşu, ifadə forma və vasitələri ilə dünyanın ən zəngin dilləri sırasındadır.

4. DİLLƏRİN FUNKSİONAL TƏSNİFİ. Dünya dillərinin qruplaşdırılmasında istifadə edilən təsniflərdən biri də funksional bölgüdür. Bu bölgü dilçilikdə "sosial" termini ilə də ifadə edilir. Funksional (sosial) təsnifdə bir sıra prinsipdən istifadə olunur. Bunlardan dillərin işlənilmə dairəsi və dillərin ədəbi dərəcəsi prinsipləri əsas yer tutur. İşlənmə dairəsinə görə dünya dilləri iki yerə bölünür: 1) Danışanların miqdarına görə; 2) Eyni dilin bir neçə ölkədə doğma dil kimi istifadə olunmasına görə. Konkret bir dildən istifadə edənlərin miqdarına görə dillər iki yerə bölünür: danışanların miqdarı milyard və milyonlarla olan dillər; danışanların sayı minlərlə və yüzlərlə adamdan ibarət olan dillər. Dünyada danışanların say çoxluğuna görə bir sıra dillər bütün dillərdən fərqlənir. Çin dilində danışanların miqdarı say çoxluğuna görə dünya dilləri arasında birinci yerdə durur. Son illərin məlumatlarına görə, Çində 1 milyard 103 milyon əhali yaşayır və bunların 99 faizi Çin dilindən istifadə edir. Dünya dillərindən ispan dilində 300, ingilis dilində 270, rus dilində 150, yapon dilində 100, alman dilində 90, ərəb dilində 85, portəgiz dilində 85, türk dilində 65, fransız dilində 60 milyon danışan vardır. Dünya dilləri istifadə olunma arealına görə müxtəlifdir. Elə dil vardır ki, ondan ancaq bir ölkədə, lakin elə dillər də mövcuddur ki, bir neçə ölkədə istifadə olunur. Müasir ingilis dili İngiltərədə və ABŞ-da doğma dil kimi işlənilir. Alman dili Almaniya və Avstriyada istifadə olunur. İspan dili İspaniyada, Mərkəzi və Cənubi Amerikada, Şimali Afrikada yaşayan xalqların doğma dili kimi istifadə edilir. Portuqal dili Braziliyada, Portuqaliyada və başqa bir sıra ölkələrdə yayılıb doğma dil rolundadır. Bu vəziyyətdə olan daha bir sıra dillər vardır. Mövcud dillərin əksəriyyəti isə ancaq bir xalq, tayfa və qəbilə daxilində ünsiyyət vasitəsi kimi işlənilir. Dünya dilləri ədəbi dərəcəsinə görə iki qrupa bölünür: ədəbi dillər və qeyri-ədəbi dillər. Hər xalqın öz ədəbi

dili olduğu kimi, dünyada bir ədəbi dildən bir neçə xalqın istifadə etməsi təcrübəsi də mövcuddur. Məsələn, ərəb xalqları bir ədəbi dil – ərəb dili işlədirlər. Türkdilli şor və yakutlar da bir ədəbi dildən istifadə edirlər. Ədəbi dil formasının müəyyənləşdirilməsində yazı da əsas meyar götürülür. Buna əsasən dillər yazısı olan və yazısı olmayan qruplara bölünür. Dünya dillərindən təxminən 260-a qədəri yazıya malikdir. Bunlardan 250-si əlifbadan, qalanı isə heroqlif və şəkli yazıdan istifadə edir. Dünyanın, əsasən, azsaylı xalqlarının əksəriyyəti yazıya malik deyildir. Məsələn, Amerikadakı yerli xalqların – hindilərin bir-ikisindən başqa, yerdə qalanlarda (700-dən çox dildə) yazı meydana gəlməmişdir. Ona görə də həmin dillər lazımi səviyyədə ədəbi istiqamətdə inkişafa nail ola bilmir.

5. DİLLƏRİN GENEALOJİ TƏSNİFİ. Dillərin mənşə ümumiliyinə görə qruplaşdırılmasına genealoji1 bölgü deyilir. Bu təsnifdə dillərin ancaq müasir vəziyyəti lazımi əsas vermir. Burada dillərin genetik birliyi, tarixi, bunların bir-birinə qarşılıqlı münasibəti nəzərə alınıb, onların qohumluğu müəyyənləşdirilir. Qohum dil anlamı. Material ümumiliyinə, ortaqlığına malik olan dillər qohum hesab edilir. Belə dillər bir kökə – qədim bir dilə mənsub olur. Dillərin qohumluğu onların bütün komponentlərində özünü göstərir. Dil qohumluğunun müəyyənləşdirilməsi. Dillərin qohumluğu onların fonetik, leksik, morfoloji və sintaktik oxşar və yaxın əlamətləri əsasında müəyyənləşdirilir. Genealoji – yunanca "genealogiya" sözündəndir. Bu sözdəki gen (genos) hissəsi "mənşə (əməlegəlmə)" deməkdir. "Qohum" termini biologiyadan götürülüb, şərti mənada işlənilir. bir dilin qohumluğunun sübut olunması ətraflı müşahidə, dəqiq yoxlama və ciddi axtarış tələb edir. Dillərin qohumluğu müəyyən edilərkən istər lüğət tərkibində, istərsə də qrammatik quruluşda olan hər cür oxşarlıq dillərin qohumluğunu müəyyən edən amil sayılmır. Məsələn, Azərbaycan dilinin lüğət tərkibində işlənən kitab, katib, müharibə, müəllim, sahib, adəm, səma, kainat, idrak, şüur, təfəkkür, alim və s. kimi yüzlərcə belə söz fars və ərəb dillərində də işlənir. Yaxud, Azərbaycan dilinin qrammatik quruluşunda işlənən -na (naxoş, namərd, nainsaf və s.), -bi (bihəya, biqeyrət və s.) şəkilçilər fars dilində, -ist (kommunist, sosialist və s.), -izm (marksizm, leninizm, kommunizm və s.) şəkilçilər isə rus dilində də işlənir. Bütün bu leksik və morfoloji yaxınlıq Azərbaycan dilinin nə fars dili ilə, nə də rus dili ilə qohum olmasını əsaslandırır. Çünki bu misallardakı söz və şəkilçilər qohumluq əlaməti deyildir. Bunlar bizim dilə yad dillərdən gəlmişdir. Dillərin qohumluğu müəyyən edilərkən belə təsadüfi halları deyil, dilin özünəməxsus olan xüsusiyyətlərini müqayisə etmək üçün onun qədim tarixinə nəzər salınır, oradan dilin özünə aid faktlar götürülür və başqa dillərlə müqayisə edilir. Buna görə də dil faktlarının müqayisəsi təsadüfi şəkildə yox, tarixilik nöqteyi-nəzərindən aparılır. Dil

faktları müqayisə edilərkən nə qədər uzaq keçmişə müraciət edilsə, bir o qədər obyektiv nəticələr əldə etmək olur. Dillərin genetik vəhdətə əsasən qruplaşdırılması təcrübəsinin tarixi uzaq keçmişlə bağlıdır. Hələ XI əsrdə Şərqin böyük filoloqu kimi tanınan Mahmud Qaşqarlı müqayisə metodu əsasında bir sıra türk dilinin qohum olduğunu göstərmişdir. XVI əsrdə dillərin qohumluğunun öyrənilməsi diqqət mərkəzinə keçmişdir. Dünya dillərini qohumluğa görə geniş şəkildə öyrənməyə və qruplaşdırmağa İosif Yustus Skaliger (1540–1609) xüsusi səy göstərmişdir. O, 1599-cu ildə yazdığı "Avropa dillərinə dair mühakimə" adlı əsərində Avropa dillərində 11 "ana dili" müəyyən etmiş və bunları da iki yerə bölmüşdür: "Böyük" ana dillər: 1) yunan 3) german 2) latın 4) slavyan "Kiçik" ana dillər: 1) alban 5) tatar 2) irland 6) bask 3) breton 6) bask 4) fin Skaligerin əsərində bu dillərin qohumluğu göstərilmir. Onun fikrincə, bu ana dillərin hər biri müstəqil, əlaqəsi olmayan dil qruplarıdır. Bununla yanaşı, o, german dillərinin qohumluğunu açmış, alman dilinin yuxarı və aşağı dialektlərinə məxsus bir sıra əlamət və xüsusiyyətləri müəyyənləşdirə bilmişdir. XVII əsrdə dillərin daha geniş təsnifi Vilhelm Leybnis (1646–1716) tərəfindən verilmişdir. Leybnis müşahidə etdiyi dilləri iki böyük ailəyə bölmüşdür: 1. Aramey dilləri (sami dilləri). 2. Yafəs dilləri. Müəllif Yafəs dillərini iki qrupa – skif və kelt qrupuna ayırıb, onlara məxsus dilləri göstərmişdir. Skif qrupuna aşağıdakı dillər aid edilmişdir: 1) fin dilləri, 2) türk dilləri, 3) monqol dilləri, 4) slavyan dilləri. Göründüyü kimi, bu təsnifdə qeyri-dəqiqliyə yol verilmişdir. Belə ki, türk dillərinin qeyri-dillərlə, o cümlədən slavyan dilləri ilə qohum olduğu göstərilmişdir. XVIII əsrdə dillərin qohumluğuna dair istər birbaşa, istərsə də dolayısı ilə müəyyən fikirlər irəli sürülmüşdür. Əsrin II yarısından başlayaraq bu problemin öyrənilməsinə diqqət artmışdır. Vilyam Cons (1746–1794) sanskritcə əlyazmaları izləmiş, oradakı bir çox sözün yunan və latın dillərində uyğun gəldiyini müəyyən etmiş, bu dillərin qohum olduğu fikrini irəli sürmüşdür. XIX əsr bu problemin tarixində əhəmiyyətli mərhələ təşkil edir. Həmin əsrin əvvəllərindən dillərin qohumluğuna dair əsl işlər aparılmışdır. 1816-cı ildə Frans Bopp (1791-1867) sanskriti yunan, latın və qot dili ilə müqayisə etmişdir. Bu müqayisədə tarixi istiqamətdə aparılaraq dilçilikdə tarixi-müqayisəli metoddan istifadənin əsası qoyulmuşdur. Həmin metoddan Rasmus Rask, Yakob Qrimm, Aleksandr Vostokov da istifadə etmişdir. Dillərin öyrənilməsində tarixi-müqayisəli metod çox faydalıdır. Bu metodla dillərin qohumluğu, onların əmələgəlmə və inkişaf yolları anadil (protodil) dövrünə məxsus səs, söz, şəkilçi və cümlələrlə müəyyənləşdirilir, onların qədim şəkli bərpa edilir. Bu metod qohum dillərin eyni mənbədən törəndiyini aydınlaşdırmağa geniş imkan yaradır. XX əsrin I yarısından başlayaraq dillərdə qohumluq axtarışları elmi şəkildə davam etdirilmişdir. Bu əsrdə bir çox dillər tədqiq olunmuş, mövcud bölgülərə əlavələr

edilmişdir. Genealoji bölgüyə görə, müəyyən qohum dillərin cəmi dil ailəsi təşkil edir. Dil ailəsi böyük və kiçik ola bilər. Böyük dil ailələri bir çox dildən ibarət olur. Buna geniş dil ailəsi də deyilir. Az miqdarda dilin qohumluğu əsasında müəyyənləşmiş dil ailəsi kiçik hesab edilir. Bir ailəyə daxil edilən dillərin qohumluq dərəcəsi eyni olmur. Elə buna görə də dil ailələri yaxın və uzaq qohumluğa əsasən qruplara ayrılır. Dil qrupu içərisində fərqlənən dillər yarımqruplar şəklində müəyyənləşdirilir. Bunlar bir-birinə daha yaxın olur. Dillərin genealoji bölgüsü elmi mahiyyətlidir. Bu bölgü morfoloji təsnifə nisbətən daha əhəmiyyətlidir. Genealoji təsnifin zəif və çatışmayan cəhətləri də vardır. İndiyə kimi bir sıra dillərin yeri, qohumluğu hələ dəqiqləşdirilməmiş qalmaqdadır. **DÜNYANIN DİL AİLƏLƏRİ.** Dilçilikdə bütün dillərin qohumluğu kifayət dərəcədə öyrənilməmişdir. Buna görə də dillərin çox müxtəlif şəkildə qruplaşdırılmasına, ailələrə bölünməsinə rast gəlmək olur. Dilçilik tarixində genealoji təsnifə əsasən ənənəvi şəkildə dil ailə və qruplarını aşağıdakı kimi müəyyənləşdirmək daha məqsədəuyğundur.

I. Hind-Avropa dilləri

II. Altay dilləri

III. Qafqaz dilləri

IV. Ural dilləri

V. Paleoazi dilləri

VI. Çin-Tibet dilləri

VII. Dravid dilləri

VIII. Munda dilləri

IX. Mon-Kxmer dilləri

X. Sami-hami dilləri

XI. Bantu dilləri

XII. Bantiod dilləri

XIII. Xausa-Kotoko dilləri

XIV. Mande dilləri

XV. Sudan dilləri

XVI. Qvineya dilləri

XVII. Nilot dilləri

XVIII. Kanuri-teda dilləri

XIX. Buşmen-qottentoq dilləri

XX. Avstronez dilləri

XXI. Papauas dilləri

XXII. Amerika dilləri

İstifadə olunmuş ədəbiyyat siyahısı:

41. Abdullayev Ə. Azərbaycan dili məsələləri, Bakı, 1992

42. Babayev A. Dilçilyə giriş. B. Maarif, 2004

43. Qurbanov A. Ümumi diçilik I cild (2 cilddə), Bakı, Nurlan, 2004

44.Məmmədov N., Axundov A. Dilçilyə giriş. B. Maarif, 1980

Mövzu:15

Dillərin tipoloji təsnifi.

DİLLƏRİN TİPOLOJİ TƏSNİFİ. Dilçilikdə geniş yayılmış bölgülərdən biri tipoloji təsnifdir. Bu təsnifin əsasını dil tipləri təşkil edir. Burada dillər tipinə görə qruplaşdırılır. Dil tipi nədir və o necə müəyyənləşdirilir? Dünya dillərinin struktur xüsusiyyətləri nəzərə alınaraq dil tipi müəyyən edilir. Burada dilin fonetik sisteminə, lüğət tərkibinə və qrammatik quruluşuna aid əlamətlər tutuşdurulur, ümumi və fərqli cəhətlər aşkar edilir. Belə bölgüdə başqa komponentlərə nisbətən qrammatika hissəsi daha münasib hesab edilir, morfoloji və sintaktik əlamətlər əsas obyekt kimi götürülür. Tipoloji təsnifdə dillərin müasir vəziyyəti nəzərə alınır. Burada müqayisəli və qarşılaşdırma metodlarından istifadə olunur. Dillərin bu növ təsnifi fonetik-tipoloji, leksik-tipoloji, morfoloji-tipoloji prinsiplər əsasında qurulur. Tipoloji təsnif dillərin morfoloji tipologiyası əsasında təşəkkül tapmışdır. Tədqiqatçılar dil tiplərini ancaq morfoloji əlamətlərə görə müəyyənləşdirmişlər. Elə buna görə də ilk zamanlar bu təsnif morfoloji təsnif adlanmışdır. Morfoloji tipologiyada dillərin morfoloji quruluşunun

oxşar və fərqli cəhətləri (kökün, şəkilçinin əlamətləri) nəzərə alınır. Morfoloji tipologiyada sözün quruluşu əsas götürülərək dillər aşağıdakı kimi bölünür. Şəkilçisiz dillər, Aqlütinativ dillər Şəkilçili dillər, Flektiv dillər. Sintaktik tipologiyada söz birləşmələri, cümlə quruluşu, sintaktik əlaqələrin xüsusiyyətləri izlənilir və tipoloji mövqedən xarakterizə edilir. Tipoloji təsnif XIX əsrin əvvəllərində meydana çıxaraq, xüsusi formalaşma və təkmilləşmə yolu keçmişdir. Bu təsnifi n əsası Fridrix Şlegel (1772–1829) tərəfi ndən qoyulmuşdur. O, 1808-ci ildə çap etdirdiyi "Hindlilərin dili və müdrikliyi" əsərində sanskrit dilini aşağıdakı dil qrupları ilə müqayisə etmişdir: 1) Yunan dili. 2) Aqlütinativ dillər. 3) Türk dilləri. Bu üç dil qrupunun materialları əsasında belə bir qənaətə gəlmişdir ki, müqayisə olunan yuxarıdakı dillər iki tip təşkil edir: 1) flektiv dillər, 2) aqlütinativ dillər. F.Şlegel bu dil tiplərini səciyyələndirməyə səy etmiş və kökün dəyişib-dəyişməməsini meyar götürərək flektiv dilləri (kök dəyişdiyi üçün) zəngin və möhkəm, aqqlütinativ dilləri isə "kasıb, zəif və süni" dillər hesab etmişdir. Elmi baxımdan F.Şlegelin bu mülahizəsi tamamilə həqiqətəuyğun deyildir. Dövrünün alimləri tərəfindən F.Şlegelin təsnifi mübahisələrə səbəb olmuşdur. Onun mübahisələrdə iştirak edən qardaşı Avqust Şlegel (1767–1845) "Provansal dili və ədəbiyyatı haqqında qeydlər" (1818) əsərində qardaşının göstərdiyi iki dil tipindən əlavə üçüncü dil tipini (amorf dilləri) müəyyənləşdirmişdir. Həmçinin flektiv dillərin iki növdə – analitik və sintetik olduğunu izah etmişdir. Vilhelm Humboldt (1767–1835) morfoloji təsnifə münasibət bildirərək amorf dil tipini dəqiqləşdirərək onu köksözlü dillər adlandırmışdır. O, flektiv, aqlütinativ, köksözlü dil tipləri ilə yanaşı, dördüncüsünü – inkorporlaşan dillər tipini aşkar etmişdir. Adıçəkilən müəlliflər dil tiplərini müəyyənləşdirərkən dillərin tarixini yox, onların hazırkı vəziyyətlərini nəzərə almışlar. Lakin Avqust Şlegel dillərin inkişafını əsas götürmüş və üç dil tipinin köksözlüdən aqqlütinativ və oradan flektivə doğru inkişaf etdiyini söyləmişdir. Onun dillərin inkişafını köksözlüdən başlaması müddəasının elmi əsası yoxdur. Çünki müasir köksözlü dillər heç də flektivdən geri qalmır. Bundan başqa, bir sıra dillər təkhecalılığa doğru inkişaf etməkdədir. Belə bir xüsusiyyət müasir ingilis ədəbi dilində müşahidə olunmaqdadır. Bundan başqa, bəzi dillərdə, o cümlədən türk dillərində şəkilçilərin get-gedə ixtisar edilməsi özünü göstərir. Məsələn, "Bu gün külək yoxdur" cümləsi müasir türkcədə "Bu gün rüzgar yoq" formasında işlədilir. XX əsrin I yarısında Avqust Şlegelin yuxarıdakı bölgüsünə başqa istiqamətdən yanaşanlar da olmuşdur. İngilis alimi Maks Müller köksözlü dilləri "ailə dili", aqlütinativ dilləri "köçəri həyat keçirənlərin dili", flektivi isə "siyasət-dövlət quruluşu olan dil" hesab etmişdir. Əslində, belə mülahizələr, sadəcə olaraq, uydurmadan başqa bir şey deyildir. Çünki tarix göstərir ki, hər üç dil tipindən istifadə edən xalqlar siyasət aləmində əsaslı müddəalar irəli sürmüş

və qüvvətli dövlətlər yaratmışlar. Dilçilikdə yuxarıda bəhs olunan bölgülərdən başqa XIX əsrin sonunda (F.Misteli) və XX əsrin əvvəlində (N.Fink) bir sıra tipoloji təsnif irəli sürülmüşdür. Müxtəlif bölgülərdə dillərin 4, 8 və hətta 21 tipi olduğu göstərilmişdir1 . Bütün təsniflərdə mövqe eyni olmuş, dilin qrammatik quruluşunun əlamətləri əsas meyar götürülmüşdür. Müasir dilçilikdə dünya dillərini dörd tipdə qruplaşdırmaq konsepsiyası daha geniş yayılmışdır. Bu təsnifə görə, dünya dilləri aşağıdakı əsas tiplərə bölünür: 1. Köksözlü dillər. 2. Aqlütinativ dillər. 3. Flektiv dillər. 4. İnkorporlaşan dillər. Bu dil tipləri özlərinə məxsus səciyyəvi cəhətləri ilə bir-birindən fərqlənir.

Şəkilçiləşməyən dillərə monosillobik (təkhecalı), ya xud köksözlü dillər deyilir. Elmi ədəbiyyatda bu tip dillərin "amorf dillər" adlanmasına da rast gəlinir. Amorf terminindən istifadə edilməsi bəzən mübahisə doğurur, onun düzgün olmadığı göstərilir. Əslində, "amorf" dedikdə bir sıra başqa terminlər kimi öz həqiqi mənasında deyil, şərti olaraq işlənilir və forma düzəldən ünsürlərin olmaması nəzərdə tutulur. Köksözlü dillər bir sıra xüsusiyyətləri ilə başqalarından fərqlənir:

1. Lüğət tərkibini təşkil edən leksemlər birhecalı kökdən iba rətdir. Bu tip dillərdə, əsasən, kök morfemlər mövcuddur.

2. Köksözlü dillərdə heç bir söz cümlə daxilində, nitq prosesində dəyişmir.

3. İntonasiya və vurğu həlledici rol oynayır. Bu vasitələr, elə bil, "sözdüzəltməyə" kömək edir.

4. Sözlərin sırası məna ilə bağlı olur. Müəyyən söz başqa sözün önündə və sonunda işlənməklə yeni-yeni mənaların ifadə olunmasına xidmət edir.

5. Sözlər arasında əlaqə yaratmaq üçün bəzən əsas söz (kök) öz həqiqi mənasından uzaqlaşaraq köməkçi kök vəzifəsini ifadə edir.

6. Bəzən mətndən asılı olaraq eyni bir söz həm əşya, həm əlamət, həm də hərəkət bildirir. Deməli, əşya, hərəkət, hadisə və s. bildirən sözlər bir-birindən zahiri əlamətlərinə görə fərqlənmir. Elə buna görə də dilçilər bu dillərdə nitq hissələrinin olmadığını söyləyirlər.

Amorf – (a+moıphos) yunan mənşəlidir. "Morf" forma deməkdir, "a" isə inkarlıq bildirir. Bütövlükdə amorf formasız deməkdir. Dilçilikdə bu termindən "köksözlü dillər" termininin qarşılığı kimi istifadə olunur. Müasir dövrdə köksözlü dillərin bütün xüsusiyyətlərinə tamamilə uyğun gələn dil yoxdur. Bu xüsusiyyətlərin hamısını eyni

bir dildə tapmaq mümkün deyildir. Bunları bu və ya digər şəkildə ayrı-ayrı dillərdə, xüsusilə Cənub-Şərqi Asiyada mövcud olan qədim (klassik) çin dilində, tai dilində, müəyyən dərəcədə Hind-Çindəki Vyetnam dilində, Qərbi Afrikada istifadə olunan bəzi dillərdə müşahidə etmək olur. Məsələn, çin dilində köksözlü dillərin bir sıra xüsusiyyətləri vardır. Çin dilində "xao" sözü ifadə və cümlədəki yerinə və digər xüsusiyyətlərinə görə bir sıra mənalar ifadə edir: 1. "Xao jen" dedikdə "yaxşı adam". 2. "Siyu xao" dedikdə "yaxşılıq etmək". 3. "Dzio xao" dedikdə "qədim dostluq". 4. "Xao daçvix" isə "çox əziz" mənasını ifadə edir1 . Bu sözlər, eyni zamanda, digər mənaların da ifadə olunmasında müəyyən rol oynayır. **AQLÜTİNATİV DİLLƏR.** Aqlütinativ dillər köksözlü dillərdən öz morfoloji quruluşuna görə fərqlənir. Bu dillərdə həm forma yaradan, həm də söz düzəldən ünsürlər vardır. Buna görə də söz kökünə şəkilçi əlavə edib yeni söz yaratmaq və forma dəyişdirmək mümkün olur. Aqlütinativ dillərin aşağıdakı xüsusiyyətləri diqqəti cəlb edir:

1. Başqa dillərə nisbətən aqqlütinativ dillərdə şəkilçilər sözün kökünə çox möhkəm bağlı olmur. Burada söz öz tərkib hissələrinə asanlıqla bölünür. Aqlütinativ – agglutinare latın sözüdür. Mənası "bitişdirmək" deməkdir. Aqlütinativ dillərin bəzi xüsusiyyətlərini Azərbaycan dilinə mənsub aşağıdakı sözlərdə nəzərdən keçirmək olar: məsələn, "yazıçıların", "aparılmış", "zərərsizləşdirmək" sözlərində kök asanlıqla müəyyənləşdirilir və buna qoşulan şəkilçilərin hər birinin funksiyası konkret şəkildə aşkar edilir: 1) yaz (kök) -ı (isim düzəldən şəkilçi), -çı (isim düzəldən şəkilçi), -lar (cəm şəkilçisi), -m (yiyəlik hal şəkilçisi). 2) apar (kök) -ıl (məchul növ şəkilçisi), -mış (nəqli keçmiş zaman şəkilçisi). 3) zərər (kök) -siz (sifət düzəldən şəkilçi), -ləş (fel düzəldən şəkilçi), -dir (təsirli fel yaradan şəkilçi), -mək (məsdər şəkilçisi). Göründüyü kimi, sanki kök və şəkilçilər süni olaraq bir-birinə yapışdırılmışdır, onları asanlıqla ayırmaq olur.

2. Aqlütinativ dillərdə müəyyən qrammatik məna bu və ya başqa sözdə hansı şəkilçi vasitəsilə ifadə olunursa, digər sözlərdə də həmin şəkilçi ilə ifadə edilir. Lakin başqa dillərdə məsələ belə deyildir. Bunu Azərbaycan dilində (aqlütinativ dil) və rus dilində (flektiv dil) cəmlik anlayışını ifadə etmək üçün işlənən şəkilçilərə nəzər yetirdikdə aydın görmək olur. Azərbaycan dilində Rus dilində kitab-lar книги kitab-lar-da в книгах traktor-lar тракторы tələbə-lər студенты dəniz-lər моря və s. Göründüyü kimi, Azərbaycan dilində cəmlik anlayışı hər yerdə eyni şəkilçilərlə, yəni -lar və -lər ilə, rus dilində isə müxtəlif şəkilçilərlə ifadə edilmişdir. Aqlütinativ dillərdə şəkilçilər bir sözdə eyni zamanda ancaq bir vəzifə ifadə edir. Lakin flektiv dillərdə, o cümlədən rus dilində bir şəkilçi bəzən eyni zamanda iki vəzifəni yerinə yetirir. Azərbaycan dilində Rus

dilində məktəblər школы lövhələr доски və s. Bu misallarda Azərbaycan dilindəki sözlərdə lər vasitəsilə ancaq cəmlik anlayışı ifadə olunur. Lakin rus sözlərində i və ı vasitəsilə eyni zamanda həm adlıq hal, həm də cəmlik ifadə edilir1 . Aqlütinativ dil tipinə aşağıdakı dillər daxildir: türk dilləri, fin dilləri, uqor dilləri, Qafqaz dilləri, dravid dilləri, İndoneziya dilləri, bantu dilləri və s.

FLEKTİV DİLLƏR. Flektiv dillər də şəkilçilidir. Bu cəhətə görə köksözlü dillərdən fərqlənir. Lakin flektiv dillər bir sıra xüsusiyyətlərinə görə şəkilçili olan aqlütinativ dillərdən də seçilir. Tipoloji bölgüyə görə, rus, alman, ingilis, latın, hind, ərəb, yəhudi və s. flektiv dillərə aiddir. Flektiv dillərin aşağıdakı əsas xüsusiyyətləri mövcuddur:

1) Şəkilçilər bir-biri ilə və köklə möhkəm bağlı olur. Bu dillərdə çox zaman şəkilçiləri kökdən ayırmaq mümkün deyildir.

2) Başqa dillərə nisbətən flektiv dillərdə daxili fleksiya, yəni qrammatik forma yaratmaq üçün söz köklərində səslərin dəyişməsi halları daha qüvvətlidir. Bunu aqqlütinativ dillərlə müqayisədə aydın görmək olur. Məsələn, rus dilində "dost", alman dilində "qardaş", ingilis dilində "ayaq", "adam" sözlərini götürək və bunların tək və cəm formalarına fikir verək. Flektiv dillərdə Aqlütinativ dillərdə Rus dilində Azərbaycan dilində Друг tək dost Друзья cəm dostlar Alman dilində Azərbaycan dilində Bruder tək qardaş Brüder cəm qardaşlar İngilis dilində Azərbaycan dilində foot tək ayaq feet cəm ayaqlar man tək adam men cəm adamlar Buradan göründüyü kimi, rus dilindəki "dostlar", alman dilindəki "qardaşlar", ingilis dilindəki "ayaqlar" və "adamlar" sözləri daxili fleksiya əsasında dəyişib yeni qrammatik forma əmələ gətirir. Fleksiya sami dillərdə, o cümlədən ərəb və yəhudi dillərində daha xüsusi rola malikdir.

3. Bir sözdüzəldici və ya sözdəyişdirici şəkilçi bir neçə qrammatik funksiyaya malik olur. Məsələn, rus dilində bəzi sifətlərdə şəkilçilər eyni zamanda hal, kəmiyyət və cins kateqoriyalarını da bildirir.

4. Bir şəkilçi bəzən bir neçə qrammatik kateqoriyanı yaratmağa xidmət edir. Məsələn, rus dilində – ka şəkilçi si kiçiltmə – əzizləmə (Иванушка, мальчишка, годка, ручка və s.), qadın cinsi (соседка, санитарка, акти вистка və s.) və ümumi əlamət (вечерка, неотложка, погонка və s.) mənalarını bildirir. Bu xüsusiyyətlərin sayını artırmaq da mümkündür. Buraya sözlərdə sıfır dərəcəli şəkilçilərin olması, söz əsaslarının müstəqil işlənə bilməməsi və s. daxildir. Flektiv dillərin hamısı eyni xüsusiyyətə malik deyildir. Buna görə də flektiv dillərin özləri də iki yerə bölünür: 1) sintetik-flektiv dillər; 2) analitik-flektiv dillər. 1. Sintetik-flektiv dillərin başlıca xüsusiyyəti ondan ibarətdir ki, cümlə daxilində sözlər arasındakı əlaqəni söz özü yaradır. Bu cür dillərdə hal

kateqoriyası özünü göstərir. Buraya qədim yazılı hind-Avropa dillərinə mənsub edilən sanskrit, yunan, latın, qədim slavyan dilləri, habelə müasir rus dili daxildir. 2. Analitik-flektiv dillərin başlıca xüsusiyyəti ondan ibarətdir ki, cümlə daxilində sözlər arasındakı əlaqəni müstəqil söz yox, köməkçi sözlər və söz cərgəsi yaradır. Bu cür dillərdə ya tamamilə hal kateqoriyası özünü göstərmir, ya da onun müəyyən əlamətləri nəzərə çarpır. Buraya müasir hind-Avropa dillərindən fransız, italyan və ingilis dilləri, slavyan dillərindən isə bolqar dili daxildir.

İNKORPORLAŞAN DİLLƏR. İnkorporlaşan dillərin başlıca struktur xüsusiyyəti ondan ibarətdir ki, bir neçə sözün az və ya çox dərəcədə bir söz tərkibində birləşməsi, morfoloji bitişməsi nəticəsində cümlə əmələ gəlir. Başqa şəkildə demiş olsaq, bizim işlətdiyimiz cümlələrin hər biri inkorporlaşan dillərdə bir mürəkkəb sözlə ifadə olunur. Məsələn, dilimizdəki "Mən gəldim ki, bunu ona verim" cümləsi Şimali Amerika hindilərinin çinuk dilində, bir sözlə, yəni i-n-i-a-ı-u-d-a-m sözünə uyğun gəlir. Alimlər müəyyən etmişlər ki, bu sözdəki ayrı-ayrı səslər bu və ya başqa anlayışı və sözü bildirir. Yaxud, asteklərin dilində nakatl – "ət", kva – "yemək", ni – "mən " deməkdir. "Mən ət yeyirəm" – dedikdə sözlər birləşərək "ninakakva" kimi tələff üz olunur ki, bu da "söz-cümlə" şəklini alır. Burada dil vahidini söz və cümləyə ayırmaq olmur. İnkorporlaşan dillərə Amerika hindilərinin bir sıra dilləri, Asiya dillərindən olan çukot, koryat, aleut, eskimos, kamçadal və s. dilləri aid etmək olar.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

45. Abdullayev Ə. Azərbaycan dili məsələləri, Bakı, 1992

46. Babayev A. Dilçilyə giriş. B. Maarif, 2004

47. Qurbanov A. Ümumi diçilik I cild (2 cilddə), Bakı, Nurlan, 2004

48.Məmmədov N., Axundov A. Dilçilyə giriş. B. Maarif, 1980